Xalqın qəzeti!

# Xalq qəzeti

№ 105 (30509) 21 may 2024-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzeti

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

## Tərəqqinin yolu səmimi qonşuluq və faydalı əməkdaşlıqdan keçir



Səhifə ⇨ 8

# Xəzərdən Baltikə dostluq və əməkdaşlıq körpüsü

## Prezident İlham Əliyev Latviya Seymi sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 20-də Latviya Seyminin sədri Dayqa Mierinanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev dövlət başçıları səviyyəsində və digər səviyyələrdə həyata keçirilən qarşılıqlı səfərlərin əlaqələrimizin genişlənməsinə töhfə verdiyini qeyd etdi. Azərbaycan Prezidenti parlamentlərarası əməkdaşlığın önəminə toxundu.

Dövlətimizin başçısı bildirdi ki, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin olunmasından sonra regionda sülh üçün tarixi imkanlar yaranıb. Azərbaycan Prezidenti Minsk qrupunun həmsədrlərinin fəaliyyətinə toxunaraq, onun hər hansı nəticəyə nail olmadığını, o zaman ərazilərimizin işğalının davam etdiyini vurğuladı. Hazırda isə sülh gündəliyinin irəli aparılması üçün çox yaxşı və əlverişli imkanların olduğunu deyən dövlətimizin başçısı sərhədlərin delimitasiyası və demarkasiyası istiqamətində də ikitərəfli proses çərçivəsində müsbət razılaşmaların əldə olunduğunu qeyd etdi.

Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan bu münaqişəni həll etdi. Beləliklə, beynəlxalq münasibətlərdə bir münaqişə öz həllini tapıb. Lakin, buna baxmayaraq, təəssüf doğuran haldır ki, dünyada yeni münaqişə ocaqlarının formalaşması baş verməkdədir.

Dövlətimizin başçısı Dayqa Mierinanın Qarabağa səfərinə də toxundu.

Latviya Seyminin sədri Qarabağa səfər etmək üçün onlara imkan yaradıldığını deyərək Şuşada və Qarabağın digər yerlərində olduqlarını məmnunluqla vurğuladı.

Qonaq ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 30 illik müddəti əhatə etməsinə baxmayaraq, xalqlarımız arasında mədəni əlaqələrin tarixinin daha dərin köklərinin olduğunu dedi. Bu xüsusda o, 100 ildən də əvvəl latviyalı rəssam Yulie Straumenin Şuşada yaşadığını və orada müəllim işlədiyini, həmçinin onun Şuşada Azərbaycan xalçalarının kolleksiyasını yaratdığını məmnunluqla xatırladı.

Dayqa Mierina COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırdı.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirdi, COP29-da iştirak etmək üçün Latviya Prezidentinin də ölkəmizə səfər edəcəyini dedi.

Görüşdə beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimiz arasında əlaqələrdən və qarşılıqlı dəstəkdən məmnunluq bildirildi. Latviyanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə namizədliyinin dəstəklənməsinə görə Azərbaycana bir daha minnətdarlıq ifadə olundu. Azərbaycan ilə Avropa İttifaqı və NATO arasında əməkdaşlığa Latviyanın göstərdiyi dəstək və ölkəmizin Avropa İttifaqına üzv ölkələrin enerji təhlükəsizliyinə töhfəsi yüksək qiymətləndirildi. Orta Dəhlizin inkişaf etdirilməsində Azərbaycanın rolu və region dövlətləri ilə birgə fəaliyyəti qeyd olundu.

Söhbət zamanı ölkələrimiz arasında kənd təsərrüfatı, turizm və digər sahələrdə əməkdaşlıq məsələlərinə toxunuldu, Latviyanın kənd təsərrüfatı sahəsində çox yaxşı təcrübəsinin olduğu bildirildi və bu sahədə Azərbaycan ilə əməkdaşlığa maraq ifadə edildi.

***AZƏRTAC***

# Türkiyə bölgədə sülh prosesini yaxından izləyir



**Mayın 20-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Telefon söhbəti zamanı Türkiyə-Azərbaycan əlaqələri, regional və qlobal proseslər müzakirə olundu.

Prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycan ilə Ermənistan arasında sülh prosesinin müsbət istiqamətdə irəliləməsindən məmnunluğunu ifadə etdi və Türkiyənin prosesi yaxından izlədiyini bildirdi.

Türkiyə Prezidenti bölgədə təmin olunacaq ədalətli və davamlı sülhün həm Azərbaycan, həm Ermənistan, eləcə də bölgə ölkələri üçün yeni bir mühit yaradacağını vurğuladı.

Söhbət zamanı gələcək əməkdaşlıq haqqında fikir mübadiləsi aparıldı.

**Prezidentin Mətbuat Xidməti**

# İran xalqı görkəmli dövlət xadimini itirdi

## *İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xamenei həzrətlərinə*



**Möhtərəm Ayətullah Xamenei həzrətləri!**

Dost və qardaş İran İslam Respublikasına və xalqına üz vermiş ağır itki - İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin, xarici işlər naziri Hüseyn Əmir Abdullahiyanın və digər müşayiət edən şəxslərin helikopter qəzasında faciəli surətdə həlak olması xəbəri bizi olduqca sarsıtdı.

Prezident Seyid İbrahim Rəisinin simasında İran xalqı bütün həyatını ölkəsinə fədakarlıqla və sədaqətlə xidmət etmiş görkəmli dövlət xadimini itirdi. Onun əziz xatirəsi qəlbimizdə daim yaşayacaqdır.

Bu hüznlü gündə Uca Allahdan dost və qardaş İran xalqına səbir və dözüm diləyir, kədərinə şərik olduğumuzu bildirir, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**Allah rəhmət eləsin!**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 may 2024-cü il**

# Azərbaycan–İran: yüksək səmimiyyətdən sonra ... üzücü yaşantı

**İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin helikopterinin qəzaya uğraması və hadisə nəticəsində dövlət başçısı ilə bərabər digər yüksək ranqlı nümayəndələrin həlak olması böyük faciədir. Faciənin Azərbaycan və İran prezidentlərinin dövlət sərhədində görüşmələrindən, Araz çayı üzərində inşa edilmiş “Xudafərin” hidroqovşağının istismara verilməsi və “Qız qalası” hidroqovşağının açılış mərasimi kimi əlamətdar hadisədən sonra yaşanması xüsusilə üzücüdür.**



Olayla bağlı müxtəlif şayiə və fərziyələr var. Bunları, müəyyən mənada, təbii saymaq mümkündür. Çünki bir ölkə rəhbərini, habelə ali səviyyəli şəxsləri daşıyan helikopterin qəzaya uğraması adi məsələ sayıla bilməz. Yəni, istənilən halda konsprioloji baxışlar gündəmə gələ bilər və gəlir də. Əlbəttə, onların üzərində dayanmaq düzgün deyil. Rəsmi versiyanı əsas götürək. Yəni, qəza texniki amillərlə bağlıdır.

Məlum olduğu kimi, Azərbaycan Prezidenti İlham Əliyev helikopterin İranda qəzaya uğraması ilə bağlı X sosial şəbəkəsindəki rəsmi səhifəsində paylaşım etdi. Bu, olaya rəsmi səviyyədə ilk reaksiya idi: “Bu gün İran İslam Respublikasının Prezidenti İbrahim Rəisi ilə dostcasına xudahafizləşdikdən sonra ali nümayəndə heyətini daşıyan helikopterin İranda qəza enişi etməsi barədə xəbər bizi ciddi şəkildə narahat etdi. Uca Allahdan dualarımız Prezident İbrahim Rəisi və onu müşayiət edən nümayəndə heyəti ilədir. Qonşu, dost və qardaş ölkə olaraq Azərbaycan Respublikası hər cür dəstək göstərməyə hazırdır”.

***

Qeyd edək ki, Azərbaycan və İran prezidentləri “Xudafərin” hidroqovşağının istismara verilməsi və “Qız qalası” hidroqovşağının açılış mərasimində kifayət qədər səmimi fikirlər səsləndirmələri ilə yadda qalmışdılar. Məsələn, ölkəmizin lideri bildirmişdi: “Hörmətli cənab Prezident, mən hesab edirəm ki, bugünkü görüş və mərasim İran - Azərbaycan əlaqələrinin tarixində gözəl, parlaq səhifə kimi qalacaq. Çünki bu gün açılışını edəcəyimiz layihə həm texniki nöqteyi-nəzərdən çox önəmlidir, eyni zamanda, iki xalqı, iki dövləti daha da sıx birləşdirəcək. Xalqlarımızın birgə uğuru, təbii ki, dostlarımızı sevindirir, bunu bəyənməyənlər isə hesab edirəm ki, öz işləri ilə məşğul olsalar, daha yaxşı olar. Əsas odur ki, İran və Azərbaycan dövlətləri bu gün çox güclü birgə siyasi iradə göstərirlər, öz xalqlarına və bütün dünyaya açıq bəyan edirlər ki, biz birlikdəyik və bundan sonra da birlikdə olacağıq. İran – Azərbaycan əlaqələri bölgəmizdə sabitliyin önəmli şərtidir. Təbii ki, belə gözəl layihə xalqlarımızın rifahını yaxşılaşdıracaq və iş yerlərini artıracaq, beləliklə uğura doğru növbəti addım olacaq. Əminəm ki, gələcəkdə buna oxşar birgə layihələrin sayı çox olacaqdır”.

İran Prezidenti də mərasimdə səmimi fikirlər səsləndirmişdi. Elə fikirlər ki, onlara əsasən İranla Azərbaycan arasında son illərdə yaşanmış müəyyən soyuqluğun tam aradan qalxdığını, münasibətlərin ən yüksək inkişaf mərhələsinə qədəm qoyduğunu söyləmək mümkün idi: “Allahın adı ilə. Cənab Prezident, çox xoşbəxtəm ki, Azərbaycan Respublikasının hörmətli Prezidenti cənab İlham Əliyev ilə yenə də bir daha yaxından görüşürük və birgə müzakirəmizi yenidən nəzərdən keçiririk. Böyük xoşbəxtlik ondan ibarətdir ki, bu görüş bir yerdə baş tutur, burada böyük bir layihə həyata keçirilib və bu, iki xalq üçün çox uğurlu bir görüşdür. Hazırda biz istismara verilməsi iki xalq və iki dövlət üçün çox əhəmiyyət kəsb edən bir layihənin açılışında iştirak edəcəyik. Bunun özü əlamətdar bir hadisədir ki, iki xalq, iki dövlət arasında da çox mühüm böyük layihələr həyata keçirilə bilər. Ola bilsin ki, bəziləri bizim bu görüşlərimizi və birgə uğurlarımızı bəyənməsinlər. Bunlar bizim üçün əhəmiyyət kəsb etmir. Əsas odur ki, ölkələrimiz, dövlətlərimiz və xalqlarımız üçün nə xeyirlidirsə, biz onu birgə həyata keçirdik”.

*(ardı 4-cü səhifədə)*

# Azərbaycan qazının Avropa bazarı



Səhifə ⇨ 7

# Fransızsayağı qudurğanlıq



Səhifə ⇨ 4

# Azərbaycan və İran prezidentlərinin tarixi görüşü



**Mayın 19-da Araz çayı üzərində inşa edilmiş “Xudafərin” hidroqovşağının istismara verilməsi və “Qız qalası” hidroqovşağının açılışı Azərbaycan ilə İran arasında münasibətlərin inkişafında keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı oldu.**

Açılış mərasimindən əvvəl Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi Azərbaycan Respublikası ilə İran İslam Respublikasının dövlət sərhədində görüşüblər.




Təəssüf ki, həmin əhəmiyyətli tədbirdən sonra İran Prezidenti Seyid İbrahim Rəisi, xarici işlər naziri Hüseyn Əmir Abdullahiyan və onları müşayiət edən şəxslər helikopter qəzası nəticəsində faciəli surətdə həlak olublar.

Azərbaycan Prezidenti İlham Əliyev İran Prezidentinin olduğu helikopterin qəza enişi etməsi ilə bağlı xəbərlərin yayıldığı ilk dəqiqələrdə X sosial şəbəkəsindəki rəsmi səhifəsində paylaşım edərək bu barədə narahatlığını ifadə edib. Dövlətimizin başçısı paylaşımında bildirib: “Bu gün İran İslam Respublikasının Prezidenti İbrahim Rəisi ilə dostcasına xudahafizləşdikdən sonra ali nümayəndə heyətini daşıyan helikopterin İranda qəza enişi etməsi barədə xəbər bizi ciddi şəkildə narahat etdi. Uca Allahdan dualarımız Prezident İbrahim Rəisi və onu müşayiət edən nümayəndə heyəti ilədir. Qonşu, dost və qardaş ölkə olaraq Azərbaycan Respublikası hər cür dəstək göstərməyə hazırdır”.

Əfsuslar olsun ki, mayın 20-si səhərin erkən saatlarında İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin, xarici işlər naziri Hüseyn Əmir Abdullahiyanın və digər şəxslərin bu faciəvi hadisə nəticəsində həlak olmaları rəsmi şəkildə təsdiqləndi.

Prezident İlham Əliyev dost və qardaş İran xalqına üz vermiş ağır itki ilə əlaqədar İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneiyə başsağlığı məktubu ünvanlayıb **(Məktub qəzetin bugünkü nömrəsində dərc olunub).**

Azərbaycan və İran prezidentlərinin “Xudafərin” hidroqovşağının istismara verilməsi və “Qız qalası” hidroqovşağının açılış mərasimindən əvvəl keçirilən görüşü iki ölkə arasındakı münasibətlərin inkişafı baxımından növbəti mühüm töhfə oldu. Dövlət başçılarının həmin görüşdə ölkələrimiz arasında münasibətlərin inkişafı, eləcə də bu layihənin əhəmiyyəti barədə açıqlamaları xüsusi əhəmiyyətə malikdir.

Görüşdə ikitərəfli münasibətlərin dərin tarixinə toxunan Seyid İbrahim Rəisi bildirib: “Biz Azərbaycanın uğurunu, nailiyyətini öz nailiyyətimiz bilirik. Bizim Azərbaycanla münasibətlərimiz, bağlılığımız təkcə qonşuluq bağlılığı deyil, aramızda qəlb bağlılığı, tarixi bir bağlılıq və kök bağlılığı var”.

Prezident İlham Əliyev layihənin açılışının əhəmiyyətini qeyd edərək deyib: “Biz ta qədimdən gələn ulu əcdadlarımızın arzularını indi həyata keçiririk. Əminəm ki, bundan sonra da iki qardaş xalq bir-biri ilə sıx təmasda yaşayacaq, quracaq, belə gözəl xariqələr yaradacaq”.

Sonra nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə İran Prezidenti vurğulayıb: “Böyük xoşbəxtlik ondan ibarətdir ki, bu görüş bir yerdə baş tutur, burada böyük bir layihə həyata keçirilib və bu, iki xalq üçün çox uğurlu bir görüşdür”.

Azərbaycan Prezidenti də bu tarixi görüşün önəmini xüsusi vurğulayaraq qeyd edib: “Bugünkü görüş və mərasim İran-Azərbaycan əlaqələrinin tarixində gözəl, parlaq səhifə kimi qalacaq. Çünki bu gün açılışını edəcəyimiz layihə həm texniki nöqteyi-nəzərdən çox önəmlidir, eyni zamanda, iki xalqı, iki dövləti daha da sıx birləşdirəcək. Xalqlarımızın birgə uğuru təbii ki, dostlarımızı sevindirir, bunu bəyənməyənlər isə hesab edirəm ki, öz işləri ilə məşğul olsalar, daha yaxşı olar. Əsas odur ki, İran və Azərbaycan dövlətləri bu gün çox güclü birgə siyasi iradə göstərirlər, öz xalqlarına və bütün dünyaya açıq bəyan edirlər ki, biz birlikdəyik və bundan sonra da birlikdə olacağıq. İran-Azərbaycan əlaqələri bölgəmizdə sabitliyin önəmli şərtidir. Təbii ki, belə gözəl layihə xalqlarımızın rifahını yaxşılaşdıracaq və iş yerlərini artıracaq, beləliklə uğura doğru növbəti addım olacaq. Əminəm ki, gələcəkdə buna oxşar birgə layihələrin sayı çox olacaqdır”.

Görüşlərdən sonra Araz çayı üzərində inşa edilmiş “Xudafərin” hidroqovşağının istismara verilməsi və “Qız qalası” hidroqovşağının açılış mərasimi keçirilib.

Açılış mərasimində əvvəlcə Azərbaycanın energetika naziri Pərviz Şahbazov və İranın energetika naziri Əli Əkbər Mehrabian çıxış ediblər.

Azərbaycan Prezidenti İlham Əliyev çıxışında “Qız qalası” hidroqovşağının açılışını və “Xudafərin” hidroqovşağının istismara verilməsini tarixi hadisə adlandıraraq bildirib: “Bu gün keçirilən mərasim dostluğumuzun növbəti təzahürüdür. Bu gün İran-Azərbaycan dostluğunun nə qədər möhkəm olmasını bütün dünya görür. Bu dostluğun dərin kökləri, dərin tarixi var. Əsrlər boyu İran və Azərbaycan xalqları bir yerdə yaşayıb-yaratmışlar və bu gün bu möhkəm zəmin üzərində qurulan dövlətlərarası münasibətlər, hesab edirəm ki, ən yüksək səviyyəyə qalxıb”.

Dövlətimizin başçısı İran–Azərbaycan dostluğunun və qardaşlığının önəmini vurğulayaraq qeyd edib: “Bölgənin sabitliyi, gələcək təhlükəsizlik tədbirlərinin gücləndirilməsi üçün İran-Azərbaycan dostluğu, qardaşlığı önəmli amildir. Biz bütün beynəlxalq təşkilatlarda, üzv olduğumuz təşkilatlarda bir-birimizi dəstəkləyirik və bundan sonra da bu dəstəyi göstərəcəyik. Qoşulmama Hərəkatında, İslam Əməkdaşlıq Təşkilatında, ECO-da və BMT-də bir-birimizə dəstək verməklə, eyni zamanda, öz siyasətimizi, öz niyyətimizi ifadə edirik”.

Prezident İlham Əliyev ölkələrimizi birləşdirən əməkdaşlıqda nəqliyyat layihələrinin rolunu xüsusi qeyd edib: “Bu gün nəinki ölkələrimiz üçün, daha geniş coğrafiya üçün böyük əhəmiyyət daşıyan Şimal–Cənub Nəqliyyat Dəhlizinin yaradılması ilə əlaqədar birgə səylər göstərilib. Bu günə qədər göstərilən səylər artıq real layihələrə çevrilib. Bundan sonra həm İran ərazisində, həm Azərbaycan ərazisində müasir dəmir yolu infrastrukturunun yaradılması və modernləşdirilməsi Şimal-Cənub Nəqliyyat Dəhlizini dünyanın ən önəmli nəqliyyat damarına çevirəcəkdir”.

Dövlətimizin başçısı energetika sahəsində də çox böyük planların olduğunu vurğulayaraq, enerji güclərinin də bərabər bölünməsinin hər iki ölkəyə əlavə fayda verəcəyini diqqətə çatdırıb.

İran-Azərbaycan əlaqələrinin gələcək inkişafının çox müsbət olduğunu qeyd edən Prezident İlham Əliyev bildirib: “İran–Azərbaycan birliyi, dostluğu sarsılmazdır. Heç kim bizim aramıza girə bilməz. Bu səylər əbəsdir və biz bugünkü mərasimlə bunu bir daha sübut edirik”.

Araz çayının hər zaman İran və Azərbaycan, xalqlarımız arasında bağ olduğunu vurğulayan Prezident Seyid İbrahim Rəisi qeyd edib: “İranın Azərbaycanla olan əlaqəsi qonşuluq əlaqəsindən daha üstündür. Bu, qohumluq əlaqəsidir. Bu əlaqə və bağ çox möhkəm, çox dərin bir bağdır. Bu bağ, bu əlaqə iki ölkənin dərin tarixi, mədəni və dini əlaqələrinə söykənir. Təbii ki, bu əlaqə bizim ölkələrin tarixə dayanan əlaqəsi olaraq xalqlarımızı bir-birinə birləşdirir”.

Seyid İbrahim Rəisi çıxışında Azərbaycanın ərazi bütövlüyünün bərpası münasibətilə təbriklərini çatdıraraq deyib: “Fürsətdən istifadə edərək azərbaycanlı dostlarımızı da təbrik edirik ki, ölkənin suverenliyini və ərazi bütövlüyünü bərpa etmişlər. Biz Qarabağın Azərbaycanın ərazisi olduğunu səlis formada, tam açıq şəkildə bildirən ilk ölkələrdən biri olmuşuq. Bu bölgədə, Qarabağda dirçəliş proqramı əsasında əməkdaşlığımızı hər zaman göstərməyə hazır olduğumuzu bir daha bildirmək istəyirəm”.

İki ölkə arasındakı əlaqələrin İran üçün də çox önəmli olduğunu qeyd edən Seyid İbrahim Rəisi bildirib: “Energetika, nəqliyyat, mədəniyyət, iqtisadiyyat, ticarət sahələrində əlaqələr ölkələrimizin xalqlarının mənafeyinə xidmət etməlidir. Bizim üçün ən vacib məsələ ölkələrimizin maraqlarıdır. Düşmənlər nə Azərbaycanın, nə də İranın inkişafını görmək istəmirlər. Düşünürük ki, Azərbaycanın inkişafı bizim də inkişafımızdır. İki ölkə arasındakı sərhəddə təhlükəsizliyə təhdid yaradan hər hansı məsələ bizim üçün də təhlükə yarada bilər. Biz çalışırıq ki, sərhədləri ümid sərhədinə çevirək. Çalışırıq ki, sərhədlər bizim üçün narahatlıq yaratmasın. Sərhəd bizim üçün fürsət və ümid yaratmalıdır. Biz çalışırıq ki, sərhədləri fürsətə çevirək”.

**(ardı 3-cü səhifədə)**

## Prezident İlham Əliyev İran Prezidenti İbrahim Rəisinin olduğu helikopterin qəza enişi etməsi ilə bağlı paylaşım edib


İlham Əliyev
@azpresident

Bu gün İran İslam Respublikasının Prezidenti İbrahim Rəisi ilə dostcasına xudahafizləşdikdən sonra ali nümayəndə heyətini daşıyan helikopterin İranda qəza enişi etməsi barədə xəbər bizi ciddi şəkildə narahat etdi. Uca Allahdan dualarımız Prezident İbrahim Rəisi və onu müşayiət edən nümayəndə heyəti ilədir. Qonşu, dost və qardaş ölkə olaraq Azərbaycan Respublikası hər cür dəstək göstərməyə hazırdır. @raisi_com

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran İslam Respublikasının Prezidenti İbrahim Rəisinin olduğu helikopterin İranda qəza enişi etməsi ilə bağlı X sosial şəbəkəsindəki rəsmi səhifəsində paylaşım edib.**

Paylaşımda deyilir: “Bu gün İran İslam Respublikasının Prezidenti İbrahim Rəisi ilə dostcasına xudahafizləşdikdən sonra ali nümayəndə heyətini daşıyan helikopterin İranda qəza enişi etməsi barədə xəbər bizi ciddi şəkildə narahat etdi. Uca Allahdan dualarımız Prezident İbrahim Rəisi və onu müşayiət edən nümayəndə heyəti ilədir. Qonşu, dost və qardaş ölkə olaraq Azərbaycan Respublikası hər cür dəstək göstərməyə hazırdır”.

## Kamerun Respublikasının Prezidenti Zati-aliləri cənab Pol Biyaya

**Hörmətli cənab Prezident!**

Kamerun Respublikasının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu bayram günündə Sizə ən xoş arzularımı çatdırır, dost Kamerun xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 may 2024-cü il**

## Azərbaycan Respublikası vətəndaşlarının 2024-cü il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə **qərara alıram:**

**1.** 2006-cı ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1989-2005-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2024-cü il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

**2.** “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2024-cü il iyulun 1-dən 30-dək ehtiyata buraxılsınlar.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 may 2024-cü il**

## Ş.V.Bayramovun Qarabağ Universitetinin rektoru təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Şahin Vaqif oğlu Bayramov Qarabağ Universitetinin rektoru təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 may 2024-cü il**

## Ş.V.Bayramovun Mingəçevir Dövlət Universitetinin rektoru vəzifəsindən azad edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Şahin Vaqif oğlu Bayramov Mingəçevir Dövlət Universitetinin rektoru vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 may 2024-cü il**

## Azərbaycan Tayvanın müstəqilliyini tanımır

**Bu il yanvarın 13-də Xarici İşlər Nazirliyinin açıqlamasında qeyd edildiyi kimi, Azərbaycan Respublikası “Vahid Çin” siyasətini dəstəkləyir və ölkəmiz Tayvanın müstəqilliyini tanımır.**

Bunu Nazirliyin Mətbuat xidməti idarəsinin rəhbəri Ayxan Hacızadə Tayvanda keçirilmiş seçkilər və Tayvan administrasiyasının rəhbərinin fəaliyyətə başlaması ilə bağlı Azərbaycan XİN-in mövqeyi ilə bağlı yerli medianın sualına cavabında deyib.

**XQ**

# Azərbaycan və İran prezidentlərinin tarixi görüşü



(əvvəli 2-ci səhifədə)

Qeyd edək ki, Azərbaycan Respublikası ilə İran İslam Respublikası dövlət sərhədində - Araz çayı üzərində inşa edilən "Xudafərin" və "Qız qalası" hidroqovşaqları elektrik enerjisi istehsalı və suvarma məqsədilə tikilib. Hidroqovşaqların layihələri Sovet İttifaqı ilə İran arasında 1977-ci ilin oktyabrında imzalanan razılaşma əsasında hazırlanıb. Layihələri 1990-cı illərin əvvəllərində yenidən işlənilən hidroqovşaqların tikintisi Azərbaycan ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal edilməsi nəticəsində dayandırılsa da, sonrakı dövrlərdə tikinti işləri yalnız İran İslam Respublikası tərəfindən aparılıb.

2020-ci ildə Vətən müharibəsi nəticəsində Azərbaycanın torpaqları, o cümlədən hidroqovşaqların tikildiyi ərazi işğaldan azad edilib. Araz çayı üzərində "Xudafərin" və "Qız qalası" hidroqovşaqlarının və su elektrik stansiyalarının tikintisinin davam etdirilməsi, istismara qəbulu ilə əlaqədar bəzi məsələlər barədə Sərəncama əsasən, 2021-ci ildə "AzərEnerji" ASC Azərbaycan Respublikası tərəfindən sifarişçi kimi müəyyən edilib.

Araz çayının su ehtiyatlarından səmərəli istifadə olunmaqla elektrik enerjisinin istehsalı və əkin sahələrinin su təminatının yaxşılaşdırılmasına xidmət edəcək "Xudafərin" və "Qız qalası" hidroqovşaqlarında su bəndlərinin tikintisi üzrə işlər tamamlanıb, su anbarlarının doldurulması işlərinə başlanılıb. Hazırda "Xudafərin" su anbarında 503 milyon kubmetr, "Qız Qalası" su anbarında isə 42 milyon kubmetr su yığılıb ki, bu da ümumi tutumun 40 və 85 faizini təşkil edir.

**AZƏRTAC**

# Latviya Seyminin sədri Milli Məclisdə



**Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə rəsmi səfərdə olan Latviya Respublikası Seyminin sədri Dayqa Mierinanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə 2018-ci ildə 100 illik yubileylərini qeyd etmiş Azərbaycan və Latviyanın bənzər tarixə malik dost və strateji tərəfdaş ölkələr olduğu qeyd olunub. Bu gün ölkələrimiz arasında siyasi sahədəki sıx əməkdaşlıq iqtisadi, mədəni, elmi-texniki və humanitar sahələrdə də əlaqələrin daha da genişlənməsinə öz müsbət təsirini göstərməkdədir. Dövlət başçılarının yüksək səviyyəli qarşılıqlı səfərlərinin, keçirilən görüşlərin, müntəzəm təmasların, həmçinin müxtəlif sahələrdə imzalanan sənədlərin iki ölkə arasında əlaqələrin daha da möhkəmlənməsinə xidmət etdiyi diqqətə çatdırılıb.

S.Qafarova bu səfərin ölkələrimiz və parlamentlərimiz arasında əlaqələrin daha da inkişafına və möhkəmlənməsinə töhfə verəcəyinə inamını ifadə edib. O, iki il öncə Latviyaya rəsmi səfəri çərçivəsində keçirilən görüşləri, aparılan danışıqları məmnuniyyətlə xatırlayıb və ikitərəfli münasibətlərin inkişafında parlamentlərarası əlaqələrin rolunu xüsusi qeyd edib. Spiker Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin olunmasından sonra regionda yaranmış yeni vəziyyət barədə qonağı məlumatlandırıb.

Üç gün öncə Cenevrə şəhərində Ermənistan parlamentinin spikeri ilə keçirilmiş ikinci görüşünün təfərrüatları barədə danışan S.Qafarova Azərbaycan sülh gündəliyinə sadiqliyini nümayiş etdirdiyni diqqətə çatdırıb. Spikerin sözlərinə görə, iki ölkə arasında sərhədlərin delimitasiyası və demarkasiyası istiqamətində də proses davam etdirilir.

Dayqa Mierina Azərbaycana ilk rəsmi səfərinin ölkələrimiz arasında diplomatik münasibətlərin yaradılmasının 30 illiyinin qeyd olunduğu bir vaxta təsadüf etdiyindən məmnunluğunu bildirib. Prezident İlham Əliyevlə keçirdiyi görüş barədə məlumat verən qonaq, görüşdə ikitərəfli əlaqələrin müxtəlif sahələrini əhatə edən əməkdaşlığın dərinləşdirilməsi barədə fikir mübadiləsinin aparıldığını deyib. Qonaq Latviyanın BMT TŞ-nin qeyri-daimi üzvlüyü məsələsində Azərbaycanın birmənalı dəstəyinə görə təşəkkürünü bildirib, ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini daim dəstəklədiyini vurğulayıb.

Seymin sədri 100 ildən də əvvəl latviyalı rəssam Yulie Straumenin Şuşada yaşadığını və orada müəllim işlədiyini, həmçinin onun Şuşada Azərbaycan xalçalarının kolleksiyasını yaratdığını xatırladıb.

Qarabağ regionuna səfərindən söz açan Latviya parlamentinin sədri Füzuli və Şuşa şəhərləri ilə tanışlıq zamanı gördükləri barədə təəssüratlarını bölüşüb. O deyib ki, gələcəkdə latviyalı şirkətlər də Qarabağda aparılan bərpa və yenidənqurma işlərində iştirak edə bilərlər.

***

**Mayın 20-də ölkəmizdə rəsmi səfərdə olan Latviya Respublikası parlamentinin sədri Dayqa Mierina ilə Milli Məclisdə mətbuat konfransı keçirilib.**

Jurnalistlərin suallarına cavablandıran Latviya parlamentinin sədri ölkəmizə səfəri çərçivəsində keçirdiyi görüşlərə dair təəsüratlarını bölüşüb, müzakirə olunmuş məsələlər barədə danışıb. Qonaq qeyd edib ki, bu görüşlərdə iqtisadiyyat, kənd təsərrüfatı, turizm, təhsil və digər sahələrdə münasibətlərin inkişafına, parlamentlərarası əlaqələrin perspektivlərinə dair müzakirələr aparılıb.

**Əliqismət BƏDƏLOV**
**XQ**

# UNEC-də Türk Universitetlər Birliyinin iclası





**Dünən Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) sədrliyi ilə Türk Universitetlər Birliyinin (TÜRKÜNİB) 7-ci Baş Assambleyasının iclası öz işinə başlayıb. Beynəlxalq məclisdə türk dövlətlərindən 50-dək universitetin rektoru, elm və təhsil nümayəndəsi iştirak ediblər.**

UNEC-in rektoru professor Ədalət Muradov iştirakçıları salamlayaraq, UNEC-in TÜRKÜNİB-ə sədrliyi dövründə gördüyü işlər barədə təqdimatla çıxış edib. O bildirib ki, 2024-2025-ci il üçün elm, təhsil və sosial sahələr üzrə bir çox tədbir və layihələri əhatə edən Yol Xəritəsi Layihəsi hazırlanaraq, TÜRKÜNİB-in Baş Assambleyasına təqdim edilib.

Rektor daha sonra TÜRKÜNİB-in Türk Dövlətləri Təşkilatı qarşısındakı statusu, mübadilə proqramlarının maliyyələşdirilməsi, TÜRKÜNİB-ə üzvlüyün kriteriyaları, daimi fəaliyyət göstərən strukturun yaradılması, eləcə də yeni texnologiyaların elm və təhsildə yaratdığı fürsətlərdən yararlanmaq və ehtimal olunan təhdidlərdən qorunmaq məqsədilə birgə fəaliyyət mexanizmlərinə ehtiyacın olub-olmaması barədə müzakirələrin aparılmasının vacibliyindən danışıb. UNEC rəhbəri bugünkü iclasda üzvlüklə bağlı 60 universitetin müraciətinə baxılacağını və birliyin gələcək fəaliyyəti üçün əhəmiyyətli olan məsələlərin müzakirə ediləcəyini bildirib.

Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev təşkilatın gördüyü işlərdən və qarşıda duran vəzifələrdən söz açaraq qeyd edib ki, TÜRKÜNİB-ə üzv olmaq üçün bir çox universitetin müraciəti təşkilata artan marağı nümayiş etdirir. Türk Dövlətləri təhsil nazirlərinin iyun ayında Şuşada keçiriləcək 8-ci iclası bu təkliflərin qəbul edilməsi və TÜRKÜNİB-in daha da institusionallaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir"-deyə baş katib bildirib.

Azərbaycan təhsil nazirinin müavini Həsən Həsənli Türk dünyası dövlətləri ilə elm və təhsil sahəsində həyata keçirilən əməkdaşlıqdan və əldə olunan müsbət nəticələrdən söz açıb. O, Assambleyada veriləcək qərarların bu əməkdaşlığın daha da genişləndirilməsinə və möhkəmlənməsinə zəmin yaradacağını bildirib. Beynəlxalq Türk Akademiyasının prezidenti, professor Şahin Mustafayev TÜRKÜNİB-də əlaqələndirmə mərkəzinin qurulmasının səmərəli ola biləcəyini söyləyib, rəhbərlik etdiyi akademiyanın əməkdaşlığın inkişafına hər zaman dəstək göstərəcəyini diqqətə çatdırıb.

Sonra Baş Assambleya öz işini müzakirələrlə davam etdirib. İclasda TÜRKÜNİB-ə üzv olan universitetlərin elm və təhsil sahəsində proqramlarının uyğunlaşdırılması, mübadilə proqramlarının sayının artırılması, diplomların ekvivalentliyinin tanınması və s. istiqamətlərdə müzakirələr aparılıb. TÜRKÜNİB-ə müraciət etmiş 60 universitet birliyə üzv qəbul olunub və beləliklə üzvlərin sayı 109-a çatdırılıb.

**XQ**

# Əli Əsədovun İranın Birinci vitse-prezidentinə başsağlığı

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin, xarici işlər naziri Hüseyn Əmir Abdullahiyanın və digər müşayiət edən şəxslərin helikopter qəzasında həlak olmaları ilə bağlı İranın Birinci vitse-prezidenti Məhəmməd Moxberə başsağlığı məktubu ünvanlayıb.**

Bu barədə Nazirlər Kabinetinin mətbuat xidmətindən məlumat verilib.

Məktubda Ə.Əsədov İranın Birinci vitse-prezidentinə, həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verib, İran xalqının kədərinə şərik çıxdığını bildirib.

# Şeyxülislamın İranın Ali Rəhbərinə başsağlığı

**Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam Allahşükür Paşazadə İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin, xarici işlər naziri Hüseyn Əmir Abdullahiyanın, Təbrizin cümə imamı Ayətullah Əli Haşiminin və digər müşayiət edən şəxslərin helikopter qəzasında həlak olmaları ilə əlaqədar İranın Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneiyə başsağlığı məktubu göndərib.**

İranın Ali Rəhbərinə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İran xalqına Azərbaycan və Qafqaz müsəlmanları adından dərin hüznlə başsağlığı verən şeyxülislam Allahşükür Paşazadə Azərbaycan müsəlmanlarının İran xalqının hüznünə şərik olduqlarını vurğulayıb.

# QHT rəhbərləri İran xalqının kədərini bölüşüblər



**Azərbaycanın bir sıra QHT rəhbərləri İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi, xarici işlər naziri Hüseyn Əmir Abdullahi və onları müşayiət edən digər şəxslərin helikopter qəzasında faciəli surətdə həlak olması ilə əlaqədar İranın Azərbaycandakı Səfirliyinin binası önünə gül dəstələri düzüb.**

QHT rəhbərləri bu ağır gündə İran xalqının kədərini bölüşdüyünü bildiriblər.

Xatırladaq ki, mayın 19-da İran Prezidenti İbrahim Rəisinin helikopteri İran-Azərbaycan sərhədindən çox da uzaq olmayan Verzeqan şəhəri yaxınlığında sərt eniş edib. Qəzada bütün sərnişinlər və ekipaj üzvləri həlak olub.

# Gürcüstanla siyasi məsləhətləşmələr



**Mayın 20-də Bakı şəhərində Azərbaycan və Gürcüstan Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin növbəti raundu keçirilib.**

Məsləhətləşmələrdə Azərbaycan Respublikasının nümayəndə heyətinə xarici işlər nazirinin müavini Samir Şərifov, Gürcüstanın nümayəndə heyətinə isə bu ölkənin xarici işlər nazirinin birinci müavini Laşa Darsaliya rəhbərlik edib.

Məsləhətləşmələr zamanı ölkələr arasında siyasi, iqtisadi-ticarət, enerji-nəqliyyat, mədəni-humanitar və s. sahələrdə ikitərəfli əməkdaşlıq əlaqələrinin hazırkı vəziyyəti və inkişaf perspektivləri ətrafında müzakirələr aparılıb.

**XQ**

# COP29 Sədrliyinin nümayəndələri ilə görüş

**17 may 2024-cü il tarixində Qoşulmama Hərəkatı Gənclər Təşkilatının (QHGT) mənzil qərargahında COP29 Sədrliyinin nümayəndələri ilə görüş keçirilib.**

Qoşulmama Hərəkatına (QH) üzv dövlətlərin gənclərinin dayanıqlı inkişafla bağlı müasir çağırışlarda fəallığına şərait yaradan platforma olaraq QHGT COP29-un qlobal iqlim danışıqlarında əhəmiyyətini yüksək dəyərləndirir. Bu xüsusda keçirilən görüş QHGT-nin Milli Bölmələri arasında COP29 barədə məlumatlılığın artırılması, COP29 Sədrliyinin fəaliyyət gündəliyi və QHGT ilə COP29 Sədrliyi arasında əməkdaşlığın gücləndirilməsi məqsədi daşıyıb.

Görüş QHGT-nin mənzil-qərargahı və qərargah daxilində fəaliyyət göstərən Tədqiqat Mərkəzi ilə tanışlıqla başlayıb. COP29 Sədrliyinin nümayəndələri QHGT-nin əməkdaşları ilə tanış olaraq Təşkilatın son dövrlərdə həyata keçirdiyi tədbirlər barədə məlumat alıblar. Tədbir QHGT-nin sədri, COP29-un İqlim üzrə gənclər çempionu Leyla Həsənovanın salamlama nitqi ilə açılıb. Sonra COP29-un prezidenti, Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Muxtar



Babayev COP29 Sədrliyinin prioritetləri və fəaliyyət istiqamətləri barədə gənclərə ətraflı məlumat verib. Ardınca COP29-un aparıcı müzakirəçisi, Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Yalçın Rəfiyev gənc liderlərin perspektivlərinin beynəlxalq miqyasda təmsil olunmasının əhəmiyyətini qeyd edib.

Gənclərin iqlim təşəbbüslərində iştirakının vacibliyini vurğulayan L.Həsənova yekun çıxışında COP29-un QH gənclərinin qlobal iqlim dialoquna töhfə verməsinə də geniş imkanlar yaratdığını bildirib. Tədbir interaktiv sual-cavab sessiyası ilə yekunlaşıb.

# Azərbaycan–İran: yüksək səmimiyyətdən sonra ... üzücü yaşantı

(əvvəli 1-ci səhifədə)

Azərbaycan Prezidentinin "Belə gözəl layihə xalqlarımızın rifahını yaxşılaşdıracaq" fikri ilə İbrahim Rəisinin "Əsas odur ki, ölkələrimiz, dövlətlərimiz və xalqlarımız üçün nə xeyirlidirsə, biz onu birgə həyata keçirdik" fikri bir-birini tamamlayır. Bunadək isə dövlət başçılarının səmimi notlarla zəngin söhbəti olmuşdu. Hesab edirik ki, bu cür isti mesajların səslənməsi də indiyədək keçilməmiş yoldur. Hər iki Prezidentin dilə gətirdiyi fikirlər son dərəcə təsirli idi.

**Prezident Seyid İbrahim Rəisi:** "Biz Azərbaycanın uğurunu, nailiyyətini öz nailiyyətimiz bilirik. Bizim Azərbaycanla münasibətlərimiz, bağlılığımız təkcə qonşuluq bağlılığı deyil, aramızda qəlb bağlılığı, tarixi bir bağlılıq və kök bağlılığı var. Bu, tarixi bir hadisə, yəni, iki ölkə, iki xalq arasında tarixi bir hadisənin əsası olacaq və bu, tarixə də həkk ediləcək".

**Prezident İlham Əliyev:** "Biz ta qədimdən gələn ulu əcdadlarımızın arzularını indi həyata keçiririk. Əminəm ki, bundan sonra da iki qardaş xalq bir-biri ilə sıx təmasda yaşayacaq, quracaq, belə gözəl xariqələr yaradacaq".

Növbəti məqam. Prezident Rəisi Kələlə-Ağbənd yoluna baxış keçirdiyini, orada işlərin çox gözəl şəkildə həyata keçirildiyini bildirdi və əlavə etdi ki, Azərbaycan ilə İran arasındakı əməkdaşlıqların nəticələri bu su bəndi və eyni zamanda, o körpü və yoldur. Dövlətimizin başçısı da Ağbənd istiqamətində inşa edilən körpünü həm növbəti nəqliyyat bağlantısı, eyni zamanda, növbəti dostluq rəmzi kimi dəyərləndirdi. Cənab İlham Əliyev Şimal-Cənub Nəqliyyat Dəhlizinin bir istiqamətini də Ağbənd istiqamətindən salındığını diqqətə çatdırdı.

Yazının bu yerində yaxın keçmişdə yaşananlara diqqət yetirək. Azərbaycan Prezidenti bu il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində "Zəngəzur dəhlizi" xüsusunda ölkəmizin mövqeyini diqqətə çatdırmış və Naxçıvana quru yolunun əhəmiyyəti barədə söz açarkən bildirmişdi: "Biz, sadəcə olaraq, üç il gözləmişik, görəndə ki, bu alınmır, bizim başqa yolumuz qalmayıb. Biz qısa yolla Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirməliyik və bildiyiniz kimi, İranla artıq razılıq da əldə edildi, nəinki razılıq, təməlqoyma mərasimi keçirildi. İndi Ağbənd istiqamətində artıq birinci körpünün inşası başlanmışdır və ikinci körpü də Ordubad istiqamətində nəzərdə tutulur. Yəqin ki, bu il biz ona da başlayacağıq".

Diqqət yetirək, Azərbaycan və İran prezidentləri mayın 19-da məhz Ağbənd istiqamətində görülmüş işlərin əhəmiyyətini vurğulamışdılar. Dövlətimizin başçısı isə haqqında söz açdığımız müsahibəsində, həmçinin Naxçıvana gedən yolun İran ərazisindən keçməsinə qarşı beynəlxalq müqavimətin mövcudluğundan söz açmışdı. O vurğulamışdı ki, Tehranla razılaşma Ermənistanı yenə dalan olaraq saxlayacaq: "Onlar indi, necə deyərlər, bundan duyuq düşərək əl-ayağa düşdülər ki, biz kənarda qaldıq və hətta, bildiyiniz kimi, Amerika Dövlət Departamentinin rəhbərinin müavini də bir anlaşılmaz açıqlama vermişdi ki, ya Ermənistandan keçəcək, ya da ki, biz imkan verməyəcəyik. Yaxşı, biz bunu üç ildir deyirik ki, bu, Ermənistandan keçsin, Ermənistan imkan vermir. İndi də bizi ittiham edirlər ki, biz başqa yol seçirik. Yəni, siz şərait yaradın Ermənistanın ərazisindən keçsin, Mehri ərazisindən keçsin, mən dediyim şərtlərlə, onda digər varianta ehtiyac qalmayacaq. Yoxsa bu da anlaşılan deyil. Bu gün Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında əlaqə yenə də İran ərazisindən həyata keçirilir. Niyə buna etiraz edilmir, məhz Mehri hissəsinə etiraz edilir?.. Yəni, belə məntiqsiz və cəfəng açıqlamalar heç kimə şərəf gətirmir və "biz buna imkan verməyəcəyik" deyəndə, – mən artıq bunu demişəm, – Amerika nəyi nəzərdə tutur, necə imkan verməyəcək? Gələcək Zəngəzurda bir sədd qoyacaq, ya Zəngilanda bir qoşun yerləşdirəcək, ya İran ərazisində? Necə imkan verməyəcək? Bu, bizim suveren işimizdir. Bizim İranla bu yaxınlarda Astaraçay üzərində körpünün açılışı olmuşdur. Nə üçün? Çünki Şimal-Cənub dəhlizində yükdaşımaların həcmi iki dəfə artıb və hazırda Astaradakı terminal bütün o yükləri götürə bilmir. Rusiya ilə ikinci keçid açmışıq Xanobada və indi Rusiya-Azərbaycan sərhədində iki keçid var, bir idi. İranla da iki keçid var. Yəni, bu, bizim suveren işimizdir".

Heç bir əlavə şərh vermədən yazımızı elə bu yerdə də tamamlayıb Uca Tanrıdan Prezident Seyid İbrahim Rəisi başda olmaqla, helikopter qəzasında həyatını itirən İranın yüksək səviyyəli nümayəndə heyətinin hər bir üzvünə rəhmət diləyirik.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Ermənistana 270 milyon avroluq tələ

**ArmİnfonunИ əməkdaşı Aleksandr Avanesovun fikrincə, Avropa İttifaqı nümayəndələrinin mayın 17-də Ermənistan rəsmiləri ilə görüşündə xatırladılan razılaşmanın məqsədi iqtisadiyyatın şaxələndirilməsi, orta və kiçik sahibkarlığın inkişafı və digər bu kimi məsələlərin həllinə kömək etməkdir. Amma biz bu qəbildən olan "məqsədləri" son otuz ildə dostlarımız olan Gürcüstan, Ukrayna və Moldovanın timsalında çox görmüşük. Nəticələr isə göz qabağındadır. Həmin ölkələrin iqtisadiyyatı nəinki inkişaf edə bilmədi, hətta, on illər davam edəcək problemlərlə üz-üzə qaldı.**



Söhbət Avrokomissiyanın vitse-prezidenti, Avropa İttifaqının ticarət məsələləri üzrə komissarı Valdis Dombrvskisin Ermənistan baş nazirinin müavinləri Mqer Qriqoryan və Tiqran Xaçatryanla görüşdə verdiyi vədlərdən gedir. Baş nazirin mətbuat xidməti bildirib ki, görüşdə Avropa İttifaqının Ermənistandakı nümayəndə heyətinin rəhbəri, səfir Vasilis Maraqos da iştirak edib. Yəni avropalılar Ermənistanı əyri yola çəkmək üçün səfərbər olunublar.

Bildirilir ki, görüşdə Avropa Komissiyasının iqtisadi və investisiya planı çərçivəsində hazırlanmış proqramın icra vəziyyəti müzakirə edilib. Ermənistan rəhbərləri Avropa maliyyə strukturlarının bu ölkədəki fəaliyyətinə çox böyük önəm verdiklərini deyiblər. Çünki sonra nələrin baş verəcəyini hələ bilmirlər.

Ən qəribəsi budur ki, tərəflər Ermənistanın böyük regional infrastruktur layihələrində iştirakının vacibliyini vurğulayıblar. Ancaq həmin layihələrin nədən ibarət olduğunu avropalılar da bilmirlər, ermənilər də. Çünki Ermənistanın miflərə əsasən düşünən rəhbərləri bu respublikanın regionun bütün ölkələri ilə münasibətlərini sıfıra endiriblər.

Ermənistan rəsmiləri Avropadan gələnlərə İrəvanın "Sülh kəsişməsi" adlı iqtisadi layihəsini növbəti dəfə təqdim etsələr də, söhbətin hansı sülhdən getdiyini deyə bilməyiblər. Guya, həmin layihə – nəqliyyat –logistika yollarının kəsişməsi regionda möhkəm sülhə və sabitliyə gətirib çıxaracaq. Fikrimizcə, onlar həmin məqsədi avropalılara deməsəydilər, daha yaxşı olardı. Çünki Avropa bu regionda sülhün və sabitliyin yaradılmasını birmənalı olaraq istəmir.

Ancaq deməyə də bilmirlər. Çünki Ermənistan rəhbərliyi bu il aprelin 5 -də Brüsseldə imzalanmış razılığa əsasən növbəti dörd ildə İrəvana ayrılacaq 270 milyon avroluq qrant vəsaitini hədsiz dərəcədə səbirsizliklə gözləyir. Maraqlıdır ki, erməni siyasətçiləri ABŞ və Qərb dövlətlərinin qrant siyasətindən "bəhrələnən" ölkələrin acı taleyindən nəticə çıxarmaq istəmirlər. Hər halda, işğalçı qonşumuz hələ ki "tələyə qoyulmuş" 270 milyon avroluq "pendir"in neçə yüz milyon "dram" olduğunu hesablamaqla məşğuldur. Ancaq sonrakı dramı, daha doğrusu, faciəni hələ təsəvvür edə bilmirlər.

***İttifaq MİRZƏBƏYLİ***

# Fransızsayağı qudurğanlıq

**Birbaşa mövzuya keçərək bildirək ki, Fransa parlamentinin Fransa – Ermənistan dostluq qrupunun sədri Ann-Laurens Petelin ölkənin baş nazirinə ünvanladığı məktub açıq-aydın anti-Azərbaycan ruhludur. Əslində, xanım Petelin belə mövqe tutması təəccüblü sayılmamalıdır. Çünki bu adam indyədək də "çoxgedişli" sayıqlamalarla gündəmə gəlib. Petelin hökumət rəhbərinə naməsində nələrdən söz açılır? Bu barədə bir qədər sonra. Hələlik isə...**

Əvvəlcə bildirək ki, fransız deputat ötən ay da sərsəmləmişdi. O, özünün "X" sosial şəbəkəsindəki hesabında paylaşım edərək, Ermənistan demokratiyasını "Azərbaycanın avtoritarlığından" qorumaq yönümlü çağırışa imza atmışdı. Bu şəxsin üzərində dayandığı ikinci məsələ isə "Qarabağın erməni mədəni irsinin məhvi" olmuşdu. Sən demə, separatçı rejimin "milli assambleyası" adlanan oyuncaq qurumun binası erməni mədəni mirası imiş.



Yeri gəlmişkən, xanım Petel bu ilin martında İrəvana səfəri zamanı demişdi ki, Fransa Ermənistanın müdafiə qabiliyyətini və suverenliyini gücləndirməlidir. Guya, Paris İrəvanın "təcavüzkar Azərbaycanla" münasibətlərini balanslaşdırmalıdır. Qızışdırıcı mövqe tutan xanım parlamentari, həmçinin artıq mövcud olmayan Qarabağ münaqişəsinin həllindən, ölkəsinin mövcud istiqamətdəki fəaliyyətindən və digər məsələlərdən söz açaraq bildirmişdi ki, "Fransa Azərbaycanın Ermənistana qarşı təcavüzünü dayandırmağa, Bakını Qarabağ ermənilərinin geri qayıtmaları, onların təhlükəsizliklərinin və rifah hallarının təminatı üçün müvafiq şərait yaratmağa çağırır". Petel, eyni zamanda, Fransa Senatının Azərbaycanla bağlı qətnaməsini yada salmış və vurğulamışdı ki, Qarabağ ermənilərinin geri qayıtma hüquqlarının təminatı, onların təhlükəsizliyi və rifahı naminə çağırış ruhuna malik sənəd Azərbaycanı öz silahlı qüvvələrini Ermənistan ərazisindən çıxarmağı tələb edir. Ən əsası isə o, qətnamədə Bakıya sanksiyaların tətbiqi çağırışının yer aldığını qabartmışdı.

Bəli, Ann-Lourens Petelin istər Ermənistanı Azərbaycana qarşı yeni müharibəyə sövq edən fikirləri, istər onun erməni mədəni mirası məsələsindəki "təəssübkeşliyi", istərsə də ölkənin baş nazirinə hazırkı məktubunda yer alanlar Parisin anti-Azərbaycan, ermənipərəst xəttinin tərkib hissəsidir.

Məktubda ilk olaraq ötən il martın 27-də Fransa Milli Assambleyasının xarici müdaxilənin qarşısının alınmasına yönəlmiş qanun layihəsini birinci oxunuşda qəbul etdiyi xatırlanıb. Bildirilib ki, Rusiya ilə yanaşı, Azərbaycan da Fransanın sabitliyini pozan hərəkətlərlə məşğuldur və bu pislənilməlidir.

Petel ölkəmizin ötən ildən başlayaraq, Fransaya qarşı, guya, geniş yayılmış dezinformasiya və qarayaxma kampaniyası apardığını, bu kampaniyanın bu il Parisdə keçiriləcək Olimpiya oyunlarını boykot motivli olduğunu vurğulayıb. Xanım parlamentarinin cəfəng məntiqindəki ən böyük uydurma isə rəsmi Bakının separatizmi dəstəklədiyini bildirməsidir. O, haqqında söz açdığı dəstəyin Fransanın birliyini pozmaq məqsədi daşıdığını iddia edib: "Ötən ilin yanvarında Azərbaycan Milli Məclisinin Beynəlxalq Əlaqələr Komitəsi açıq şəkildə Korsika, Yeni Kaledoniya və Fransız Polineziyasının müstəqilliyini dəstəkləyən birmənalı mövqe nümayiş etdirib".

Petel məktubunda, eyni zamanda, bildirib ki, Azərbaycanın fəaliyyəti dənizaşırı ərazilərdə, xüsusilə Yeni Kaledoniyanın müstəqilliyi uğrunda hərəkatların dəstəklənməsi sahəsində özünü göstərir. "Belə ki, 2023-cü il iyulun 6-da Azərbaycan "Fransız müstəmləkəçiliyi" ilə mübarizə üzrə Bakı Təşəbbüs Qrupunu yaradıb və Kaledoniya, Martinik və Polineziyanın müstəqilliyi tərəfdarlarının iştirakı ilə "dəyirmi masa" təşkil edib", – yazan deputat Fransa parlamentarilərinin bir qrupunun "indiki fransız müstəmləkəçiliyini" pisləmək və ölkəmizi ləkələmək üçün Azərbaycanın dəvəti ilə Bakıya səfəri məqsədəuyğun saymalarını "xüsusilə üzücü" adlandırıb.

Petelin ermənipərəstliyə söykənmiş həyasızlığı bütün məktub boyu özünü göstərməkdədir. Məsələn, o, vurğulayıb ki, Azərbaycan dəfələrlə Ermənistandakı fransız vətəndaşlarına, xüsusən 2021-2023-cü illərdə bu ölkədə səfir olmuş Ann Luyoya, hazırkı səfir Olivye Dekotiniyə, Ermənistandakı Fransız Universitetinin (UFAR) rektoru Salva Nakuziyə, "Veolia Armenia" şirkətinin baş direktoru Marianna Şahinyana və digər fransız sahibkarlara qarşı qarayaxma kampaniyaları həyata keçirib. Sən demə, Bakı Fransada yerli seçkili hakimiyyət nümayəndələrinə də təzyiqlər edirmiş. Onun fikrincə, ölkəmizin ötən il aprelin 24-də Valens şəhər meriyasının binasının fasadından keçmiş separatçı "Dağlıq Qarabağ Respublikası"nın bayrağının götürülməsi tələbi həddi aşmaq imiş. Bu həyasızlıq azmış kimi, Petel söhbətin Azərbaycan silahlı qüvvələrinin hücumu nəticəsində 2023-cü ilin sentyabrında əhalisi qovulan ərazinin bayrağından getdiyini vurğulayıb. Deməli, bu şəxs üçün beynəlxalq hüquq, ərazi bütövlüyü və suverenlik kimi məsələlər ikinci plandadır. Azərbaycanın separatçılıqda ittiham edən Petel özü ölkəmizin ərazisindəki separatçılıq yuvasını leqallaşdırmaq yolunu tutur.

Fransa parlamentinin Fransa – Ermənistan dostluq qrupunun sədri ölkənin baş nazirinə ünvanladığı məktubunda Fransadakı azərbaycanlı siyasi şoumen Məhəmməd Mirzəlinin də adını çəkib. Məlum olduğu kimi, bir müddət əvvəl bu şəxsə qarşı sui-qəsdlə bağlı məlumatlar yayılmışdı. Fransa tərəfi məsələni Azərbaycan hakimiyyəti ilə əlaqələndirmək istəmiş və mövcud istiqamətdə təbliğat aparmışdı. Ona görə də Petel həmin məsələni də məktubunun anti-Azərbaycan tezislərinin cərgəsinə qatıb.

Ümumən, Petelin məktubunda gəlinən nəticə budur ki, Fransa Ermənistanı dəstəklədiyi üçün Azərbaycan ona qarşıdır. Özü də "bütövlüyü hər gün təhlükə altında olan" Ermənistanı. Xanım parlamentari bu fikirdədir. Əlbəttə, belə deyimdə müəyyən həqiqət payı var. O zaman sual olunur: Paris nə üçün İrəvanı dəstəkləməlidir? Ona görə ki, Azərbaycana qarşı ərazi iddiası irəli sürsün? Qarabağ avantürasını davam etdirsin? Əlbəttə, bu cür yanaşma nümayiş etdirən Ermənistanın bütövlüyü hər an təhlükədə olmalıdır. Çünki ona layiqli cavab verilmədiyi təqdirdə iştahası güclənir.

Bəs Petel məktubunda bunları nə üçün vurğulayır? Çünki Fransanın Azərbaycana qarşı qətiyyətli tədbirlər görməsini istəyir. Sən demə, ilk tədbir rəsmi Parisin Azərbaycandakı səfiri geri çağırması olmalıdır: "Biz sizi Fransa Respublikasının birliyini şübhə altına alan Azərbaycanın hərəkətlərinə qarşı çıxmaq üçün bütün lazımi tədbirləri görməyə çağırırıq".

Göründüyü kimi, ermənipərəst Petel, obrazlı desək, odun üzərinə benzin tökməklə məşğuldur. O, onsuz da gərgin olan Fransa – Azərbaycan münasibətlərinə yeni "ahəng" qazandırmaq niyyəti güdür. Nəzərə alaq ki, xanım deputatın Bakıya qarşı "bütün lazımi tədbirlər" məntiqində çox şeylər var. Yəni, Fransanın Azərbaycandakı səfirinin geri çağırılması Petelin aysberqinin yalnız görünən tərəfidir. Məktubunda Ermənistanın adını çəkməsi, əslində, həm də subliminal mesajdır. Aydındır ki, Fransa birbaşa Azərbaycanla müharibə edən deyil. Petel Ermənistanı möhkəmləndirib ölkəmizin üzərinə salmaq niyyəti güdür. İstəyir ki, Fransa hökuməti məhz bu istiqamətdə qətiyyətli davransın.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Makron yubileyə Rusiyanı da çağırıb

## Fransa liderinin bu dəvətindən Ağ ev bərk qəzəblənib



**Fransa prezidenti Emmanuel Makronun diplomatik məntiqlə bir ayara sığmayan hərəkətləri indi də rəsmi Vaşinqtonun əsəblərini tarıma çəkib. Belə görünür ki, Makron okeanın o tayındakı strateji tərəfdaşında qıcıq yaradacaq son addımı ilə eyni vaxtda iki stulda əyləşmək sevdasına düşüb.**

Söhbət İkinci Dünya müharibəsində ABŞ və Böyük Britaniya qüvvələrinin Fransanın Normandiya sahillərinə çıxmalarının 80 illiyinə həsr olunan yubiley mərasiminə Rusiya Federasiyasından da rəsmi qonaqların dəvət edilməsindən gedir. Bu isə rəsmi Vaşinqtonda ciddi narazılıq yaradıb.

Yetişən yeni diplomatik qalmaqalla bağlı "Politiko" nəşrinə açıqlama verən Ağ ev administrasiyasının rəsmiləri Fransa rəhbərinin yubiley tədbirinə Rusiyanı dəvət etməsini anlamadıqlarını bildiriblər. Buna bənzər reaksiya Böyük Britaniyanın hökumət mənbələrindən də verilib. Olaya münasibətdə ortaq nöqtələrə malik açıqlamalarda hər iki dövlətin üst qatdakı rəsmiləri Emmanuel Makronun ikbaşlı siyasi oyununa belə şərh veriblər: "Belə görünür ki, Makron özünü Rusiya ilə qarşıdurmanın fövqündə görür və sülhməramlı tərəf olacağına ümid bəsləyir".

Çin lideri Si Cinpinin bu yaxınlarda Qərbi Avopa ölkələri arasında yalnız Fransaya səfərə üstünlük verməsi də Vaşinqton və Londonun diqqətindən yayınmayıb və onlarda ciddi suallar yaradıb. Mövzu ilə bağlı XQ-yə açıqlama verən "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu bildirdi ki, Makron İkinci dünya müharibəsində Qərb cəbhəsinin açılmasının ildönümü tədbirlərinə Rusiya nümayəndə heyətini dəvət etməyə də bilərdi: "Əslində, Rusiyanın bu tədbirə birbaşa aidiyyəti yoxdur. Bu hərəkətin özü göstərir ki, Emmanuel Makron ikibaşlı oyun oynayır".

Politoloqun fikrincə, ABŞ və Avropa İtifaqına üzv digər ölkələr Fransa polisinin Yeni Kaledoniyada tökdüyü qanlara göz yumsalar da, Emmanuel Makronun Çin və Rusiyaya yönəlik siyasətindən narahat olduqlarını gizlətməyiblər: "Deməli, Emmanuel Makron bir tərəfdən Rusiyaya qarşı sanksiyaların sərtləşməsinə çağırır, Ukraynaya xüsusi qoşun növünü göndərməyə hazır olduğunu bəyan edir, o biri tərəfdən isə Moskva və Pekinlə münasibətlərini davam etdirir".



Oxuculara xatırladaq ki, İkinci dünya müharibəsində SSRİ faşist Almaniyası ilə vuruşurdu. 1944-cü il iyunun 6-da ABŞ və İngiltərə müttəfiqlər kimi ona yardım əlaməti olaraq, Hitlerə qarşı Normandiya sahillərinə birləşmiş qoşunlarını yeritmişdilər.

***İ.HƏSƏNQALA***
***XQ***

# İlham Əliyev – postmüharibə dövrünün memarı

## I MƏQALƏ

**Böyük liderlər milli məqsədləri yenidən müəyyən edirlər.**

**Henri KİSSİNCER**



Müasir liderlik nəzəriyyələrində "siyasi liderliyin dinamikası" ifadəsi geniş işlənir. Bu termin çağdaş dünyanın geosiyasi və siyasi cəhətdən sürətlə və öncədən çətin proqnozlaşdırılan qaydada dəyişməsinə nəzəri reaksiyadır. Çünki əgər qlobal miqyasda dəyişmə sürətli və mürəkkəbdirsə, hər bir dövlət üçün uğurlu liderliyin də öz nümunəsi olmalıdır. Buradan "siyasi liderliyin dinamikası" kimi xeyli mürəkkəb məzmunlu anlam yaranır. Biz onun nəzəri tərəfinin dərinliklərinə varmadan Azərbaycan təcrübəsinin bir sıra fəlsəfi və siyasi-nəzəri özəllikləri üzərində dayanmağa çalışacağıq. Çünki Azərbaycan Prezidenti İlham Əliyevin liderlik dinamikası, sözün həqiqi mənasında, maraqlı və əhəmiyyətli nümunədir və onun fəlsəfi, siyasi-nəzəri dərki olduqca vacibdir. Öncə, qısa terminoloji izah verək.

### Liderliyə fəlsəfi baxış

Henri Kissincer liderliklə bağlı son əsərində çox maraqlı bir təsnif etmişdir. O, K. Adenauer, Ş. de Qoll, R.Nikson, Ə.Sadat, Li Kuan Yu və M.Tetçerin liderliyinə ümumi bir mövqedən baxmışdır. Bu liderlərin yaşadıqları tarixi dövrün dramatizmi şəraitində bir sıra keyfiyyətlərini təhlil etmişdir. Onların liderliyini həmin tarixi dövrdə cəmiyyətlərin postmüharibə təkamülünün memarları kimi araşdırmışdır. Təbii ki, H.Kissincerin yanaşmasının ümumi ruhu bizim üçün maraqlıdır – müasir tarixi mərhələdə liderlər postmüharibə dövründə rəhbərlik etdikləri ölkəni və liderləri olduqları cəmiyyətləri necə inkişaf etdirmişlər?

Bu kontekstdə H.Kissincer liderlərin fəaliyyətini dörd aspektdə qiymətləndirir. Birinci aspekt. Müharibədən sonrakı mərhələdə liderlər sülhü necə görürlər? Axı müharibə siyasi şüurlarda sülh ideyasını dağıda bilər və liderlər də müharibə paradiqmasına aludə ola bilərlər. H.Kissincer hesab edir ki, araşdırdığı 6 liderlik strategiyasında liderlər müharibə paradiqmasına aludə olmadılar və cəmiyyətləri fərqli siyasi meyarlar əsasında inkişaf etdirdilər. Məsələn, Misir Prezidenti Ənvər Sadat İsraillə müharibəni uduzsa da, hesab etdi ki, postmüharibə mərhələsində sülhə üstünlük vermək daha doğrudur.

Li Kuan Yu kütləvi kasıblar ölkəsi olan Sinqapuru dünyanın "iqtisadi möcüzələri"ndən birinə çevirdi. O, bütövlükdə 60 ildən çox siyasətdə oldu. Prezident, baş nazir oldu və bir sıra nazirliklərə rəhbərlik etdi. Britaniyada təhsil almışdı, lakin Sinqapurun Britaniya müstəmləkçiliyindən xilas olması üçün böyük mübarizə apardı. İstəyinə nail oldu və müstəqil Sinqapuru sürətlə inkişaf etdirdi.

H.Kissincerin əsərində təhlil etdiyi Qərb dövlətləri liderləri bir qədər fərqli geosiyasi və siyasi şəraitdə böhrandan sonrakı (müharibə də bura daxildir) mərhələdə böyük işlər görmüşlər. Onların hamısını birləşdirən məqam müharibədən və ya böhrandan sonrakı mərhələdə dövlətlərini və cəmiyyətlərini inkişaf etdirmələri olmuşdur. H.Kissincer məhz bu kontekstdə 6 dünya siyasi liderliyi strategiyasından bəhs edir və onları aşağıdakı faktorlara görə araşdırır: 1) Liderlər müharibədən sonra sülhü necə görürlər; 2) liderlərin hər biri milli ideyanı yenidən məzmunlaşdırmışdır; 3) onlar ölkənin və cəmiyyətin inkişafı üçün yeni perspektivlər açmışlar; 4) keçid dövrünü yaşayan dünya üçün yeni nizam gətirmişlər.

Bu punktların hər biri Azərbaycan təcrübəsi baxımından da əhəmiyyətlidir. Bu mənada qısa izaha ehtiyac vardır.

### Kissincerin liderlik araşdırmaları

Bunu şərti olaraq belə qəbul edək. Çünki H.Kissincer cəmi 6 uğurlu lideri araşdırır və problemə bütöv dünya miqyasında baxmır. Eyni zamanda, bizim üçün həmin liderlik nümunələri fonunda vurğuladığımız 4 istiqamət üzrə bir sıra məqamların qısa fəlsəfi təhlili Azərbaycan təcrübəsini adekvat dərk etmək üçün lazımdır.

Beləliklə, XX əsrdə müharibədən və ya böhrandan sonra liderlər ona görə uğurlu olmuşlar ki, rəhbərlik etdikləri ölkə və cəmiyyət üçün uyğun sülh modelini (və ya dinc inkişaf modelini) tapmışlar. Onların hər biri ölkələri üçün fərqli olan situasiyada və fərqli şərtlər altında sülh qərarını qəbul etmişlər və ya böhrandan sonra ölkələrinin inkişaf xəttini müəyyən etmişlər.

Məsələn, R.Nikson ABŞ-ın Vyetnamdakı uğursuzluğundan sonra özündə güc taparaq, 1973-cü ildə qoşunları oradan çıxarmışdır.

M.Tetçer Böyük Britaniyanın dövlət və cəmiyyət olaraq düşdüyü ağır böhran vəziyyətindən çıxması üçün "tetçerizm" adlanan tədbirlər kompleksini inamla həyata keçirmişdir və nəticədə ölkə inkişaf xəttinə çıxmışdır.

Şarl de Qoll faktiki olaraq məğlub Fransanın müharibədən sonra yenidən dünya miqyasında liderlər qrupuna çıxmasına nail olmuşdur. Onun sülh axtarışlarını postmüharibə mərhələsi üçün şərti olaraq "Fransa nümunəsi" adlandıra bilərik.

Konrad Adenauer XX əsrin ikinci yarısında, Almaniyanın II Dünya savaşındakı məğlubiyyətindən sonra faktiki olaraq ölkənin inkişaf kursunu müəyyən etmişdir və Almaniyanı iqtisadi möcüzəyə qovuşdurmuşdur. Onun siyasi, geosiyasi, ideoloji xətti Almaniya üçün bir strategiya olmuşdur. Bu mənada K.Adenauerin müharibədən sonrakı sülh xətti əhəmiyyətli hesab olunur.

Bu qısa müqayisələr fonunda aydın olur ki, H.Kissincerin "6 strategiya" adlandırdığı fenomen liderlərin postmüharibə və ya postböhran mərhələsində sülhü necə görmələri üzərində qurulmuşdur. Onların hər birinin özəl məzmunu vardır. Biri digərini təkrarlamır və hər biri siyasi-nəzəri və fəlsəfi baxımdan nümunədir.

Həmin liderlərin milli ideyanı yenidən məzmunlaşdırmaları da bu kontekstdə ciddi faktor sayılmalıdır. K.Adenauer Almaniyanın milli ideyasını faşizmdən kənarda yenidən məzmunlaşdırdı, Ş.de Qoll çox çətin şəraitdə "böyük Fransa" ideyasını gündəmə gətirdi, R.Nikson amerikan ideyasını "həqiqət" mərhələsindən "posthəqiqət" mərhələsinə sülh və cəmiyyətin ruhunun saxlanması naminə transfer edə bildi, Ə.Sadat ərəb dünyasının etirazlarına baxmayaraq, Misirin milli ideyasını yəhudilərlə düşmənçilik müstəvisindən sülh və dinclik şəraitində yaşamaq kontekstinə daxil edə bildi (həyatı bahasına), Li Kuan Yu Sinqapuru müstəmləkədən qurtardı və eyni zamanda, ona özəl uğurlu inkişaf ideyasını (paradiqmasını) milli ideya kimi qazandırdı, M.Tetçer britaniyalılara hər situasiyada yaradıcı və konstruktiv olmağı təlqin etdi.

Göründüyü kimi, bu strategiyaların hər biri fərqli arqumentlərə, fəaliyyət şərtlərinə və hədəflərə malikdir. Ancaq onları birləşdirən öz ölkələri üçün sülh, inkişaf və milli ideyanın yeni tarixi şəraitə adekvat olmasıdır!

Bizcə, milli ideyanın sülh yönlü müəyyən edilməsi H.Kissincerin digər liderlik strategiyası faktorunu – ölkə və cəmiyyət üçün yeni perspektivlər açılmasını aktuallaşdırmışdır. İndiki müşahidələr də göstərir ki, ABŞ, Böyük Britaniya, Fransa (baxmayaraq ki, E.Makron Fransa üçün ciddi problemlər yaradır), Misir, Sinqapur və Almaniya fərqli geosiyasi ranqa, inkişaf tempinə, sülh şərtlərinə və inkişaf paradiqmalarına malikdirlər. Onlar fərqli "yerlərdən fərqli start götürmüşlər". Ancaq hər birini özünəməxsus anlamda uğurlu saymaq olar. Bu baxımdan H.Kissincer haqlıdır. Nədən ibarətdir həmin anlamlar?

Hər şeydən öncə, ondan ibarətdir ki, vurğulanan liderlik strategiyaları konkret ölkənin mövcud olduğu şərait və tarixi şərtlər fonunda uğurlu qəbul edilməlidir. Yəni söhbət mütləq uğurluqdan getmir! Bundan sonra daha maraqlı və geosiyasi əhəmiyyəti böyük olan bir məqama baxmaq lazım gəlir.

### Liderlik strategiyası və dünya nizamı

Keçən əsrin 70-90-cı illərində dünya, doğrudan da, geosiyasi keçid mərhələsində idi. Müxtəlif yerlərdə meydana gələn böhranlar, savaşlar, hərbi toqquşmalar... Böyük geosiyasi ziddiyyətlər, bütövlükdə, qlobal geosiyasi düzənin transformasiyası zərurətini ortaya qoymuşdu. Ranqından asılı olaraq, hər bir dövlət buna fərqli reaksiya verməli idi. ABŞ iki əsas geosiyasi gücdən biri kimi (ABŞ və SSRİ) yeni dünya nizamı kontekstində müəyyən nəticələr çıxarmalı idi. Böyük Britaniya dünya lideri olmasa da, yeni sülh şəraiti üçün töhfəsini verməli idi. Eynilə, Fransa məsələyə pozitiv yardım etməli idi. Misir öz miqyasında problemləri yoluna qoymalı idi. Sinqapur da inkişaf paradiqmasını saxlamaqla regional sülhə töhfəsinə davam etdirməli idi. Almaniya birləşməklə qlobal dünya düzənində "alman konsturktivizmini" bərpa etməli idi.

Deməli, H.Kissincerin vurğuladığı strategiyaların hər biri fərqli yollarla uğurlu liderliyi qlobal miqyasa transfer edə bilərdi. Burada onların hər birinin fərqli imkanları və reallaşma yolları ön plana çıxır. Misir və Sinqapuru çıxmaq şərti ilə geridə qalan liderlik strategiyalarının qlobal nizama hansı töhfələri verdiyi məsələsi açıqdır. Çünki ABŞ, Fransa, Almaniya və Böyük Britaniya tərəfindən meydana geosiyasi, ideoloji və sülhün təmini ilə bağlı o qədər cavabsız suallar çıxmışdır ki, hələlik Qərb fəlsəfi və politoloji fikri onları "tam həzm edə bilməmişdir".

Belə bir vəziyyət digər məsələni – "liderliyin müasir mərhələdə dinamikası" fenomeninin fəlsəfi və siyasi-nəzəri dərkini aktuallaşdırır. Problemin bu aspektinin də Azərbaycan təcrübəsi baxımından böyük aktuallığı və strateji mənası vardır. Onun üzərində ötəri dayanaq.

### Liderliyin spiralvari dinamikası

Müasir yanaşmalarda liderlik açıq və qeyri-xətti sistem kimi təsəvvür edilir. Bu artıq sırf nəzəri və ya fəlsəfi konstruksiya deyildir – konkret praktiki hədəfi olan fəaliyyət nümunəsidir. Və burada söhbət yalnız sinergetik yanaşmadan getmir. Politoloqlar daha çox Amerika nümunəsi olan liderliyin spiralvari dinamikasına müraciət edirlər. Onun banisi amerikan Kler Qreyvzdir. Ardıcılları isə Don Bek və Kris Kovandır. D.Bek və K.Kovanın "Spiral dinamika. XXI əsrdə dəyərlər, liderlik və dəyişiklikləri idarə edərkən" əsəri çox məşhurdur.

Həmin əsərin liderlik aspektində əsas ideyası ondan ibarətdir ki, hər bir situasiyada liderlik (həm də siyasi liderlik) spiral formalı dinamikaya malikdir. Yəni burada geri çəkilmələrlə irəli inkişaf vəhdətdədir. Bunun başlıca motivəedici faktoru xüsusi "memlər"dir (siyasi, mədəni, sosial, ideoloji kodlar). Onları müəlliflər, obrazlı olaraq, "dMemlər" alandırırlar. "dMemlər" dünyagörüşünü, qiymətləndirmə sistemini, psixoloji mövcudluq səviyyəsini təşkilolunma prinsipini, düşüncə üsulunu yığcam ifadə edirlər. Onlar həm insanın fundamental dünyagörüşünü formalaşdırırlar, həm davranışları istiqamətləndirirlər, həm də qərar qəbuletmə özəlliyini stimullaşdırırlar. Liderlər bu əsasda siyasi-diplomatik fəaliyyət göstərirlər və ona uyğun liderlik dinamikasına malik olurlar.

Nəhayət, bütün bu kimi müasir dövrün və liderliyin özəllikləri əsasında liderlərə qəhrəman–liderlər kimi deyil, milli təhlükəsizlik, xalqın rifah halının yaxşılaşması və insan haqları kimi dəyərlər prizmasında baxırlar. Onların fəaliyyətinə qiymət verirlər.

Bu cür yanaşmaları Azərbaycan təcrübəsinə tətbiq etmək mümkündürmü? Və yaxud başqa daha adekvat yanaşmaya ehtiyac vardırmı? H.Kissincerin vurğuladığı liderlik strategiyalarından hansını Azərbaycan üçün nümunə kimi götürmək olar? Biz, Azərbaycan üçün fərqli yanaşmanın daha adekvat olduğunu düşünürük. Təbii ki, vurğulanan liderlik strategiyalarını təcrübə kimi nəzərə almaq lazımdır.

Ancaq Azərbaycanda liderlik strategiyasının nümunəsini Azərbaycanın özündə mövcud olan liderlik təcrübəsi yaratmışdır və onun banisi ulu öndər Heydər Əliyevdir. Həmin nümunə yuxarıda vurğulanan liderlik strategiyaları fonunda çox uğurlu görünür. Ona görə də liderliyin Azərbaycan nümunəsinin fəlsəfi və siyasi-nəzəri araşdırılması fərqli yanaşma tələb edir. Bu prizmada Prezident İlham Əliyevin postmüharibə mərhələsində liderlik strategiyası çox maraqlı və məzmunlu təsir bağışlayır.

**(ardı var)**

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Türk–erməni münasibətlərində tarixi gerçəklər

**II YAZI**



1988-ci ildə Gümrü və onun ətrafında güclü zəlzələ baş verəndə ilk yardım əli uzadan xarici ölkə də Türkiyə olmuşdu. Daha sonrakı illərdə Sovet İttifaqının dağılması nəticəsində yaranan iqtisadi təlatümlərə görə çətin vəziyyətdə olan Ermənistana Türkiyə tərəfindən buğda yardımı edilib, elektrik enerjisi də verilmişdi. Lakin Türkiyənin barışıq və sülhsevər yanaşmasına Ermənistandan anlayış göstərilmədi. Ermənistanın müstəqillik əldə etməsindən təxminən bir il əvvəl, 23 avqust 1990-cı ildə "Müstəqillik Bəyannaməsi" qəbul etmişdi. Qurulacaq dövlətin əsaslanacağı prinsipləri müəyyən edən bu sənədin 11-ci maddəsi Türkiyəyə aid idi və tərcüməsi belədir: "Ermənistan Respublikası 1915-ci ildə Osmanlı Türkiyəsi və Qərbi Ermənistanda baş vermiş erməni soyqırımının beynəlxalq səviyyədə tanınması məsələsini dəstəkləyir".

Həmin sənəddə Azərbaycanın da ərazi bütövlüyü şübhə altına alınmış və ərazi iddiaları irəli sürülmüşdü. Sözügedən maddə ilə "erməni soyqırımı"nın gerçək olduğu yeni elan ediləcək dövlət tərəfindən qəbul edilir və bu "soyqırımı"nın beynəlxalq səviyyədə tanıdılması təşəbbüsü göstərilirdi. Həm də bildirilirdi ki, bu, Ermənistanın borcudur. Ayrıca, Şərqi Anadolunu "Qərbi Ermənistan" olaraq qələmə verməklə dolayı yolla bu region üzərində hüquqlar əldə etmək təşəbbüsü göstərilir və Türkiyə dövləti bu məsələyə biganə qala bilməzdi. Üstəlik, 1995-ci ildə qəbul edilmiş Ermənistan Konstitusiyasının birinci cümləsində "Müstəqillik Bəyannaməsinə" daxil edilmiş Ermənistan dövlətinin əsas prinsipləri və milli istəkləri erməni xalqı tərəfindən əsaslı şəkildə qəbul edilir" sözləri təsbit olunmuşdur.

Bu gün də Ermənistanla münasibətlərin qurulmasında əsas maneə budur və danışıqların bütün dövrlərində masaya yatırılsa da, yatırılmasa da Ermənistanın "Müstəqillik Bəyannaməsi"ndə yer alan bu müddəa diplomatik əlaqələrin qurulmasına və Ermənistan–Türkiyə sərhədlərin açılmasına əngəl olmuşdur.

Ermənistan bu durumu dəyişdirmək təşəbbüsləri göstəribmi? Demək olar ki, indiyədək belə cəhdlər olmayıb.

Türkiyə 1991-ci ildə Sovet İttifaqından ayrılan yeni ölkələrə, o cümlədən Ermənistana nümayəndə heyətləri göndərərək, gələcək münasibətlərlə bağlı ilkin görüşlər keçirmişdi. Bu, Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyan tərəfindən yaxşı qarşılanmışdı. Bu görüşlər zamanı qısa müddətdə diplomatik əlaqələr qurulmuş, ticarət, turizm və mədəni əlaqələr sahəsində irəliyə addımlar atılmışdı. O dövrdə Türkiyə ilə rəsmi əlaqələr qurmaq Ermənistan üçün daxili siyasət məsələsi idi. Baş nazir Süleyman Dəmirəl 1991-ci il dekabrın 24-də Levon Ter-Petrosyana göndərdiyi məktubda ifadələr diqqəti cəlb edir:

"Hökumətimiz Ermənistan Respublikasını tanıdığı halda, Ermənistan Türkiyə Respublikası və digər qonşuları ilə beynəlxalq hüququn dövlətlərin bir-birinin ərazi bütövlüyü və sərhədlərin dəyişməzliyinə hörmət, mehriban qonşuluq münasibətlərinə əməl etmək və s. əsas prinsiplərinə əməl etməyə borcludur".

1991-ci ildən bəri Ermənistanla Türkiyə arasında diplomatik münasibətlər qurmaq üçün üç dəfə cəhd edilib və hər üçü uğursuzluğa düçar olub. İlk cəhd 1992-1993-cü illərdə edilib. Erməni və türk diplomatları əlaqələr qurmaq üçün protokol üzərində işləyirdilər, lakin 1993-cü ilin aprelində Kəlbəcər işğal edilərkən bu münasibətlər dayandırıldı, Türkiyə Ermənistanla yarıaçıq sərhədi bağladı və onunla bütün əlaqələri dayandırdı. Xarici İşlər Nazirliyi 3 aprel 1993-cü il açıqlamasında Türkiyə-Ermənistan sərhədinin bağlandığını elan etdi. Ermənistanla dəmir yolu və hava əlaqələri də kəsildi.

İkinci cəhd isə 2005-2007-ci illərdə xarici işlər nazirlərinin müavinləri səviyyəsində Ermənistan–Türkiyə məşvərət danışıqlarının aparıldığı vaxt baş verdi. Bu müddət ərzində xarici işlər nazirləri Abdullah Gül və Vardan Oskanyanın görüşləri baş tutdu ki, bu da sıçrayış olacağına ümid yaratdı.

Üçüncü cəhd "futbol diplomatiyasıdır" . 2008-2009-cu illərdə, prezidentlər Abdullah Gül və Serj Sarkisyan Türkiyə-Ermənistan futbol matçlarını birlikdə izləmək üçün müvafiq olaraq İrəvana və Bursaya səfər etdikdə, 2009-cu ilin oktyabrında bu "futbol diplomatiyası" Sürixdə protokolların imzalanması ilə nəticələndi.

İfrat millətçilərin və daşnakların köməyi ilə hakimiyyətə gələn Robert Koçaryan seçildikdən dərhal sonra, 1994-cü ildə Ter-Petrosyan hökumətinin qadağan etdiyi Daşnak Partiyasının yenidən fəaliyyətə başlamasına icazə verildi. Koçaryanın Türkiyə ilə bağlı siyasətində ifrat millətçilərin də təsiri oldu. Ermənistan Konstitusiyası və Bəyannamənin 11-ci maddəsinə uyğun olaraq, "soyqırımı" iddiası və onun tanınması üçün səy göstərməsi hökumət proqramına daxil edildi. Ermənistanın bu sahədəki səyləri bəzi Avropa İttifaqı ölkələri tərəfindən dəstəkləndi. 1998-ci ilə qədər "erməni soyqırımı" iddialarını tanıyan parlamentlərin sayı 8 idisə, Koçaryanın prezidentlikdən getdiyi 2008-ci ildə bu rəqəm artıq 19-a çatdı. Koçaryanın Türkiyəyə qarşı bu "aqressiv" siyasəti digər sahələrə də təsir edirdi. Məsələn, 1998-ci ilin sentyabrında BMT Baş Assambleyası İdarə Heyətindəki çıxışında o, gözlənilmədən "soyqırımı" iddialarını dilə gətirdi və təbii ki, bu Türkiyənin sərt etirazına səbəb oldu.

Sürix protokolları iki ölkə arasında diplomatik münasibətlərin normallaşdırılmasını və 1993-cü ildən bağlanan Türkiyə-Ermənistan quru sərhədlərinin açılmasını nəzərdə tuturdu. İki ölkə diplomatik normallaşma və iqtisadi əlaqələrin yenidən aktivləşdirilməsinə üstünlük verərkən, 1915-ci il hadisələri ilə bağlı məsələlərin müzakirəsinin birgə tarix komissiyasına həvalə edilməsi siyasəti də ortada idi. Sürix protokollarında yalnız "Diplomatik münasibətlərin qurulması" və "İkitərəfli münasibətlərin yaxşılaşdırılması" nəzərdə tutulurdu. Amma bu işin nəticə verməsinə yenə Ermənistan Konstitusiyası və onun da istinad etdiyi 1991 "Müstəqillik Bəyannaməsi" əngəl oldu. Ermənistan müxtəlif bəhanələrlə bu sənədi Konstitusiya məhkəməsindən keçirib parlamentin ratifikasiyasına təqdim edə bilmədi, çünki həmin sənəd Ermənistan Konstitusiyası ilə ziddiyyət təşkil edirdi.

Nəticə ortadadır. 2009-cu il oktyabrın 10-da Sürixdə imzalanan protokollar iki ölkənin parlamentləri tərəfindən təsdiq olunmadığı üçün qüvvəyə minmədi. Hər iki dövlət protokolları ratifikasiya etməməkdə bir-birini günahlandırır. Sürix protokollarının Türkiyə tərəfindən ratifikasiya olunmamasında Azərbaycan tərəfinin Türkiyəyə təsirinin olduğunu erməni tərəfi tez- tez dilə gətirir. Əlbəttə, Qarabağda erməni işğalı davam edərkən Türkiyənin Ermənistanla diplomatik münasibətləri normallaşdırmaq cəhdləri Azərbaycanın narazılığına səbəb olacaqdı. Amma bu işin reallaşmasına əsas əngəl Ermənistanın Konstitusiyası idi və həm də hər iki ölkədə ictimaiyyət münasibətlərin normallaşdırılması ideyasına kifayət qədər hazır deyildi. Bütün bu məsələlər bir araya gələndə Türkiyə-Ermənistan münasibətlərində gözlənilən müsbət dinamika əldə edilə bilməzdi.

Onu da qeyd edə bilərik ki, Sürix protokollarından sonra Azərbaycan tərəfi Türkiyədə iqtisadi sahəyə investisiyalarını artırdı. Bakı Türkiyənin ictimai rəyinə müsbət təsir göstərmək üçün mühüm addımlar atdı ki, bunu da həmin erməni- türk münasibətlərinə bağlamaq qüsurludur. Türkiyə-Azərbaycan hərbi əlaqələri çox yüksək səviyyəyə yüksəldi. 44 günlük İkinci Qarabağ savaşında Azərbaycanın parlaq qələbəsi və Qarabağın işğaldan azad olunması ilə Türkiyə–Ermənistan münasibətləri yeni mərhələyə daxil oldu. Şübhəsiz, Azərbaycanla Ermənistan arasında sülh danışıqları Türkiyənin dövlət maraqlarının tərkib hissəsinə çevrilmişdir.

*Qafar ÇAXMAQLI,*
*XQ-nin Türkiyə müxbiri*

## "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 858-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi və bəzi fərmanlarının ləğvi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 858-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

**1.** "Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 977 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 582 (Cild I) 1-ci hissəsinin 2-ci və 5-ci bəndləri ləğv edilsin.

**2.** "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununa, "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununa və "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının 2010-cu il 2 aprel tarixli 980-IIIQD nömrəli qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 24 may tarixli 262 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 5, maddə 391 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.3-cü bənd ləğv edilsin;

2.2. 2-ci hissədən "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin səkkizinci hissəsinin ikinci cümləsində və" sözləri çıxarılsın.

**3.** "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 858 (Cild I) 5-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 5.21.4-cü yarımbənddə "Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən güc həddindən" sözləri "su elektrik stansiyaları və biokütlədən alınan qaz və ya digər yanacaq növü vasitəsilə elektrik və istilik enerjisi istehsal edən elektrik stansiyalarında elektrik enerjisinin istehsalı üzrə 500 kilovatdan, digər hallar üzrə isə 150 kilovatdan" sözləri ilə əvəz edilsin;

3.2. 5.21.5-ci yarımbənddə "nəqlinə" sözü "ötürülməsinə" sözü ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 dekabr tarixli 1750 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2318 (Cild I) ilə təsdiq edilmiş "Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Nizamnaməsi"nin 3.1.4-cü yarımbəndində "Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi güc həddindən" sözləri "200 kVt-dan" sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1238 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 14 mart tarixli 22 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"nın 7-ci hissəsinin "Göstərdiyi xidmətlər" sütununda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2-ci bənddə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi güc həddindən" sözləri "su elektrik stansiyaları və biokütlədən alınan qaz və ya digər yanacaq növü vasitəsilə elektrik və istilik enerjisi istehsal edən elektrik stansiyalarında elektrik enerjisinin istehsalı üzrə 500 kilovatdan, digər hallar üzrə isə 150 kilovatdan" sözləri ilə əvəz edilsin;

5.2. 3-cü bənddə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi güc həddindən" sözləri "200 kVt-dan" sözləri ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 iyul tarixli 204 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1490 (Cild I) ilə təsdiq edilmiş "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. 1.3.1-ci yarımbəndə "nəql edənləri" sözlərindən sonra "(istilik enerjisinə münasibətdə)" sözləri, "paylayıcıları" sözündən sonra ", təchizatçıları" sözü əlavə edilsin;

6.2. 2-ci hissə üzrə:

6.2.1. 2.1.1-ci və 2.1.2-ci yarımbəndlərdə "elektrik və" sözləri "ötürücü və paylayıcı sistem operatorlarının, habelə" sözləri ilə əvəz edilsin;

6.2.2. 2.1.5-ci yarımbənddə, 2.1-1-ci və 2.3-cü bəndlərdə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi güc həddindən" sözləri "200 kVt-dan" sözləri ilə əvəz edilsin;

6.2.3. 2.2.2-ci (birinci halda) və 2.2.3-cü yarımbəndlərdə "elektrik və" sözləri "ötürücü və paylayıcı sistem operatorlarında, habelə" sözləri ilə əvəz edilsin;

6.2.4. 2.3.1-ci yarımbənddə "enerji təchizatı müəssisəsinin və ya dövlət elektroenergetika müəssisəsinin" sözləri "ötürücü və ya paylayıcı sistem operatorunun" sözləri ilə əvəz edilsin;

6.2.5. 2.3.2-ci yarımbənddə "enerji təchizatı müəssisəsi" sözləri "ötürücü və paylayıcı sistem operatorları" sözləri ilə əvəz edilsin;

6.2.6. 2.6.2-ci yarımbənddə "dövlət elektroenergetika və enerji təchizatı müəssisələri" sözləri "ötürücü və paylayıcı sistem operatorları, eləcə də istilik təchizatı müəssisələri" sözləri ilə əvəz edilsin;

6.2.7. 2.6.3-cü yarımbənddə "elektrik və istilik enerjisi istehsalı və təchizatı müəssisələrində elektrik və istilik enerjisinin istehsalı, ötürülməsi, nəqli və paylanması proseslərinin idarə edilməsi, mərkəzi və yerli idarəetmə səviyyəsində dispetçer xidmətlərinin işinin" sözləri "ötürücü və paylayıcı sistem operatorları tərəfindən mərkəzi operativ-dispetçer idarəetməsinin" sözləri ilə əvəz edilsin;

6.2.8. 2.6.4-cü yarımbənddə "enerji istehsalı və təchizatı müəssisələrinin" sözləri "enerjisinin istehsalçısının, habelə ötürücü və paylayıcı sistem operatorlarının" sözləri ilə əvəz edilsin;

6.2.9. 2.6.6-cı yarımbənddə "təchizatı müəssisələri" sözləri "istilik enerjisinin təchizatı müəssisələri, habelə elektrik enerjisinin ötürücü və paylayıcı sistem operatorları" sözləri ilə əvəz edilsin.

**7.** "Meliorasiya və irriqasiya haqqında", "Əhalinin radiasiya təhlükəsizliyi haqqında", "Balıqçılıq haqqında", "Elektroenergetika haqqında" və "Nəqliyyat haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1579-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 730 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1022 (Cild I) 3.7-ci və 3.8-ci bəndləri ləğv edilsin.

**8.** "Kənd təsərrüfatı kooperasiyası haqqında", "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında", "Turizm haqqında" və "Elektrik və istilik stansiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1582-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 733 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1025 (Cild I) 3.5-ci və 3.6-cı bəndləri ləğv edilsin.

**9.** "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 17 iyun tarixli 546-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 13 iyun tarixli 723 nömrəli və "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2018-ci il 16 iyul tarixli 204 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 25 iyul tarixli 1761 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 750 (Cild I) 1-ci hissəsi ləğv edilsin.

**10.** "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 27 dekabr tarixli 773-VIQD nömrəli Qanununun tətbiqi və "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 723 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 8 fevral tarixli 2034 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 242 (Cild I) 1-ci hissəsi ləğv edilsin.

**11.** Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 2 avqust tarixli 2285 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (I kitab), maddə 1152 (Cild I) ilə təsdiq edilmiş "Bərpa olunan enerji mənbələrinin ərazisində elektrik enerjisi istehsalçısının seçilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

11.1. 1.2.1-ci yarımbənddə "Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən güc həddindən" sözləri "150 kVt-dan" sözləri ilə əvəz edilsin;

11.2. 3.1.3-cü yarımbənddə və 9.6-cı bənddə "dövlət elektroenergetika müəssisəsi və ya enerji təchizatı müəssisəsi" sözləri "ötürücü və ya paylayıcı sistem operatoru" sözləri ilə əvəz edilsin;

11.3. 6.4.6-cı yarımbənddə "dövlət elektroenergetika müəssisəsinin və ya enerji təchizatı müəssisəsinin" sözləri "ötürücü və ya paylayıcı sistem operatorunun" sözləri ilə əvəz edilsin.

**12.** "Elektroenergetika haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 723 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 384 (Cild I) ləğv edilsin.

**13.** "Elektrik və istilik stansiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 995-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 1 mart tarixli 1861 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 3, maddə 411) ləğv edilsin.

**14.** Bu Fərmanın 6.1-ci bəndi (elektrik enerjisinin təchizatçısına münasibətdə), 6.2-ci (6.2.2-ci yarımbənd istisna olmaqla), 11.2-ci və 11.3-cü bəndləri (paylayıcı sistem operatoruna münasibətdə) 2025-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 may 2024-cü il**

## "Dövlət orqanlarında (qurumlarında) normayaratma fəaliyyətinin təkmilləşdirilməsi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dövlət orqanlarında (qurumlarında) normayaratma fəaliyyətinin təkmilləşdirilməsi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

**1** Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 9, maddə 486 (Cild I) ilə təsdiq edilmiş "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"a aşağıdakı məzmunda 1-1-ci bənd əlavə edilsin:

"1-1. Normativ hüquqi akt layihələrinin razılaşdırılması və vizalanması ilə bağlı kargüzarlığın aparılması, o cümlədən sənədlərin rəsmiləşdirilməsi, protokolların hazırlanması və tərtib edilməsi Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin tələbləri nəzərə alınmaqla həyata keçirilir.".

**2** Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 323 (Cild I); 2024, № 1, maddə 31; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 7 mart tarixli 17 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

2.1. 8.4-cü bənddən ", normativ hüquqi aktların və normativ xarakterli aktların hüquqi ekspertizasını, dövlət uçotunu və dövlət qeydiyyatını aparır" sözləri çıxarılsın;

2.2. aşağıdakı məzmunda 8.4-1-ci və 9.5-1-ci bəndlər əlavə edilsin:

"8.4-1. Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrini aparır, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların (Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarları istisna olmaqla) məcburi hüquqi ekspertizasını keçirir;";

"9.5-1. Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilmək üçün təqdim olunmuş mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların (Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarları istisna olmaqla) məcburi hüquqi ekspertizasını keçirmək;";

2.3. 9.3-cü, 9.5-ci və 9.7-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"9.3. yeni normativ hüquqi aktların qəbul edilməsi ilə əlaqədar normativ hüquqi aktların kolliziyasının aradan qaldırılması məqsədilə təkliflər hazırlamaq;";

"9.5. Azərbaycan Respublikası Hüquqi Aktların Dövlət Reyestrinin aparılmasını, idarə olunmasını, tamlığını, müvafiq internet informasiya ehtiyatı vasitəsilə ümumi istifadə üçün daimi açıqlığını və mühafizəsini təmin etmək;";

"9.7. ictimaiyyət üçün açıq olan Hüquqi aktların vahid elektron bazasını aparmaq;";

2.4. 9.4-cü bənddə "normativ hüquqi aktların və normativ xarakterli aktların" sözləri "qanun layihələrinin, Azərbaycan Respublikası Prezidentinin aktlarının və Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının" sözləri ilə əvəz edilsin;

2.5. 9.6-cı bənddən ", ədliyyə orqanları və məhkəmələrin normativ hüquqi aktlarla təchiz olunmasını həyata keçirmək, onlara normativ hüquqi aktların nəzarət vəziyyətində saxlanılması üçün kömək göstərmək" sözləri çıxarılsın;

2.6. 10.2-ci bənddə "zərurət olarsa, öz qərarlarını müvafiq icra hakimiyyəti orqanları" sözləri "öz qərarlarını aidiyyəti üzrə dövlət orqanları (qurumları)" sözləri ilə əvəz edilsin;

2.7. 10.4-cü bəndə "aktlar" sözündən sonra "(Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarları istisna olmaqla)" sözləri, "orqanlar" sözündən sonra "(qurumlar)" sözü əlavə olunsun və həmin bənddə "qüvvədən düşməsi, yaxud onlara əlavə və" sözləri "ləğv edilməsi və ya onlarda" sözləri ilə əvəz edilsin.

**3** Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 1 iyul tarixli 463 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 626 (Cild I) ilə təsdiq edilmiş "Hüquqi aktların Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi qaydaları haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3.11-ci bəndin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Bu Əsasnamənin 3.4-cü bəndində nəzərdə tutulmuş hüquqi aktlar Dövlət Reyestrinə daxil edilmək üçün təqdim olunduqdan sonra yeddi iş günü müddətində Dövlət Reyestrinə daxil edilmək üçün qəbulundan imtina edilməyibsə, həmin aktlar Dövlət Reyestrinə daxil edilmiş hesab olunur və rəsmi dərc edilməlidir, bu şərtlə ki, həmin müddət bitdikdən sonra bir iş günü ərzində Ədliyyə Nazirliyi tərəfindən hüquqi aktın Dövlət Reyestrinə vaxtında daxil edilməməsinin səbəbləri barədə hüquqi aktı qəbul etmiş orqana (quruma) əsaslandırılmış məlumat verilməmiş olsun.";

3.2. 4.1.3-cü yarımbənddən "(vizalanması)" sözü çıxarılsın.

**4** "Azərbaycan Respublikası Nazirlər Kabinetinin iş qaydası"nın və "Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 oktyabr tarixli 1627 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 10, maddə 1794 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

4.1. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikası Nazirlər Kabinetinin iş qaydası" üzrə:

4.1.1. 5.3-cü bənddə "Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidenti aktlarının layihələrinə və digər sənədlərə" sözləri "sənədlərə (bu Qaydanın 5.3-1-ci bəndi nəzərə alınmaqla)" sözləri ilə əvəz edilsin;

4.1.2. aşağıdakı məzmunda 5.3-1-ci, 5.3-2-ci, 5.14-cü və 5.15-ci bəndlər əlavə edilsin:

"5.3-1. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından Nazirlər Kabinetinə normativ hüquqi akt layihəsinin hazırlanması və ya yenidən işlənilməsi ilə bağlı göndərilən təklifə, həmçinin baxılması (münasibət bildirilməsi) üçün göndərilən normativ hüquqi akt layihəsinə ən geci 3 (üç) ay müddətində, əlavə araşdırma tələb olunduqda isə 6 (altı) aydan gec olmayaraq baxılmalıdır (münasibət bildirilməlidir). Azərbaycan Respublikası Prezidentinin Administrasiyası rəhbərinin məktubunda normativ hüquqi akt layihəsinin hazırlanması və ya yenidən işlənilməsi, habelə normativ hüquqi akt layihəsinə baxılması (münasibət bildirilməsi) üçün daha qısa müddət müəyyən edilə bilər.

5.3-2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından Nazirlər Kabinetinə icra hakimiyyəti orqanlarının təsdiq edilmiş (qüvvəyə minmiş) normativ hüquqi aktlarının təkmilləşdirilməsi, aşkar edilmiş boşluqların, ziddiyyətlərin və digər nöqsanların aradan qaldırılması ilə bağlı göndərilən təkliflər nəzərə alınmalı və ən geci 1 (bir) ay müddətində müvafiq normativ hüquqi aktlarda dəyişiklik edilməsi və ya onların ləğv edilməsi ilə bağlı tədbirlər görülməli, nəticəsinə dair məlumat, təkliflərin nəzərə alınması mümkün olmadıqda isə bu barədə əsaslandırılmış cavab məktubu Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməlidir.";

"5.14. Normativ hüquqi akt layihəsinin hazırlanması ilə bağlı tapşırığın icra müddətinin ilk üçdə bir hissəsi ərzində (bu Qaydanın 5.15-ci bəndi nəzərə alınmaqla) əsas icraçı tərəfindən müvafiq normativ hüquqi akt layihəsi hazırlanmalı və razılaşdırılmaq üçün aidiyyəti dövlət orqanlarına (qurumlarına) göndərilməlidir. Tapşırığın icra müddətinin qalan hissəsində normativ hüquqi akt layihəsi Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3-cü hissəsinin tələbləri nəzərə alınmaqla razılaşdırılmalı və Nazirlər Kabinetinə təqdim olunmalıdır.

5.15. Normativ hüquqi akt layihəsinin hazırlanması ilə bağlı tapşırığın müəyyən olunmuş müddətdə icrası mümkün olmadıqda, tapşırığı icra edən bunun səbəbləri və tapşırığın icra tarixini göstərməklə, yuxarı dövlət orqanına tapşırığın icrasının başaçatma tarixindən azı 7 (yeddi) iş günü əvvəl məlumat verməlidir.";

4.1.3. 5.9-cu bəndin ikinci cümləsində "Təcili" sözü "Normativ hüquqi aktların layihəsinin hazırlanması ilə bağlı tapşırıq istisna olmaqla, "təcili" sözləri ilə əvəz edilsin;

4.1.4. 5.10-cu bənd üzrə:

4.1.4.1. birinci cümlədə "Tapşırığın" sözü "Normativ hüquqi akt layihəsinin hazırlanması ilə bağlı tapşırıq istisna olmaqla, digər tapşırığın" sözləri ilə əvəz edilsin;

4.1.4.2. ikinci cümləyə "tarixindən" sözündən sonra "azı" sözü əlavə edilsin;

4.1.5. 5.11-ci bənd üzrə:

4.1.5.1. birinci cümlədə "Tapşırıq" sözü "Normativ hüquqi akt layihəsinin hazırlanması ilə bağlı tapşırıq istisna olmaqla, digər tapşırıq" sözləri ilə əvəz edilsin;

4.1.5.2. üçüncü cümlə çıxarılsın;

4.1.6. 5.13-cü bənddə "Tapşırıq" sözü "Normativ hüquqi akt layihəsinin hazırlanması ilə bağlı tapşırıq istisna olmaqla, digər tapşırıq" sözləri ilə əvəz edilsin;

4.1.7. 6.3-cü bənddə "2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanına əlavə – "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin" sözləri "2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin" sözləri ilə əvəz edilsin və həmin bənddən "Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının hazırladıqları normativ hüquqi aktların layihələrinin "Elektron hökumət" portalında yerləşdirilməsinə," sözləri çıxarılsın;

4.1.8. 6.4-cü bənddə "layihə irad və təkliflərlə birlikdə" sözləri "digər dövlət orqanları (qurumları) tərəfindən vizalanmış layihə, ona razılıq verməyən icraçıların rəylərini əks etdirən iclas protokolu və "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 48.2-ci maddəsində göstərilənlər əlavə olunmaqla" sözləri ilə əvəz olunsun və həmin bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu qaydaya əməl edilmədən təqdim olunan sənədlər əsas icraçıya geri qaytarılır.";

4.1.9. 6.5-ci bənddə "layihəni hazırlayan əməkdaşının (əməkdaşlarının), habelə irad və təklifləri olan mərkəzi icra hakimiyyəti orqanının (orqanlarının), yerli icra hakimiyyəti orqanının (orqanlarının), dövlətin hüquqi şəxsinin (şəxslərinin) və digər aidiyyəti qurumların rəhbərlərinin (müavinlərinin) və ya nümayəndələrinin" sözləri "layihənin əsas icraçısının, habelə aidiyyəti dövlət orqanları (qurumları) rəhbərlərinin (onların müavinlərinin)" sözləri ilə əvəz olunsun və həmin bəndə "müzakirə aparılır" sözlərindən sonra "və nəticələr protokollaşdırılır" sözləri əlavə edilsin;

4.1.10. 6.7-ci bənd aşağıdakı redaksiyada verilsin:

"6.7. Müzakirə nəticəsində qarşılıqlı həlli tapılmayan normativ hüquqi akt layihəsinə və ya onun ayrıca struktur elementinə dair Baş nazir aşağıdakı tədbirlərdən birini görür:

6.7.1. razılığın əldə edilməməsi normativ hüquqi akt layihəsinin və ya onun ayrıca struktur elementinin qəbul edilməsinin məqsədəuyğunluğu ilə bağlıdırsa, layihəyə və ya onun ayrıca struktur elementinə dair öz qərarını həyata keçirir;

6.7.2. razılığın əldə edilməməsi qüvvədə olan normativ hüquqi aktların tələbləri ilə əlaqədardırsa, həmin tələblərə əsaslanaraq qərar qəbul edir.";

4.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatı haqqında Əsasnamə" üzrə:

4.2.1. 3.0.22-ci yarımbəndə "Baş nazirin" sözlərindən əvvəl "bu Əsasnamənin 3.0.22-1-ci yarımbəndində nəzərdə tutulan hallar istisna olmaqla, digər hallarda" sözləri əlavə edilsin;

4.2.2. aşağıdakı məzmunda 3.0.22-1-ci və 5.9.15-1-ci yarımbəndlər əlavə edilsin:

"3.0.22-1. razılıq əldə edilməsi mümkün olmayan normativ hüquqi akt layihəsinə və ya onun ayrıca struktur elementinə dair qarşılıqlı həllin tapılması məqsədilə Baş nazirin tapşırığı ilə onun müavini və ya Nazirlər Kabineti Aparatının rəhbərinin yanında Aparatın müvafiq struktur bölməsinin (bölmələrinin), layihənin əsas icraçısının, habelə aidiyyəti dövlət orqanları (qurumları) rəhbərlərinin (onların müavinlərinin) iştirakı ilə müzakirə aparmaq və nəticələrini protokollaşdırmaq;";

"5.9.15-1. razılıq əldə edilməsi mümkün olmayan normativ hüquqi akt layihəsinə və ya onun ayrıca struktur elementinə dair qarşılıqlı həllin tapılması məqsədilə Baş nazirin tapşırığı ilə Nazirlər Kabineti Aparatının müvafiq struktur bölməsinin (bölmələrinin), layihənin əsas icraçısının, habelə aidiyyəti dövlət orqanları (qurumları) rəhbərlərinin (onların müavinlərinin) iştirakı ilə müzakirə aparır;";

4.2.3. 3.0.24-cü yarımbəndə "idarələrarası" sözündən əvvəl "Normativ hüquqi aktlar" informasiya sisteminin və" sözləri əlavə edilsin;

4.2.4. 5.9.5-ci yarımbənddə "rəy və təkliflər verilməsi, həmçinin razılaşdırılması" sözləri "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından Nazirlər Kabinetinə baxılması (münasibət bildirilməsi) üçün göndərilən normativ hüquqi akt layihələrini baxılması (münasibət bildirilməsi)" sözləri ilə əvəz edilsin;

4.2.5. 5.9.15-ci yarımbəndə "Baş nazirin" sözlərindən əvvəl "bu Əsasnamənin 5.9.15-1-ci yarımbəndində nəzərdə tutulan hallar istisna olmaqla, digər hallarda" sözləri əlavə edilsin.

**5** Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 6 mart tarixli 1294 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 3, maddə 218 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 aprel tarixli 38 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Dövlət proqramlarının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi Qaydası"nın 2.14-cü bəndində "2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.12-ci" sözləri "2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 4.4-cü" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 may 2024-cü il**

# Azərbaycan qazının Avropa bazarı

## Cənubi Qafqaz boru kəməri ilə 155 milyard kubmetr qaz ixrac olunub




**Azərbaycan qazının Cənubi Qafqaz boru kəməri (Bakı–Tbilisi–Ərzurum) ilə nəqlinə başlanmasından 18 il ötür. 2006-cı il mayın 21-də Səngəçal terminalında kəmərin qazla doldurulması əməliyyatına start verilib. Onu da qeyd edək ki, həmin dövrdə "Şahdəniz" layihəsi üzrə hasilata başlanılmadığından boruya Azərbaycan Dövlət Neft Şirkətindən (SOCAR) alınan qaz vurulub.**

Azərbaycan qazının Qərb istiqaməti ilə nəqli ideyası ilk dəfə ulu öndər Heydər Əliyev tərəfindən irəli sürülüb. Belə ki, 1999-cu il iyulun 12-də "Şahdəniz" yatağında aparılan qazma-kəşfiyyat işləri üzrə əldə edilmiş nəticələrin təqdimatına həsr olunmuş mərasimdə iştirak edən Ümummilli lider ilkin nəticələrdən məmnunluğunu ifadə edərək təbii qazın ixracı məsələsinə də münasibət bildirib. Azərbaycanın karbohidrogen ehtiyatlarının daha çox Qərb istiqaməti ilə ixracına üstünlük verən Heydər Əliyev "bizim üçün ən əlverişli bazar Türkiyədir" bəyanatı ilə çıxış edib. Bununla da, Azərbaycan qazının hansı istiqamətdə ixrac olunması məsələsi öz həllini tapıb.

Həmin il avqustun 17-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Şahdəniz" yatağından təbii qazın dünya bazarlarına ixracının təşkil edilməsi ilə əlaqədar məsələlərin həll olunması üçün işçi qrupunun yaradılması haqqında" Sərəncam imzalayıb. Sənəddə Azərbaycan qazının dünya bazarlarına çıxarılması üçün potensial imkanların araşdırılması, qazın nəqli və bununla əlaqəli məsələlərin öyrənilməsi mühüm vəzifə kimi qarşıya qoyulub.

2000-ci il fevralın 15-də "BP Amoco" şirkəti "Şahdəniz" konsorsiumu iştirakçıları adından "Şahdəniz" yatağının mərhələli şəkildə işlənilməsinə dair açıqlama yayıb. Konsorsium iştirakçıları ilkin mərhələdə ildə 5 milyard kubmetr həcmində qazın hasilatı, sonrakı mərhələdə isə bu həcmlərin 16 milyard kubmetrədək artırılmasını elan ediblər. Bundan əlavə, məlumatda qazın ixracı üçün Türkiyəyə qədər həm mövcud qaz infrastrukturundan istifadə edilməsi, həm də yeni boru kəmərinin tikilməsi planı açıqlanıb. Konsorsium iştirakçıları "Şahdəniz" yatağının işlənilməsinin birinci mərhələsində çıxarılacaq qazın Türkiyə bazarına ixrac edilməsi üçün optimal marşrutun Gürcüstan üzərindən keçən boru kəməri ola biləcəyini ehtimalını irəli sürüblər.

Nəhayət, 2001-ci il fevralın 21-də əvvəlcə Azərbaycan Respublikası hökuməti ilə "Şahdəniz" konsorsiumunun iştirakçıları: SOCAR, BP, "TotalFinaElf", "LUKAgip", NICO, "Statoil" və TPAO şirkətləri arasında qaz tranziti sazişi imzalanıb. 2001-ci il martın 12-də isə Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyəyə səfəri çərçivəsində Ankarada Türkiyə və Azərbaycan hökumətləri arasında "Şahdəniz" yatağının birinci mərhələsi layihəsi üzrə ixrac edilən qazın alqı-satqısına dair sazişə imza atılıb. Həmin il sentyabrın 29-da isə Bakı şəhərində Azərbaycan və Gürcüstan Prezidentləri tərəfindən "Təbii qazın Azərbaycan Respublikası və Gürcüstan ərazilərində və bu ərazilərin hüdudlarından kənarda Cənubi Qafqaz Boru Kəməri sistemi vasitəsilə tranzit, nəql edilməsi və satışına dair Azərbaycan Respublikası və Gürcüstan arasında Saziş" imzalanıb. Yeri gəlmişkən, Azərbaycan qazının gələcəkdə Avropa ölkələrinə nəql edilməsi məsələsi də məhz ilk dəfə həmin sənəddə öz əksini tapıb.

2003-cü il fevralın 23-də Azərbaycan hökuməti tərəfindən "Şahdəniz" sazişi üzrə "Mərhələ-1" layihəsinin və Cənubi Qafqaz boru kəməri layihəsinin həyata keçirilməsi ilə əlaqədar sənədlər imzalanıb. Nəhyət, bütün sənədlər qanun statusu aldıqdan sonra 2004-cü ilin oktyabr ayında Cənubi Qafqaz Boru Kəmərinin Azərbaycan ərazisində fiziki olaraq tikinti işlərinə start verilib.

Cənubi Qafqaz boru kəməri "Şahdəniz" yatağından hasil edilən qazı Gürcüstan–Türkiyə sərhədinə nəql etmək məqsədilə inşa edilib. Xatırladaq ki, boru kəməri Türkiyə sərhədinədək Azərbaycanda və Gürcüstanda Bakı–Tbilisi–Ceyhan (BTC) neft kəməri ilə paralel olaraq bir marşrutda çəkildiyi üçün inşaat işləri də eyni zaman çərçivəsində başa çatdırılıb. Kəmərin BTC ilə birlikdə və eyni marşrutda çəkilməsində məqsəd isə ətraf mühitə və sosial sahəyə təsirlərin minimuma endirilməsi, eləcə də layihələrin birləşdirilməsi sayəsində əsaslı və əməliyyat xərclərinə qənaət edilməsinə nail olmaqdan ibarət olub.

Uzunluğu 692 Bakı–Tbilisi–Ərzurum boru kəməri Bakı şəhəri yaxınlığında yerləşən Səngəçal terminalından başlayır. Cənubi Qafqaz boru kəməri 2006-cı ilin sonlarında istismara verilərək əvvəlcə Azərbaycana və Gürcüstana, 2007-ci ilin iyul ayından başlayaraq isə "Şahdəniz" yatağının birinci işlənmə mərhələsi çərçivəsində Türkiyəyə qaz nəql etməyə başlayıb. Boru kəmərinin 443 kilometri Azərbaycan, 249 kilometri isə Gürcüstan ərazisindən keçir. Hər iki ölkənin ərazisində 42 düymlük borularla çəkilən kəmərin illik daşıma qabiliyyəti 7,41 milyard kubmetr təşkil edir.

Cənubi Qafqaz Boru kəməri Azərbaycanın 13 rayonundan (Qaradağ, Abşeron, Hacıqabul, Ağsu, Kürdəmir, Ucar, Ağdaş, Yevlax, Goranboy, Samux, Şəmkir, Tovuz, Ağstafa), Gürcüstanın isə 7 bölgəsindən keçir. Marşrut boyunca 1 kompressor stansiyası (Azərbaycan), 3 təmizləyici tərtibatın buraxılma kamerası (Azərbaycanda 1, Gürcüstanda 2), 2 təmizləyici tərtibatın qəbulu kamerası (Gürcüstanda) və digər çoxsaylı quğular inşa olunub. Gürcüstan bazarına qaz Azərbaycan–Gürcüstan sərhədində yerləşən boru kəmərindən ayrılan qol vasitəsilə çatdırılır. Son nöqtədə isə boru kəməri Türkiyədə bu ölkənin qazpaylama sisteminə qoşulub. Boru kəmərinin istismar əməliyyatlarına və tikintisinə Cənubi Qafqaz Boru Kəməri Şirkəti ("South Caucasus Pipeline Company Limited") cavabdehdir.

2023-cü ildə Cənubi Qafqaz boru kəməri ilə 21,8 milyard kubmetrdən artıq qaz nəql olunub ki, bu da əvvəlki illə 1 milyard kubmetr və ya 4,8 faiz çoxdur. Bütövlükdə isə, il ərzində Azərbaycanın magistral qaz kəmərləri ilə nəql olunan 39,8 milyard kubmetrdən artıq qazın 54,8 faizi məhz bu kəmərin payına düşüb. Yeri gəlmişkən, Energetika Nazirliyinin məlumatına görə, 2007-ci ildən indiyədək Cənubi Qafqaz boru kəməri və onun genişləndirilmiş hissəsi ilə 155,2 milyard kubmetr qaz ixrac olunub.

"Şahdəniz" yatağının işlənilməsinin ikinci mərhələsi çərçivəsində hasilatın artması Cənubi Qafqaz boru kəmərinin də genişləndirilməsinə zərurət yaradıb. Qeyd edək ki, Genişləndirilmiş Cənubi Qafqaz Boru Kəməri "Şahdəniz-2" layihəsinin əsas tərkib hissələrindəndir. Bu barədə investisiya qərarı 2013-cü ilin dekabr ayında qəbul olunub. Genişləndirmə nəticəsində Cənubi Qafqaz boru kəməri sisteminin ötürmə qabiliyyəti 24 milyard kubmetr səviyyəsinə çatdırılıb. Bununla da, kəmərlə ümumi qaz nəqletmə qabiliyyəti 3,2 dəfə artırılıb. Sonrakı genişləndirilmə mərhələsində isə boru kəməri sisteminin ötürmə qabiliyyəti 31 milyard kubmetrədək artırıla bilər. Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi sistemi ilə kommersiya qaz həcmlərinin Türkiyəyə çatdırılmasına 2018-ci ilin iyun ayında, Avropaya isə 2020-ci ilin dekabr ayında başlanıb.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Sığorta şirkətlərinin investisiyaları 18 faiz artıb

**Azərbaycan Mərkəzi Bankının (AMB) "2023-cü il üzrə maliyyə sabitliyi hesabatı"nda sığorta şirkətlərinin investisiyalarının ötən ilin sonu ilə müqayisədə 18 faiz artaraq 1,501 milyon manata çatdığı bildirilib.**




Vurğulanıb ki, artım əsasən, dövlət qiymətli kağızları hesabına baş verib. Ümumilikdə, həyat sığorta şirkətləri vəsaitlərinin 91 faizini, qeyri-həyat sığorta şirkətləri vəsaitlərinin isə 73 faizini investisiya portfeli təşkil edib.

Qeyd olunub ki, sığorta şirkətlərinin investisiya vəsaitləri əsasən, dövlət qiymətli kağızlarından və bank vəsaitlərindən ibarətdir.

2023-cü ildə sığorta sektoru investisiya fəaliyyətindən 85 milyon manat gəlir əldə edib ki, bu da cəmi gəlirlərin 6 faizini təşkil edib.

Hesabat ilində sektorun məcmu kapitalında da artım qeydə alınıb. Ötən il sığorta sektoru üzrə məcmu kapital 12 faiz artıb. Məcmu kapitalın tələb olunan kapitala nisbəti 7 faiz bəndi yüksələrək 183 faiz olub.

# Ələt dəniz qapısı – 500 min ton yük

**"Ambisiyanın artırılması, fəaliyyətin verilməsi: COP29 Davamlı Biznes Forumu"nda Ələt Azad İqtisadi Zonasının (AFEZ) Səlahiyyətli Qurumunun İdarə Heyətinin sədri Valeh Ələsgərov 2026-cı ilin birinci yarısında AFEZ-in istifadəyə veriləcək karqo terminalı vasitəsilə ilkin mərhələdə ildə 500 min ton yük daşınacağını bildirib.**



O vurğulayıb ki, hazırda AFEZ-də müştərilərin logistika və nəqliyyat xidmətlərinə olan ehtiyacları ödənilməklə bərabər, nəqliyyat-logistika mərkəzləri də yaradılır. Eyni zamanda, iqtisadi zonada fəaliyyət göstərən müəssisələrə fiskal və qeyri-fiskal güzəştlər paketi də təqdim olunur.

# Birinci rüb – 22,5 min yeni iş yeri

**Dövlət Statistika Komitəsindən bildirildiyinə görə, 2024-cü ilin birinci rübü ərzində ölkədə 22,5 min yeni iş yerləri açılıb. Məlumata əsasən, bu dövrdə yaradılmış iş yerlərinin 94,1 faizi qeyri-dövlət sektorunda açılıb.**

Yeni açılmış iş yerlərinin 80 faizi Bakı şəhərinin, 1,7 faizi Naxçıvan Muxtar Respublikasının, 18,3 faizi digər regionların, o cümlədən 5,5 faizi Abşeron-Xızı, 2,1 faizi Gəncə-Daşkəsən, 2,1 faizi Lənkəran-Astara, 1,6 faizi Şirvan-Salyan, 1,4 faizi Şəki-Zaqatala, 1,1 faizi Qazax-Tovuz, 1,1 faizi Quba-Xaçmaz, 1 faizi Mərkəzi Aran, 0,9 faizi Şərqi Zəngəzur, 0,6 faizi Qarabağ, 0,6 faizi Mil-Muğan, 0,3 faizi isə Dağlıq Şirvan iqtisadi rayonlarının payına düşüb.

***XQ***



# Qarabağ "yaşıl enerji"yə bürünür

## İlin birinci yarısında bölgədə 32 SES-in istismara verilməsi nəzərdə tutulub

**Son illərdə respublikamızın energetika sistemində aparılan bərpa və yenidənqurma işləri, tətbiq edilən "yaşıl" və innovativ texnologiyaların, o cümlədən kompozit şüşə lifli ekoloji təmiz dayaqların istifadəsi, eləcə də "100 kənd" layihəsi üzrə regional şəbəkələrdə 150-dən çox yaşayış məntəqəsinin elektrik təchizatının yenidən qurulması bu sahədə təbii qaza qənaət edilməsinə, karbon dioksid emissiyasının azaldılmasına imkan yaradıb. Bu ilin ötən aylarında enerji infrastrukturunun müasirləşdirilməsi istiqamətində uğurla gerçəkləşdirilən layihələr də mövcud şəbəkənin daim diqqət mərkəzində saxlanıldığını göstərib.**



Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında da Vətən müharibəsindən dərhal sonra genişmiqyaslı enerji layihələrinin icrasına başlanılıb, işğal dövründə dağıdılan kiçik su elektrik stansiyalarının (KSES) bərpası ilə bərabər, ekoloji normalar daxilində yeniləri tikilib.

Qeyd edək ki, Qarabağ və Şərqi Zəngəzurda 2023-cü ildə "AzərEnerji" tərəfindən 12 yerdə tikilən yarımstansiya və su elektrik stansiyalarının açılışı olub. Belə ki, Prezident İlham Əliyevin iştirakı ilə Azərbaycan-Türkiyə-Avropa ölkələrarası beynəlxalq enerji dəhlizi layihəsi çərçivəsində tikilən 330 kV-luq "Cəbrayıl" qovşaq yarımstansiyası istismara verilib. Həmçinin "yaşıl enerji" strategiyasına uyğun olaraq ötən il Kəlbəcər rayonunda 8,33 meqavat gücündə "Çıraq-1", 3,6 meqavat gücündə "Çıraq-2", 6,33 meqavat gücündə "Qamışlı", 5,3 meqavat gücündə "Soyuqbulaq" və 3,4 meqavat gücündə "Meydan" KSE-lərin yenidənqurmadan sonra açılışı olub.

Paralel olaraq həmin dövrdə "AzərEnerji" tərəfindən Laçında yeni tikilən 110 kilovoltluq "Qorçu" yarımstansiyasının və "Laçın" şəhər qovşaq yarımstansiyasının açılışı həyata keçirilib. Bununla yanaşı, Laçın rayonunda yenidən qurulan 8,25 meqavat gücündə "Mişni" və 6 meqavat gücündə "Alxaslı" KSES-lər yenidən qurularaq istismara buraxılıb. Prezident İlham Əliyev "AzərEnerji"nin yeni tikilən 10,5 meqavat gücündə "Cahangirbəyli" SES-in açılışında da iştirak edib. Dekabr ayında isə 110 kilovoltluq "Ağdam" qovşaq yarımstansiyasının açılışı həyata keçirilib. 2023-cü ilin ən yadda qalan hadisələrindən biri isə heç şübhəsiz, 19-20 sentyabr antiterror tədbirlərindən cəmi 4 gün sonra Xankəndi və digər ərazilərin Azərbaycan enerji sisteminə qoşulması olub.

Bu ilin ötən aylarında da Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında energetika sistemində aparılan bərpa və yenidənqurma layihələrinin icrası davam etdirilib. Mayın 10-da dövlətimizin başçısının iştirakı ilə "Zabux" və "Qarıqışlaq" KSES-ləri işə salınıb. Burada görülən işlər barədə ölkə rəhbərinə məlumat verilərək "Zabux" KSES-in 2,8 MVt, "Qarıqışlaq" KSES-in 4 MVt gücündə olduğu, birinci stansiyanın il ərzində 8-9 milyon, ikincinin isə 11-12 milyon kilovat-saat "yaşıl enerji" istehsal edəcəyi bildirilib.

Bu il mayın 18-də isə Prezident İlham Əliyev "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin "Zəngilan" və "Şayıflı" Su Elektrik stansiyalarının (SES) açılışlarını reallaşdırıb. Ölkə rəhbərinə görülən işlər barədə məlumat verilərək bildirilib ki, işğaldan azad edilən ərazilərdə "yaşıl enerji" zonasının yaradılması, rayonların karbonsuz zonaya çevrilməsi ilə bağlı dövlət başçısının tapşırığına əsasən, "AzərEnerji" ASC tərəfindən Oxçuçayın Zəngilan rayonunun ərazisindən keçən hissəsində hər birinin gücü 10,5 meqavat olmaqla 4 yerdə "Zəngilan" SES-lərin silsiləsi layihələndirilərək qısa vaxt ərzində tikilib.

İşğaldan azad edilən ərazilərdə Zəngilanda tikilən "Cahangirbəyli" SES 2023-cü ildə Prezident İlham Əliyevin iştirakı ilə istismara verilib. "Şayıflı" və "Zəngilan" SES-lər açılışa hazır vəziyyətə gətirilib, "Sarıqışlaq" SES-də isə işlər başa çatdırılıb.

"Yaşıl enerji" zonası konsepsiyasına uyğun olaraq ekoloji cəhətdən təmiz enerji istehsal edəcək "Zəngilan" və "Şayıflı" SES-lərdə rəqəmsal qaydada məlumatların axını mərkəzə ötürülməklə yanaşı, məsafədən idarəedilməsi təmin olunub. Bunun üçün mikro SCADA sistemi yığılıb, 25 kilometr məsafədə yüksəkgərginlikli yeni elektrik verilişi xətləri və 24 damarlı optik kabel xətti çəkilib.

"Zəngilan" və "Şayıflı" SES-lərdə il ərzində hər birində 30 milyon kilovat-saat olmaqla, ümumilikdə, 60 milyon kilovat-saat "yaşıl enerji" istehsal ediləcək və bununla da 14 milyon kubmetr qaza qənaət edilməklə yanaşı, atmosferə atılan karbon qazının (CO2) həcmi 28 min ton azalacaq.

Qeyd edək ki, Araz çayının sol qolu olan Oxçuçay üzərində inşa edilən hər iki SES-si su ilə təmin etmək üçün dəniz səviyyəsindən 600 metr yüksəklikdə baş suqəbuledici qurğu tikilib. Ümumi uzunluğu 83 kilometr olan və 36 kilometrlik hissəsi Ermənistan ərazisindən keçən çaya mütəmadi olaraq Qacaran, Zəngəzur mis-molibden və Qafan dağ-mədən kombinatlarının ağır metal tərkibli mədən tullantıları axıdılır.

Bu amillərə görə, Oxçuçayın üzərində baş suqəbuledicinin yaradılması enerji istehsalından əlavə, ekoloji cəhətdən olduqca əhəmiyyətli hadisədir. Belə ki, baş suqəbuledicinin tikilməsi ermənilər tərəfindən sənaye üsulunda çirkləndirilən çay yatağının təmizlənməsinə, flora və faunanın dirçəlməsinə yardım edəcək. Çünki suqəbuledicinin yaradılması çirkləndirici maddələrin çökməsinə şərait yaratmaqla yanaşı, aşağı axın zonasına təmiz suyun ötürülməsinə və çay ekosisteminin özünübərpasına zəmin yaradır.

Bu məqamda qeyd edək ki, Azərbaycan Prezidentinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının hidroenerji potensialının yenidən tədqiqi barədə "AzərEnerji" ASC-yə verdiyi tapşırığa əsasən, işğal dövründə dağıdılan SES-lərdən əlavə, ekoloji normalar daxilində yeni SES-lərin tikintisi barədə hesabat hazırlanıb. Həmin hesabatda bölgədə ümumi gücü 467 MVt olan 72 kiçik su elektrik stansiyasının yaradılması nəzərdə tutulub.

Yeri gəlmişkən, dövlət başçısının regionun dayanıqlı elektrik təchizatı infrastrukturunun yaradılması və hidroenerji ehtiyatlarından səmərəli istifadə istiqamətində tapşırıqlarına uyğun olaraq, regionun sərt, keçilməz iqlim və relyef şəraitinə rəğmən 3 ildən az bir müddətdə ümumi gücü 226 MVt olan 28 SES yenidən qurulub və ya yeni tikilib. Ümumi gücü 44 MVt olan 4 SES-də isə avadanlıqların quraşdırılması və sazlama işlərinə başlanılıb. Nəticədə bütün region üzrə dayanıqlı elektrik təchizatı sxemi yaradılıb və "Yaşıl dünya naminə həmrəylik ili" elan edilən 2024-cü ilin birinci yarısında ümumi gücü 270 MVt olan 32 SES-in istismara veriləcəyi nəzərdə tutulub.

"AzərEnerji" ASC-nin məlumatına əsasən, həmin stansiyalarda il ərzində 600 milyon kilovat-saatdan çox "yaşıl enerji" istehsal ediləcək. Bununla da 160 milyon kubmetrdən artıq təbii qaza qənaət edilməsi, atmosferə atılan karbon qazının həcminin isə 330 min tondan çox azalması vəzifəsi reallaşacaq.

Yuxarıda qeyd edilənlərdən əlavə, ümumi gücü 37,5 MVt olan 6 kiçik KSES) layihəsinin icrası ilə bağlı tender prosedurlarının keçirilməsinə başlanılıb. Bu layihələr üzrə stansiyaların 2025-ci ilin birinci yarısında istismara verilməsi planlaşdırılıb.

***Vaqif BAYRAMOV***
***XQ***

# Tərəqqinin yolu səmimi qonşuluq və faydalı əməkdaşlıqdan keçir

## Cənubi Qafqazda sabitliyin, təhlükəsizliyin və inkişafın təminatı Azərbaycan – İran münasibətlərindən birbaşa asılıdır

**Azərbaycan ilə İran arasında münasibətlərin yolu heç də həmişə hamar və rəvan olmamışdır. Amma indi keçmişi elə keçmişdə qoymaq və irəli baxmaq məqamıdır. Artıq umu–küsüləri unudub, iki qonşunun tarixin yaratdığı fürsəti düzgün dəyərləndirib, əl-ələ verib üzü inkişafa doğru irəliəməsi üçün heç bir maneə görünmür. Əlbəttə, bədxahlarımızın arzuladıqlarının əksinə olaraq, ortaq tarix, mədəni və dini bağlarımız olan cənub qonşumuzla münasibətlərdəki soyuqluq sonsuza qədər davam edə bilməzdi. Aşkar reallığın, siyasi məntiqin diktəsi ilə bütün suallara cavabların tapıldığı bir vaxtda iki dövlətin, iki xalqın yeni yolla birgə addımlamasının məqamı yetişməli idi və yetişdi də.**



Təxminən ötən ilin ortalarından başlayaraq, İran və Azərbaycan Xarici işlər nazirlərinin mütəmadi görüşləri ikitərəfli münasibətlərdə müsbət tendensiyanın üfüqlərini müəyyən etdi. Xüsusilə, keçən ilin payızından başlayaraq Bakı və Tehran tərəfindən bir-birinə yönəlik xoşməramlı, müsbət dəyərləndirmələrin səslənməsi də İlahi ədalətin qalib gəlməsindən xəbər verirdi. İndiyə qədər iki ölkə arasındakı münasibətlərin yumşalacağına skeptik yanaşan ekspertlər artıq “buzların əridiyi” qənaətinə gəldilər. Bu baxımdan, İranın “3+3” formatında keçirilən görüşə evsahibliyi etməsini beynəlxalq institutlar, “böyük güclər” maraqla izlədilər. Bununla da rəsmi Tehran, faktiki olaraq, Bakının təklif etdiyi “altılar”ın formatında iştirak etməyə razılığını verdi. Bunun ardınca Zəngəzur dəhlizinə alternativ olaraq Naxçıvana yolun İran ərazisindən çəkilməsi ikitərəfli münasibətlərdə normallaşmanın göstəricisi sayılmalıdır.

* * *

Beləliklə, təkcə bölgə ölkələri deyil, bütün dünya Azərbaycan–İran münasibətlərində böhran amilinin aradan qalxdığını gördü. Prezidentlərin görüşləri sayəsində ikitərəfli münasibətlərdə narahatlıq doğuran məqamlara tam aydınlıq gətirildi. Bütün bunlar qarşılıqlı etimad mühitinin bərpa olunmasına aparan yol oldu, – desək, səhvə yol vermərik. Azərbaycanın Tehranda səfirliyinin bu ilin iyul ayından etibarən yeni binada fəaliyyətini davam etdirməsi barədə müjdə də diplomatik münasibətlərin tam normallaşması kontektində qəbul edilməlidir. Diplomatik mənbədən aldığımız məlumata əsasən, İran Azərbaycan səfirliyinin fəaliyyətinin təhlükəsizliyi üçün yeni bina ayırıb və hazırda orada son tamamlama işləri aparılır. Ümumiyyətlə, hərbi, diplomatik və hökumətlərarası səviyyələrdə İran–Azərbaycan təmaslarının müsbət nəticələri onu deməyə əsas verir ki, son illərdə Tehran–Bakı arasında dominantlıq edən gərginlik fazası arxada qalıb. tərəflər tərəfdaşlıq və konstruktiv dialoq yolunu tutublar.

### Ekspert rəyi



**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**

– Reallıq budur ki, Azərbaycan–İran münasibətləri hazırda normal və irəliyə doğru inkişaf edən səviyyədədir. Onu da demək lazımdır ki, bu inkişaf təkcə Azərbaycanın deyil, eyni zamanda, İranın da maraqlarına cavab verir. Bu fakt iki ölkə arasında həyata keçirilən müxtəlif layihələr, imzalanan müqavilə və sazişlər, eləcə də İranın mərhum prezidentinin Bakıya rəsmi səfəri ilə, İlham Əliyevlə görüşündə verdiyi açıqlamalarda öz təsdiqini tapıb. Xatırlayırıq ki, o, İran və Azərbaycan arasında münasibətlərin daha da möhkəmlənməsində maraqlı olduqlarını bəyan etmişdi. Bir amili də nəzərə almalıyıq ki, İranın xarici siyasət kursunu müəyyənləşdirən və onu icra edən prezidentdir. Doğrudur, bu ölkədə bütün məsələlər, proseslər Ali Dini Rəhbər Əli Xamenei tərəfindən idarə olunur. Yəni, İİR Prezidentinin Bakıya səfərinə razılığını verməklə, Ali Dini Rəhbər Azərbaycanla münasibətlərin yaxşılaşmasında maraqlı olduğunu nümayiş etdirib.

İkitərəfli danışıqlar prosesində hansısa anlaşılmazlıq, problem üzə çıxa bilər. Amma, düşünürəm ki, hazırda qonşular arasında münasibətlər prinsipial şəkildə normal səviyyədədir və bundan sonra da müsbət məcrada davam edəcək. Güman edirik ki, təsdiqlənmiş layihələrin həyata keçməsində də heç bir problem olmayacaq.

### Ekspert rəyi



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, siyasi analitik**

– Araz çayı üzərində “Xudafərin” hidroqovşağının istismara verilməsi, “Qız qalası” hidroqovşağının açılması müsbət addımdır. Bu, Azərbaycan və İranın müştərək layihələri həyata keçirmələrinin bariz nümunəsidir. Gələcək üçün də bu xarakterli layihələrin nəzərdə tutulması ikitərəfli münasibətlərdə müsbət tendensiyanın davam edəcəyinə ümidləri artırır. Əlbəttə, görüşdən və açılış mərasimindən az sonra baş vermiş məlum qəza və Prezident də daxil olmaqla, İİR-in yüksək çinli məmurlarının həlak olması hamımızı sarsıtdı. Axı, birgə layihələr üzrə ikitərəfli danışıqlar bu siyasi və iqtisadi kontingentlə aparılırdı. Doğrudur, burada müəyyən sualların ortaya çıxa biləcəyini ehtimal edə bilərik. Amma mən tamamilə əminəm ki, uzun quru sərhədinə malik cənub qonşumuzla münasibətlərimiz bundan sonra da qarşılıqlı faydalı əməkdaşlıq müstəvisində davam edəcək. Bizi bir-birimizə tarixi, milli, mədəni, dini tellər bağlayır. Yəni, biz əməkdaşlığa məhkumuq. İnanıram ki, İranda hakimiyyətə gələcək yeni komanda da Azərbaycanla münasibətlərin yalnız yüksələn xətlə davam etdirilməsində maraqlı olacaq. Məhz bu istiqamətdə fəaliyyəti həm İranın, həm də Azərbaycanın milli maraqları tələb edir.

İki gün bundan əvvəlki görüşü isə yalnız tarixi hadisə kateqoriyasına aid etmək lazımdır. İki ölkə arasında mehriban qonşuluq, qardaşlıq və dostluq münasibətlərinin inkişafını təmin edən siyasətin töhfəsi olaraq uzun illərdir fəaliyyət göstərən Araz, Mil-Muğan su anbarları və Araz Su Elektrik Stansiyasından sonra Araz çayı üzərində “Xudafərin” və “Qız qalası” hidroqovşaqları və su elektrik stansiyaları layihəsinin reallaşması göstərir ki, Azərbaycan və İran öz aralarındakı səmərəli əməkdaşlıq imkanlarını uğura çevirməyi bacaran ölkələrdir. Yəni, ikitərəfli ticarət-iqtisadi əlaqələr Azərbaycan-İran əməkdaşlığının tərəqqi yoluna qədəm qoyduğunu göstərir.

Yeri gəlmişkən, Ağbənd yolu regionları birləşdirən əsas nəqliyyat-tranzit yollarından biri olacaq. Oradan Türkiyəyə və İran vasitəsilə Fars körfəzinə yüklərin daşınması həyata keçiriləcək. Yaxın dörd-beş il ərzində dəmir yolunun çəkilməsi də nəzərdə tutulub. Birgə layihə Araz çayının su ehtiyatlarından səmərəli istifadə olunmaqla elektrik enerjisinin istehsalı və əkin sahələrinin su təminatının yaxşılaşdırılmasına xidmət edəcək “Xudafərin” və “Qız Qalası” hidroqovşaqlarında su bəndlərinin tikintisi üzrə işlər tamamlanıb, su anbarlarının doldurulması işlərinə başlanılıb. Azərbaycanın İranla ikitərəfli əlaqələri daha da inkişaf etdirmək istiqamətində bütün addımları atacağı və bu siyasətinə sadiq qalacağı şühbəsizdir.

* * *

“İran-Azərbaycan əlaqələrinin gələcək inkişafı da çox müsbətdir”. Bu sözləri Araz çayı üzərində inşa edilmiş “Xudafərin” hidroqovşağının istismara verilməsi və “Qız Qalası” hidroqovşağının açılış mərasimində çıxışı zamanı Prezident İlham Əliyev deyib. İran–Azərbaycan birliyinin, dostluğunun sarsılmaz olduğunu deyən dövlətimizin başçısı bölgənin sabitliyi, tərəqqisi, gələcək təhlükəsizlik tədbirlərinin gücləndirilməsi üçün bu dostluğun, qardaşlığın böyük əhəmiyyət kəsb etdiyini xüsusi olaraq vurğulayıb.

Beləliklə, rəsmi Bakı öz mövqeyini ortaya qoydu və Tehranla münasibətlərin yeni, faydalı xəttini müəyyən etdi. Artıq ortada hər hansı anlaşılmazlıq yoxdur. Ona görə ki, Tehran Bakının çağırışlarına cavab verməklə, xoşniyyətli qonşuluq əlini sıxmaqla münasibətlərin uğurlu perspektivində maraqlı olduğunu nümayiş etdirdi. İranın mərhum Prezidenti İbrahim Rəisi iki gün əvvəl bunu açıq şəkildə bəyan etmişdi: “Biz Qarabağın Azərbaycanın ərazisi olduğunu səlis formada, tam açıq şəkildə bildirən ilk ölkələrdən biri olmuşuq. Bu bölgədə, Qarabağda dirçəliş proqramı əsasında əməkdaşlığımızı hər zaman göstərməyə hazır olduğumuzu bir daha bildirmək istəyirəm”.

Artıq bölgənin geosiyasi coğrafiyasında yeni, müsbət təmayüllərin işartıları sezilməkdədir. Amma nəzərə alaq ki, İran–Azərbaycan əlaqələrinin inkişafı bəzi güclərin xoşuna gəlmir. Ola bilər. İntəhası, hər şeyin önündə gələn bizim maraqlarımız dayanır. Bədxahlarımız isə nə Azərbaycanın, nə də İranın inkişafını görmək istəyirlər.

“Düşünürük ki, Azərbaycanın inkişafı bizim də inkişafımızdır”. Yazımıza son sitat kimi seçdiyimiz bu sözləri İranın mərhum Prezidenti İbrahim Rəisinin “Xudafərin” hidroqovşağının istismara verilməsi və “Qız qalası” hidroqovşağının açılış mərasimindəki çıxışından götürmüşük. Bəli, tərəqqiyə aparan yolu əl-ələ tutub, yanaşı addımlamaqla daha tez qət edə bilərik. Artıq tərəflərin heç birində buna şübhə yeri qalmayıb.

*İmran BƏDİRXANLI*
*XQ*

# Keşiş Baqrat indi də sərhəddə aranı qarışdırır

**Mayın əvvəllərində Tavuş vilayətindən İrəvana yürüş edən, burada mitinqlər keçirən, özünü “erməni xalqının xilaskarı” kimi göstərməyə çalışan arxiyepiskop Baqrat Qalstanyan hay-küydən bir şey çıxmadığını görüb yenidən Tavuşa – Kirants kəndinə qayıtmaq istəyib. İrəvana yürüşünü şouya çevirən Qalstanyan qayıdışını da teatrallaşdırmaq istəyib. Amma kəndin girişində onun üçün o qədər də xoş olmayan sürprizlə qarşılaşıb. Məlum olub ki, Baqratın kəndə daxil olmasına qadağa qoyulib. Ermənistan polisi onu kəndin girişində saxlayaraq, irəliləməsinə imkan verməyib. Kəndin girişinə çox sayda polis qüvvələri yerləşdirilib.**

Elə orada jurnalistlərə müsahibə verən B.Qalstanyan deyib: “Hətta türklər də mənim girişimə (?) mane olmadılar. İndi bizə deyirlər ki, kəndə getməyə ixtiyarınız yoxdur. Bundan sonra biz pasportla kəndbəkənd dolaşmalıyıq”. Arxiyepiskop polisin alətə çevrildiyini də qeyd edib: “Bu uşaqların həyatını mənəvi olaraq, nəyə çevirdiklərini bilmirəm, amma onları bizimlə düşmən etdilər ki, biz gəlib onlarla problem yaşayaq”.

Bu arada Nikol Paşinyanın həyat yoldaşı Anna Akopyanın baş redaktoru olduğu “Aykakan jamanak” (“Erməni vaxtı”) qəzeti Kirants kəndində sərhədin demarkasiyası üzrə işlərin artıq yekunlaşmaq üzrə olduğu barədə məlumat yayıb. Məlumata görə, Ermənistan sərhədçiləri sərhədin demarkasiya olunmuş hissəsində sərhəd nəzarətini həyata keçirəcəklər. Artıq Kirantsda sərhəd dirəkləri quraşdırılıb. Əllərində avtomat, üzlərində maska olan sərhədçilər dirəklərin yanında dayanırlar. Bu zaman kənd əhalisi kəndin yoluna toplaşıb. Onlar deyiblər ki, sütunlar səhər saatlarında gizli quraşdırılıb. Kəndlilərə, eləcə də kənar təxribatçılara yaxınlaşmağa icazə verilməyib. Jurnalistlər xəbər verirlər ki, dirəklərin quraşdırılması zamanı yaşlı erməni sakinlərdən birinin vəziyyəti pisləşib. Bunun səbəbi onun evinin Azərbaycan tərəfə düşməsi ilə bağlıdır. O, tibb məntəqəsinə aparılıb.

Qeyd edilir ki, prosesi həyata keçirmək üçün Kirantsa giriş müvəqqəti olaraq, bağlanıb. Girişin bağlanmasının B.Qalstanyanla bu və ya digər şəkildə əlaqəsi yoxdur.

“Hraparak” qəzeti isə yazır ki, Qalstanyan keçirdiyi aktiv siyasi görüşlərdə son vaxtlar əsasən, dinləyici rolunda olur. O, siyasi qüvvələrin nümayəndələrinin fikirlərini, təkliflərini və müşahidələrini diqqətlə dinləyir, lakin öz planını açıqlamır. Yeganə istisna impiçment prosesi ilə bağlıdır. Arxiyepiskop siyasi qüvvələrdən parlamentdə Paşinyana etimadsızlıq prosesinin başlanmasını xahiş edir. Bəzi deputatlar ehtiyatlı şəkildə Baqratın fikirlərinə maraq göstərirlər. Məsələn, onlar parlamentdə Paşinyana etimadsızlıq səsverməsi prosesinin başlanmasına hansısa ümidlərin olması, Baqratın hakim “Mülki müqavilə” fraksiyasının deputatları ilə danışıqlar aparıb-aparmaması, onları “doğru yola döndərməyin” mümkün olub-olmaması ilə maraqlanırlar.

Xüsusən də mayın 9-da keçirilən mitinq zamanı keşişin tribunadan “Mülki müqavilə”nin bir neçə üzvünün adını çəkməsi, onlarla yaxınlığını və bunun da nəticəsinin olduğunu deməsi bu tip sualların meydana çıxmasına rəvac verib. Ancaq o, yenə də susmağa üstünlük verir və yeganə ümidin insanların təzyiqi olduğunu vurğulayır. Dünən deputat Geqam Nazaryanın müxalifət dairələrində xoşagəlməz davranışından sonra impiçment proseduru üçün tələb olunan 36 səsin toplanmasının mümkün olub-olmayacağı ilə bağlı artıq şübhələr yaranıb.

Onu da bildirək ki, revanşistlər Kirantsda, guya, ərzaq qıtlığının yarandığını iddia edirlər. Onların bu yanaşması ötən il bu vaxtlar Qarabağ iqtisadi rayonunun erməni azlığın yaşadığı hissəsi ilə bağlı qaldırdıqları hay-küyə çox bənzəyir. Hamının yaxşı yadındadır ki, o vaxt rəsmi İrəvan tərəfindən dəstəklənən separatçılar Azərbaycanın, guya, Həkəri çayının üzərindəki “Laçın” sərhəd nəzarət-buraxılış məntəqəsindən gündəlik tələbat mallarını buraxmadığını deyirdilər. Ancaq Azərbaycan tərəfi bildirirdi ki, onun bir bölgəsinə qida məhsulları başqa ölkədən daşına bilməz. 2023-cü ilin sentyabrında erməni əhalinin gedişindən sonra anbarların əsas qida məhsulları ilə dolu olduğu üzə çıxmışdı.

Bu mənada həmin ssenari indi Kirantsda oynanılır. Ermənistan media orqanları indi də bu kənddə çörək və ərzaq qıtlığının yaşandığını bildirirlər. Jurnalist Ani Gevorkyanla söhbətində mağaza işçisi bildirib ki, ərzaq məhsulları daşıyan avtomobillər mağazaya qədər gedə bilməz. “Polisin keçirdiyi əməliyyat nəticəsində Kırantsda ərzaq problemi yaranıb. Kəndə gedə bilməyən tədarükçülər geri qayıdırlar”, – mağaza işçisi deyib. Güman etmək olar ki, bir müddət sonra Ermənistandakı revanşistlər, məsələn sabiq ombudsman Arman Tatoyan kimiləri “Azərbaycanın yaratdığı vəziyyət üzündən Kirantsda humanitar fəlakət yaşanır, əhali soyqırımına məruz qalır” məzmununda beynəlxalq təşkilatlara donoslar yazıb göndərəcəklər.

A.Tatoyandan söz düşmüşkən bildirək ki, sabiq ombudsman hazırda Hayastanda demarkasiya prosesinə qarşı çıxanların önündə gedənlərdəndir. O, dünən “Facebook” səhifəsində yazıb: “Polis Kirantsda vətəndaşların, kənd sakinlərinin və peşə fəaliyyəti ilə məşğul olan jurnalistlərin sərbəst gediş-gəlişini məhdudlaşdırmaq üçün özbaşına qərarlar qəbul edib. Bəzi polis məntəqələri qanuni əsas olmadan yaradılıb və onlar insanların gediş-gəlişinə şəxsi mülahizələri əsasında icazə verirlər. Dövlət sərhədinin demarkasiyası deyilən hadisə heç bir izahat və əsaslandırma olmadan baş verir, hətta qətnamə layihəsi də yoxdur”.

Göründüyü kimi, Tatoyan yenə öz ampluasındadır. O, əvvəlki fikirlərini təkrarlamaqla gündəmdə qalmaq istəyir. Ancaq cəmiyyətin böyük əksəriyyəti onu da revanşistlərə aid etdiyindən fikirlərini ciddiyyə almır. Nəticədə ölkədə Tatoyanın nüfuzu xeyli aşağı düşüb.

“Armenian Report” saytı isə Qərbi Gürcüstandakı etirazçıları dəstəklədiyi halda Ermənistan hakimiyyətinə dəstək verməməkdə ittiham edib. “Dəhşətli səhv: Avropa niyə Ermənistanda demokratiyanı dəstəkləmir?” sərlövhəli məqalədə bildirilib ki, Avropa indi Ukraynanı satdığı kimi, bir vaxtlar Gürcüstana, bu ölkənin demokratik seçiminə xəyanət edib. Qeyd edilib ki, Avropa Rusiyanı 2008-ci ilin avqust müharibəsinə görə adekvat şəkildə qınamadı. Avropa İttifaqı o vaxt Rusiyaya qarşı sanksiyalar belə tətbiq etməmişdir: “Biz hazırda ABŞ və Aİ-nin Gürcüstandakı etirazçılara dəstəklərini necə bəyan etdiklərini görürük. Amma bunun çox gecikmiş reaksiya olduğu açıq-aydın görünür. Əvvəllər Rusiyayönlü oliqarx Bidzina İvanişvilinin bu ölkədə hakimiyyəti ələ keçirməsinin qarşısını almaq üçün Gürcüstanın demokratik, avropalı seçimini dəstəkləmək lazım idi. Ölkəmizdə baş verənlərlə bağlı da Aİ və ABŞ-yə eyni şeyi demək lazımdır.

Tamamilə aydındır ki, Rusiya və onun dövlətimizin keçmiş rəhbərləri olan tərəfdarları tarixin təkərini geri çevirmək arzusundadırlar. Onlar bəzi vətəndaşların İrəvan və digər şəhərlərin küçələrinə çıxarılması ilə bağlı bütün bu təxribatları maliyyələşdirir və ona informasiya dəstəyi verirlər. Bu təxribatın məqsədi o qədər aydın görünür ki, bu barədə yenidən danışmaq belə mənasızdır”.



Saytın yazarı Qalust Qriqoryan belə suallar qoyur: “Bəs biz Aİ-dən dəstək görürükmü? Yox! Avropanın müxtəlif ölkələrindən İrəvana gələn liderlərin, deputatların legitim hakimiyyəti dəstəklədiyini görürükmü? Yenə də yox! ABŞ Dövlət Departamentinin və ya Fransa Xarici İşlər Nazirliyinin Ermənistandakı hazırkı təxribatçı hərəkətlərin ölkəmizdə demokratiyaya zərbə vurmaq məqsədi daşıdığına dair bəyanatını görürükmü? Cavab yenə də yox! Və bu, onların çox nəticələri çox faciəvi ola biləcək böyük səhvidir”.

Nəhayət, dünən günün sonuna yaxın polisin qadağasına baxmayaraq, B.Qalstanyan Kirantsa daxil ola bilib. Bu barədə “Milli cəbhə” teleqram kanalı məlumat yayıb. Bundan sonra kənddə vəziyyət gərginləşib. Nəticədə, polis sərt addımlara əl atmaq, etirazçıları həbs etmək məcburiyyətində qalıb. Hüquq-mühafizə orqanları onlardan bəzilərini yerə yıxaraq saxlamağa müvəffəq olub və maşınlara mindirərək təcridxanaya aparıb.

Bütün bunlar din xadimi adlanan şəxsin əməllərindən əl çəkmədiyini və qarşıdakə günlərdə yenə də qarışıqlıq yaratmaq cəhdlərini davam etdirəcəyini göstərirş. Ancaq Ermənistan hakimiyyətinin, hüquq-mühafizə orqanlarının geri çəkilməməsi, etirazçıları həbs etməsi onları pərən-pərən salır, şanslarını azaldır. Nəticədə bir neçə gündən sonra onların olan-qalan tərəfdarının da dağılışaraq evlərinə dönəcəkləri ehtimal edilir.

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri, politoloq Cavid Vəliyev “XQ”-yə açıqlamasında şərhində bildirdi ki,** Paşinyan artıq 6 ildir hakimiyyətdədir və ötən dövrdə belə etirazları çox görüb. Onun sözlərinə görə, xüsusilə İkinci Qarabağ müharibəsindən sonra ona qarşı böyük bir hərəkat formalaşmışdı. Ancaq Nikol onları neytrallaşdırmağa nail olub.

C.Vəliyevin fikirncə, bu mənada, hazırkı etirazlar Paşinyan iqtidarına ciddi təhdidlər yaratmır: “Paşinyan müharibədə məğlub olmasına baxmayaraq, istefa vermədi. Ona qarşı 2021-ci ilin fevralında hərbçilərin qiyamı baş verdi. Ancaq o da uğursuz oldu. Daha sonra yaranmış siyasi böhran səbəbindən 2021-ci il iyunun 20-də keçirilən növbədənkənar parlament seçkilərində qalib gəldi. Bundan sonra da İrəvan küçələrində dəfələrlə mitinqlər keçirildi. Ancaq onlar heç bir nəticə vermədi. Paşinyan iqtidarını devirmək üçün, hətta, xaricdən də bəzi müdaxilələr oldu. Onlar da uğursuzluğa düçar oldular”.

Politoloq bildirdi ki, qarşıdakı günlərdə, yaxud həftələrdə etiraz aksiyaları tədricən yatacaq. Çünki Qalstanyan əhalisinin siyasi baxımdan fəal kəsiminin yaşadığı İrəvandan istədiyi dəstəyi ala bilmədi. Bu səbəbdən o, geri dönərək yenidən tavuşlulardan dəstək almaq istəyir. Görünən odur ki, belə aksiyalarla Ermənistan və Azərbaycan arasında başlanan və artıq geridönməz şəkil alan demarkasiya prosesini durdurmaq mümkün olmayacaq.

*Səxavət HƏMİD*
*XQ*

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 29 fevral tarixli 59 nömrəli Qərarı ilə təsdiq edilmiş “Hərbi-həkim ekspertizası haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının 13 may 2024-cü il tarixli 256 nömrəli Qərarı ilə qəzetimizin saytında bu linkə *https://xalqqazeti.az/az/nazirler-kabinetinin-qerarlari/179901-azerbaycan-respublikasi-nazirler-kabinetinin-qerari* daxil olmaqla tanış ola bilərsiniz.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 257** **Bakı şəhəri, 14 may 2024-cü il**

**“Satınalan təşkilatlar tərəfindən ərzaq məhsullarının (dövlət ehtiyatları üçün alınan ərzaq məhsulları istisna olmaqla) mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası”nın təsdiq edilməsi barədə**

“Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 avqust tarixli 2307 nömrəli Fərmanının 2.2.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Satınalan təşkilatlar tərəfindən ərzaq məhsullarının (dövlət ehtiyatları üçün alınan ərzaq məhsulları istisna olmaqla) mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası” təsdiq edilsin (əlavə olunur).

**2.** “Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınmasının təmin edilməsi ilə bağlı bəzi normativ-hüquqi aktların təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 27 oktyabr tarixli 420 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 10, maddə 1737 (Cild I) ləğv edilsin.

**3.** “Ərzaq məhsullarının dövlət sifarişi ilə satın alınması” elektron portalında barəsində məlumatlar yerləşdirilən istehsalçıların, eləcə də satıcıların fəaliyyətinin monitorinqinin aparılması Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 14 oktyabr tarixli 393 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 10, maddə 1219 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 259** **Bakı şəhəri, 16 may 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat”da dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” və “Hədəfli maliyyə sanksiyaları haqqında” Azərbaycan Respublikası qanunlarının icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1080-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 fevral tarixli 2460 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 693 (Cild I); 2024, № 1, maddələr 110,111; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 27 mart tarixli 182 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat”da aşağıdakı dəyişikliklər edilsin:

**1.** 6-cı hissənin “d” bəndi aşağıdakı redaksiyada verilsin:

“d) “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” və “Hədəfli maliyyə sanksiyaları haqqında” Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş hallarda və qaydada monitorinq olunmalı əməliyyatlara dair, həmçinin hədəfli maliyyə sanksiyalarının tətbiqi ilə əlaqədar məlumat və sənədlərin təqdim edilməsi ilə bağlı tələblərə riayət etməli, bu sahədə Azərbaycan Respublikasının normativ hüquqi və normativ xarakterli aktlarında nəzərdə tutulmuş digər tədbirləri həyata keçirməlidirlər;”.

**2.** 16-cı hissənin altıncı abzası aşağıdakı redaksiyada verilsin:

“Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən müştəri uyğunluğu tədbirlərinin tətbiqi mümkün deyilsə, hər hansı əməliyyat həyata keçirilməməli, işgüzar münasibətlər yaradılmamalı, habelə işgüzar münasibətlərə xitam verilməli və bu barədə maliyyə monitorinqi orqanına məlumat verilməlidir.”.

**3.** 33-1-ci hissəyə aşağıdakı məzmunda üçüncü abzas əlavə edilsin:

“Notariuslar “Hədəfli maliyyə sanksiyaları haqqında” Azərbaycan Respublikası Qanununun 4.1-ci maddəsində nəzərdə tutulan aktivləri beynəlxalq və ölkədaxili siyahılar hədəfli maliyyə sanksiyalarına dair internet informasiya ehtiyatında dərc edildiyi vaxtdan təxirə salınmadan və həmin maddədə göstərilən şəxslərə xəbərdarlıq etmədən dondurmalı və dərhal bu barədə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinə, habelə maliyyə monitorinqi orqanına həmin internet informasiya ehtiyatı vasitəsilə məlumat verməlidirlər.”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 260** **Bakı şəhəri, 16 may 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 14 may tarixli 190 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin strukturu”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 4 may tarixli 1206 nömrəli Sərəncamının 1.1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 14 may tarixli 190 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 5, maddə 671 (Cild I) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - “Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin strukturu”nun 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2.1-ci, 2.2-ci, 2.5-ci və 2.6-cı bəndlər aşağıdakı redaksiyada verilsin:

“2.1. Bakı Regional Enerji Təchizatı və Satışı İdarəsi (Bakı) Bakı şəhərinin enerji təchizatı və satışı idarələri və Abşeron Rayon Enerji Təchizatı və Satışı İdarəsi;

2.2. Sumqayıt Regional Enerji Təchizatı və Satışı İdarəsi (Sumqayıt) - Sumqayıt, Xızı, Qobustan rayon elektrik şəbəkələri və Bağlar elektrik şəbəkəsi;

2.5. Aran Regional Enerji Təchizatı və Satışı İdarəsi (İmişli) - İmişli, Beyləqan, Ağcabədi, Ağdam, Ağsu, Kürdəmir, Zərdab və Füzuli rayon elektrik şəbəkələri;

2.6. Mərkəzi-Aran Regional Enerji Təchizatı və Satışı İdarəsi (Mingəçevir) - Mingəçevir, Goranboy, Naftalan, Yevlax, Ağdaş, Ucar, Göyçay, Tərtər və Bərdə rayon elektrik şəbəkələri;”.

2. 2.8-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.9-cu və 2.10-cu bəndlər əlavə edilsin:

“2.9. Qarabağ Regional Enerji Təchizatı və Satışı İdarəsi (Şuşa) - Şuşa, Xocavənd, Zəngilan, Qubadlı, Laçın, Kəlbəcər, Cəbrayıl rayon və Xankəndi elektrik şəbəkəsi;

2.10. Xaçmaz Regional Enerji Təchizatı və Satışı İdarəsi (Xaçmaz) - Xaçmaz, Şabran, Quba, Qusar və Siyəzən rayon elektrik şəbəkələri.”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 261** **Bakı şəhəri, 16 may 2024-cü il**

**“Elektrik şəbəkələrinin mühafizə zonalarının ölçüləri və həmin ərazilərdə təsərrüfat işlərinin aparılmasına dair tələblər”in təsdiq edilməsi haqqında**

“Elektroenergetika haqqında” Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 858-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 may tarixli 2143 nömrəli Fərmanının 2.2.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Elektrik şəbəkələrinin mühafizə zonalarının ölçüləri və həmin ərazilərdə təsərrüfat işlərinin aparılmasına dair tələblər” təsdiq edilsin (əlavə olunur).

**2.** “Gərginliyi 1000 voltadək olan elektrik şəbəkələrinin mühafizəsi Qaydaları”nın və “Gərginliyi 1000 voltdan yuxarı olan elektrik şəbəkələrinin mühafizəsi Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 10 iyun tarixli 103 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 539 (Cild I) ləğv edilsin (2-ci hissəsi istisna olmaqla).

**3.** “Azərenerji” Açıq Səhmdar Cəmiyyəti ötürücü şəbəkəyə münasibətdə, “Azərişıq” Açıq Səhmdar Cəmiyyəti paylayıcı şəbəkəyə münasibətdə elektrik şəbəkələrinin mühafizə zonaları barədə cari vəziyyətə dair məlumatları elektron qaydada üç ay müddətində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 263** **Bakı şəhəri, 16 may 2024-cü il**

**“Dəniz nəqliyyatında xarici daşımaçılıqla məşğul olan ticarət donanmasının heyət üzvlərinə vəzifə maaşlarına verilən aylıq əlavə pul təminatının yuxarı həddinin məbləği”nin təsdiq edilməsi və “Dəniz nəqliyyatında ezamiyyə xərcləri əvəzinə üzücü heyətin üzvlərinə sutkalıq ödənişlərin müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 4 may tarixli 75 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

“Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1033-VIQD nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 dekabr tarixli 2439 nömrəli Fərmanının 2.2.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Dəniz nəqliyyatında xarici daşımaçılıqla məşğul olan ticarət donanmasının heyət üzvlərinə vəzifə maaşlarına verilən aylıq əlavə pul təminatının yuxarı həddinin məbləği” təsdiq edilsin (əlavə olunur).

**2.** “Dəniz nəqliyyatında ezamiyyə xərcləri əvəzinə üzücü heyətin üzvlərinə sutkalıq ödənişlərin müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 4 may tarixli 75 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 312 (Cild I) 1-ci hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

**Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

# Ulu öndər Bərdədə anılıb

**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ili və ölkəmizdə 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ilə əlaqədar Bərdə rayonunda Hərbi Prokurorluğun və DİN-in Daxili Qoşunlarının rəhbər və yüksəkrütbəli hərbi qulluqçularının iştirakı ilə birgə tədbir keçirilib.**



Hərbi prokurorun böyük köməkçisi – mətbuat xidmətinin rəhbəri, baş ədliyyə müşaviri Firad Əliyev, İstintaq idarəsinin rəisi Bəhruz Əhmədov, Ağdam hərbi prokuroru Elnur Kərimov, Tərtər hərbi prokuroru Emin Vəliyev və başqaları çıxış edərək Ulu Öndərin həyat və yaradıcılığından, xalqımız qarşısındakı müstəsna xidmətlərindən danışıblar.

Sonra ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin tələbləri qeyd edilib, hərbi qulluqçuları maraqlandıran suallar cavablandırılıb.

**XQ**

# Qırğızıstanda Azərbaycan nəşrləri

**Bişkekdə Azərbaycan Prezidenti İlham Əliyevin 20 illik prezidentliyindən bəhs edən “Zəfər çələngi” və Ulu öndər Heydər Əliyevin anadan olmasının 101 illiyinə həsr olunmuş "Xalqa bağışlanmış ömürdən anlar” adlı kitabların elektron versiyaları “turktoday.info” portalına yüklənərək oxucuların istifadəsinə verilib.**







Türkdilli Dövlətlərin Siyasətinə Dəstək Fondunun sifarişi ilə ərsəyə gətirilmiş “Zəfər çələngi” kitabının müəllifləri professor Cümşüd Nuriyev, siyasi elmlər üzrə fəlsəfə doktoru Şəbnəm Nuriyeva, “Odlar yurdu” Universitetinin baş müəllimi Mayıl Orucov və həmin ali məktəbin dosenti Sevinc İbrahimovadır.

Azərbaycan xalqının umummilli lideri Heydər Əliyevin 101 illik yubileyinə həsr olunmuş “Xalqa bağışlanmış ömürdən anlar” kitabının nəşrində isə, əsasən, AZƏRTAC-ın materiallarından istifadə olunub. Kitabı qırğız dilinə Rıskulbekov adına Qırğızıstan İqtisadiyyat Universitetinin professoru, respublikanın Əməkdar iqtisadçısı Elmira Cumaliyeva tərcümə edib.

**K.QULU,**
**XQ-nin xüsusi müxbiri**
**Bişkek**

# Xalqımızın etnoqrafiyası Özbəkistan festivalında

**Özbəkistanda keçirilən “Xalqların adət-ənənələri və mətbəxi” adlı beynəlxalq festivalda Azərbaycan geniş təqdimatla çıxış edib. Ölkəmizi tədbirdə Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi təmsil edib.**



Etnoqrafik festivalda Türkiyə, Qazaxıstan, Əlcəzair, Rusiya, İran, Belarus, Banqladeş, Səudiyyə Ərəbistanı, Cənubi Koreya, Hindistan, Pakistan, Tacikistan iştirak edib. Hər ölkə milli ekspozosiyasında və çıxışlarda öz mədəniyyətini, mahnı və rəqslərini, mətbəx nümunələrini nümayiş etdirib.

Azərbaycan üçün ayrılmış guşədə ölkəmizin bayrağı, ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin iqtisadi inkişafından bəhs edən kitablar, Heydər Əliyev Fondu tərəfindən rus və ingilis dillərində çap edilən nəşrlər, Azərbaycanın tarixi və mədəniyyəti, milli mətbəxi ilə bağlı çap məhsulları yer alıb. Festivalda Azərbaycan mədəniyyətinə dair suvenirlər, Qarabağın milli kişi və qadın geyimləri iştirakçıların diqqətini cəlb edib.

Azərbaycan pavilyonuna gələnlərə ölkəmizin mədəniyyətinə, mətbəxinə dair müxtəlif məzmunlu kitab və jurnallar hədiyyə olunub. Qonaqlar plov, dolma, qutab, dovğa və şirniyyatlarımızı həvəslə alıblar. Festival çərçivəsində təşkil edilən konsertdə AMM-in rəqs ansamblının üzvləri milli rəqslərimizi ifa ediblər. Fəal iştiraka və zənginliyinə görə Azərbaycan stendi xüsusi diploma layiq görülüb.



**Qulu KƏNGƏRLİ,**
**XQ-nin xüsusi müxbiri**
**Daşkənd**

Azərbaycanda Tacikistan Günləri

# Qardaşlığın mədəni körpüsü

**Azərbaycan ilə Tacikistan arasında əlaqələrin köklü tarixi var və iki ölkənin münasibətlərində mədəni əməkdaşlıq əhəmiyyətli mövqeyə malikdir. Müxtəlif illərdə qarşılıqlı mədəniyyət günlərinin keçirilməsi, paytaxtlarımızda təşkil olunan kitab sərgilərində iştirak, eyni zamanda iki ölkənin yaradıcı kollektivlərinin səfərləri və s. mədəni əməkdaşlığın göstəriciləridir.**

Bakıda başlanan Tacikistan Mədəniyyəti Günləri ölkələrimiz arasında humanitar əlaqələrin inkişafına yeni töhfədir. Mayın 20-də Heydər Əliyev Mərkəzində "Tacikistan rəssamlarının rəsm əsərləri, xalq sənətkarlıq nümunələri və milli geyimləri" sərgisi açılıb. Bir qədər sonra isə Tacikistan Mədəniyyəti Günlərinin təntənəli açılış mərasimi keçirilib, qonaq ölkənin incəsənət ustalarının qala-konserti təqdim olunub.

Kino günlərinin bağlanışı mayın 23-də "Güzgü" filmi ilə olacaq. Həmin gün axşam isə qədim Nizami yurdunda – F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasında Tacikistanın incəsənət ustaları konsert proqramı təqdim edəcəklər.

Qeyd edək ki, Azərbaycan–Tacikistan münasibətlərinin qədim tarixi var və birgəlik ənənələri bu gün də yaşadılır. Hazırda dövlətlərimiz arasında əməkdaşlıq bir çox istiqamətlər üzrə uğurla inkişaf edir.

Vaxtilə taciklər üçün həyati əhəmiyyəti olan "Nurek" Su Elektrik Stansiyasının tikintisinə sovet rəhbərliyi etiraz etsə də, SSRİ Nazirlər Soveti sədrinin 1-ci müavini Heydər Əliyev layihəni sonadək dəstəkləyib. Həmin su elektrik stansiyası bu gün də Tacikistanın sosial-iqtisadi inkişafında mühüm rol oynayır və əksər əraziləri elektrik enerjisi ilə təmin edir. Tacikistan dövləti və xalqı Heydər Əliyevin bu ölkə üçün etdiklərini unutmur və minnətdarlıqla xatırlayır. Başqa sözlə desək, Nurekin yaydığı nur xalqlarımızın mədəni əlaqələrinə də güclü işıq salır.

Hələ ötən əsrin 60-cı illərində azərbaycanlı heykəltaraş, Stalin mükafatı laureatı olan Xalq rəssamı Fuad Əbdürrəhmanov tacik xalqının görkəmli oğlu Rudəkinin abidəsini yaradıb və o abidə Düşənbədə qoyulub. Digər məşhur Azərbaycan heykəltaraşı, AMEA-nın həqiqi üzvü, Dövlət mükafatları laureatı, Xalq rəssamı Ömər Eldarov isə Sədrəddin Ayninin və İbn Sinanın abidələrini yaradıb. Elə bu faktlar böyük etimad, dostluq, qardaşlıq deməkdir.

Düz 32 il əvvəl – mayın son günlərində müstəqil ölkələrimiz arasında möhkəm təməl üzərində diplomatik münasibətlər qurulub. Dövlət başçılarımızın rəsmi və işgüzar səfərləri münasibətləri daha da yaxınlaşdırıb. Qarşılıqlı mədəniyyət günləri və kino həftələrinin keçirilməsi ənənə halını alıb. 2007-ci ildə Azərbaycanda Tacikistan Mədəniyyət Günləri, bir il sonra isə Tacikistanda Azərbaycan Mədəniyyət Günləri keçirilib. 2015-ci ildə Bakıda Tacikistan kinosu günləri baş tutub. Ədəbiyyatların tərcümə mübadilələri də həyata keçirilir.

Ötən ilin aprelində Prezident İlham Əliyev Tacıkistana dövlət səfəri uğurla keçib. Orada imzalanan sənədlər arasında Mədəniyyət nazirliklərinin və dövlət turizm qurumlarının əməkdaşlıq haqqında Anlaşma memorandumları, eləcə də "Azərbaycan Respublikasının Şuşa şəhəri ilə Tacikistan Respublikasının İsfara şəhəri arasında qardaşlaşma əlaqələrinin qurulması haqqında Protokol" da olub. Onu da xatırladaq ki, Bakı və Düşənbə şəhərləri arasında Qardaşlaşma haqqında memorandum var. Bundan başqa, Xocənd şəhəri və Gəncə qardaşlaşmış şəhərlərdir.

Bəli, bu gün möhkəm mədəni bünövrə Azərbaycanla Tacikistan arasında bütün istiqamətlər üzrə fəal qarşılıqlı əlaqələri təmin edir. İnanırıq ki, Tacikistan Mədəniyyəti Günləri də qardaşlığımıza önəmli töhfələr verəcək.

***




**Azərbaycanda Tacikistan Mədəniyyət Günləri çərçivəsində "Nizami" Kino Mərkəzində Tacik Kinosu Günlərinin açılış mərasimi olub.**

Azərbaycan Dövlət Film Fondunun direktoru, Əməkdar incəsənət xadimi Cəmil Quliyev bildirib ki, qardaş və dost respublikalarımız coğrafi baxımdan uzaq olsa da, uzun illər ərzində iki ölkə çox yaxın əməkdaşlıq edib. O əlavə edib ki, kinematoqraflarımız arasında həmişə sıx münasibətlər olub.

"Tacikfilm"in baş direktoru Mahmadsaid Şoxiyon qeyd edib ki, müstəqillik illərində Tacikistan və Azərbaycan arasında diplomatik münasibətlər dinamik inkişaf edib və bu gün qardaş xalqlarımızın xeyrinə mühüm nəticələr əldə olunub.

Tacikistan Kinematoqrafçılar İttifaqının sədri Səfər Hakdodovun sözlərinə görə, iki qardaş ölkə arasında əməkdaşlığın mədəniyyət günləri çərçivəsində davam etməsi sevindirici haldır.

Sonda "Rüstəm və Sohrab" filmi nümayiş etdirilib.

*Ə.ƏLİYEV*
*XQ*

# Poeziyamızın Rəsul Rza günü

**Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri, tanınmış ictimai xadim, Xalq şairi Rəsul Rzanın anadan olmasının 114-cü ildönümü ilə əlaqədar Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar başda olmaqla qurumun rəhbərliyi, mərhumun ailə üzvləri, dostları və poeziya həvəskarları şairin Fəxri Xiyabandakı məzarını ziyarət ediblər.**



Mərasim iştirakçıları şairin məzarı üzərinə tər güllər düzüb, onun xatirəsini ehtiramla anıblar. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, Rəsul Rza Fondunun sədri, akademik Rafael Hüseynov şairin zəngin yaradıcılığından söz açıb, onunla bağlı xatirələrini bölüşüb. Tədbirdə şairin əsərlərinin fəlsəfəsindən, poetik məna çalarlarından bəhs edilib, onun "Qızılgül olmayaydı" poemasının milli poeziyanın repressiya qurbanlarına həsr olunmuş ilk və ən mükəmməl nümunələrindən biri olduğu bildirilib.

Hər il olduğu kimi, həmin gün Azərbaycan Yazıçılar Birliyində (AYB) Beynəlxalq Rəsul Rza Mükafatı laureatlara təqdim olunub. Fondun sədri akademik Rafael Hüseynov bildirib ki, Rəsul Rza XX yüzilliyin 2-ci yarısında hadisələrə, dünyaya, insanlara münasibətin daha çağdaş olması yolunda mühüm işlər görmüş edibdir: "O, gəncliyə üz tutmuş şəxsiyyət idi. Zənnimcə, "Rəsul Rza" mükafatını alan hər bir şəxsin buna layiq görülməsinə bir səbəb var. Çox arzu edirəm ki, ən azı, laureatlar Rəsul Rzanı yaxşı oxusunlar, ətraflı mənimsəsinlər".

Bu il 6 qələm adamının mükafata layiq görüldüyü bildirilib. Şəmsəddin Kuzəçi, Şəfəq Nasir, Faiq Balabəyli, Püstəxanım Hüseynova, Rizvan Sədrxanov və Aysel Xanlarqızına Beynəlxalq Rəsul Rza Mükafatı təqdim edilib.

Xalq yazıçısı Anar mükafata layiq görülən qələm adamlarını təbrik edib, Rəsul Rza yaradıcılığının təbliğinə görə onlara minnətdarlığını bildirib.

*Qabil YUSİFOĞLU*
*XQ*

# Səhnədə "Əsrə bərabər gün"



**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Çingiz Aytmatovun romanı əsasında hazırlanan "Əsrə bərabər gün" tamaşasına baxış olub.**

Teatrdan bildirilib ki, tamaşanın təqdimatında TÜRKSOY-un Baş katibi Sultan Raev, ADA Universitetinin rektoru, professor Hafiz Paşayev, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, professor Ceyran Mahmudova, TÜRKSOY-un Azərbaycan üzrə nümayəndəsi Elçin Qafarlı və ADA Universitetinin kollektivi iştirak edib.

Səhnə əsərini yüksək qiymətləndirən qonaqlar tamaşanın türkdilli ölkələrdə keçirilən teatr festivallarında nümayişini təklif edib, qastrol səfərlərinin təşkili ilə bağlı müzakirə aparılıb.

"Əsrə bərabər gün" tamaşasının müəllifi və quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə, quruluşçu rəssamı Əməkdar mədəniyyət işçisi İlham Əsgərovdur.

Tamaşa Çingiz xandan Çingiz Aytmatova qədər dünən, bu gün, sabah kontekstində yaşadığımız əsrə baxış adlandırıla bilər.

Səhnə əsəri Boranlı stansiyasındakı dəmiryolçu Yedigeyin dostu Qazanqapın cənazəsini qədim yurd yeri olan Ana-beyitdə dəfn etmək üçün çıxdığı yolla başlayır. Əcdadlarının uyuduğu Ana-beyitin yerində Baykanur kosmodromu salındığı üçün Boranlı camaatı ora buraxılmır. Əsərdə bu hadisə – Ana-beyitə gedən yolun bağlanması kosmik stansiyanın salınması səbəbi ilə əlaqələndirilsə də, tamaşada əcdadlarına, torpağına sahiblik hissinin olmaması günahı kimi də dəyərləndirilir. Oğullar atalarını, analarını tanımırsa, torpaq da onları qəbul etmir. Belə insanların heç sonsuz qalaktikada da yeri olmayacaq.

Tamaşa bağlanmış yol – "giriş qadağandır" əmrilə yaranmış kolliziya ətrafında keçmiş rəvayətdən gələcək yerdənkənar sivilizasiyaya qədər olan yolun bərpası cəhdi kontekstində həll olunub. Əgər əsər yaddaşını itirib manqurta çevrilən nəslin faciəsindən, qədim yurd yerlərində salınan kosmodromla davam etməsindən bəhs edirsə, tamaşa yaddaşını könüllü itirənlərə, könüllü manqurta çevrilənlərə, əcdadlarının harada dəfn edilməsinin fərqində olmayan, genetik kodunun hansı torpağa aid edilməsini bilməyənlərə torpaq haqqında rəvayətdir.

Tamaşada Xalq artistləri Nurəddin Mehdixanlı, Əli Nur, Laləzar Mustafayeva, Cəfər Namiq Kamal, Bəsti Cəfərova, Rafiq Əzimov, Hacı İsmayılov, Sabir Məmmədov, Əməkdar artistlər Abbas Qəhrəmanov, Elşən Rüstəmov, Anar Heybətov, Vəfa Rzayeva, aktyorlar Şəhla Əliqızı, İlyas Əhmədov, Afət Məmmədova, Rüstəm Rüstəmov, Cavidan Novruzov və başqaları iştirak ediblər.

*XQ*

# Mingəçevir teatrının qonşulara sovqatı

**Bölgə teatrlarının Bakıda və ölkənin rayonlarında tamaşalarla çıxış etmələri artıq gözəl ənənəyə çevrilib. Ötən şənbə və bazar günləri Mingəçevir Dövlət Dram Teatrı iki günlük qastrol səfərində olub.**



Zaqatala və Balakən rayonlarında qonaq olan teatrın yaradıcı kollektivi həm azyaşlılar, həm də böyüklər qarşısında tamaşalarla çıxış etmişlər.

Teatrın aktyoru İlqar Rəhimovun (müəllif: A.Şaiq) quruluş verdiyi "Tık-tık xanım" kukla tamaşası azyaşlıların sevincinə səbəb olub və iki gün ərzində uşaqlar üçün oynanılacaq tamaşaların sayı artırılıb.

Hər iki rayonda axşam tamaşalarında sənətsevərlər teatrın baş rejissoru, Xalq artisti, Prezidentin fərdi təqaüdçüsü Valeh Kərimovun quruluşunda yazıçı İsi Məlikzadənin "Subaylarınızdan görəsiniz" əsərinin səhnə həlli ilə tanış oublar. Tanınmış sənətçi Valeh Kərimovla tamaşaçıların görüşü də maraqlı keçib. Görüş zamanı onun iştirak etdiyi müxtəlif tamaşalardan səhnəciklər də oynanılıb.

Qeyd edək ki, qastrol tamaşalarını rayon rəsmiləri də izləyib və sonda çıxış edərək məmnunluqlarını bildiriblər.

*İlqar HƏSƏNOV,*
*XQ- nin bölgə müxbiri*

# HƏR KİTAB BİR DÜNYADIR

## Nəsrin növbəti "Nadir şah"ı

***Tanınmış yazıçı Eyvaz Zeynalovun "Nadir şah" romanı "Qanun" nəşriyyatında işıq üzü görüb.***




Bu əsər müəllifin sayca 6-cı, həcminə görə isə (568 səhifə) ən iri romanıdır. Təxminən, 5 ildən artıq müddətə ərsəyə gələn bu əsər Nadir şah haqqında indiyədək nəşr olunan romanlardan əhatəliliyi və tarixiliyi ilə fərqlənir. Romanda Nadir şahın həyatını, sərkərdə kimi yetişməsini, fatehliyini daha dolğun təsvir etmək üçün Rusiya, Osmanlı, Moğol imperiyalarında baş verən əlaqəli hadisələr xüsusilə seçilir. Nadir şah tarixdə dinə, təriqətlərə münasibəti ilə fərqlənib və dini islahatlar keçirən başçı kimi yaddaşlara həkk olunub. Son nəfəsinəcən sünni-şiə bölgüsünə qarşı mübarizə aparıb. Fəth etdiyi ölkələrdə yerli əhali ilə humanist davranıb, insanların rəğbətini qazanıb.

Əsərdəki bəzi hadisələr yazıçının təxəyyülünün məhsulu kimi maraq doğurur.

## Hüseyn Arifə Güney sevgisi

***Azərbaycan poetik epistolyar ədəbiyyatına aid nəşr edilən ilk kitab – "Arxada qalan illər" Xalq şairi Hüseyn Arifin bir neçə gün sonra qeyd olunacaq 100 illiyinə töhfədir.***

Kitabda Güney Azərbaycanda yaşayan istedadlı şair və tədqiqatçı Sədyar Vəzifə Eloğlunun mərhum Hüseyn Ariflə olan mənəvi dostluq və ədəbi yaradıcılıq əlaqələrini əks etdirən xatirə və şeirləşmələri yer alıb.

Bildiyimiz kimi, böyük Məhəmmədhüseyn Şəhriyarın "Heydərbabaya salam" poemasının sərhədləri aşması ilə güclənən həsrət poeziyası Azərbaycanın Quzeyi və Güneyi arasında xüsusi bir şeirləşmə forması yaradıb. Yəni, aşıq ədəbiyyatında olduğu kimi, məktub ədəbiyyatında da Azərbaycan şairləri biri-birinin üzünü görmədən, ancaq əsərləri ilə tanışlıq əsasında şeirləşir,




ədəbi mühitlərinə səmimiyyət yaradan xoş təsirlər buraxırlar. "Arxada qalan illər" buna gözəl nümunədir.

104 səhifəlik kitabın tərtibçisi, elmi redaktoru və ön sözünün müəllifi AMEA-nın Nizami Cəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Qəndab Haqverdi Əliyevadır.

*Ə.DOSTƏLİ*
*XQ*

# "ANİMAFİLM Lənkəranda"

**Cizgi və applikasiya filmlərini uşaqdan-böyüyə hamı maraqla izləyir. Lənkəranda şəhər Mədəniyyət Mərkəzində keçirilən "ANİMAFİLM Lənkəranda" adlı festivala da seyrçilər böyük maraq göstəriblər.**



Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi və Animasiya Assosiasiyası İctimai Birliyinin təşkilatçılığı ilə reallaşan festivalda ümumilikdə 900-dən çox azyaşlı və yeniyetmə iştirak edib. Onlar 29 film izləyib, səsvermədə iştirak ediblər. Tədbir çərçivəsində nümayişlərdən sonra geniş müzakirələr aparılıb və qaliblər müəyyənləşdirilərək mükafatlandırılıblar.

Mərasimdə Azərbaycan Animasiya Assosiasiyasının sədri Rəşid Ağamalıyev, Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Ülviyyə Əliyeva, Lənkəran-Astara Regional Mədəniyyət İdarəsinin rəisi Bəxtiyar Qılıncov və Lənkəran şəhər Mədəniyyət Mərkəzinin direktoru Anar Kəkəyev çıxış edərək layihə haqqında fikirlərini bölüşüblər. Bildirilib ki, Animasiya Assosiasiyası Azərbaycanda milli animasiya kino sənətinin inkişafına yardım etmək məqsədilə 2018-ci ildən etibarən Bakı şəhərində ANİMAFİLM Beynəlxalq Animasiya Festivalını keçirir. Ölkənin digər şəhərləri üçün nəzərdə tutulan bölmə "ANİMAFİLM festivalı regionlarda" adlanır. Bundan əvvəl layihə çərçivəsində Şəkidə və Naxçıvanda da tədbirlər reallaşıb.

Lənkəranda "Anidoc" adlı sənədli animasiya təlimləri də keçirilib. Rejissorlar Nəzrin Ağamalıyeva və Elçin Hami Axundov 2 gün ərzində 10 nəfər iştirakçıya film layihələrinin necə işləyib hazırlanmasını, təqdim və istehsal olunmasını öyrədiblər.

*XQ*

Günün mövzusu

# “Sizi toya dəvət edirəm”

## Bu məclislər bizə necə toy tutur?!

*Xalqımın toy kimi gözəl bir adəti var,*
*Onu qoruyub saxlamağa qüdrəti var...*

Ay hay, toy bəyəm ancaq bizim adətimizdi? Yoxsa, başqaları toysuz ailə qurur? Kim nə deyir desin, bizim toylar bineyi-qədimdən əndazəsiz olub. Yəqin nağıl-dastanlarımızın sonluğu yadınızdadı... Çox çək-çevirdən sonra qudalar ortaq məxrəcə gəlir və qızı verirlər bəyin oğluna, arada keçəlin də bəxtinə gün doğur və qulluqçunun ona ərə getməsinə etiraz olunmur... Qudalar arasında “böyük saziş” imzalanır və axırda qırx dəvə yükü cer-cehiz göndərilir bəy evinə. Nəhayət, qırx gün, qırx gecəlik toy çalınır.

Allah sizə insaf versin, bu uzunluqda da toy olar? Rəhmətliyin nəvələri, sizin başqa iş-gücünüz yoxdu, bəyəm? Belə toylardan iki-üçü olsa, əkin-biçin batar, şirkət müflisləşər ki. Evdə arvad-uşaq, toyuq-cücə də yaddan çıxar. Toylarda verilən xörəklərin çoxu da quş ətidi. Guya, toyuqla yanaşı bildirçin, turac, kəklik əti də verilir. Ancaq yeyəndən sonra görürsən ki, rəngli sular kimi bu ətlər də “girdirmə”di.

Yəqin xatırlayırsınız, bu yaxınlarda ölkəmizdə turizmin sürətli inkişafı ilə bağlı Afrika kəpənəkləri bizə qonaq gəlmişdilər. Rəngləri də elə o qara qardaşlarımıza uyğun gəlirdi. Sən demə, onlar da eşidiblər ki, bizdə quşlar qripə yoluxmurlar. Digər tərəfdən, dünya bilir ki, biz normadan artıq tolerantıq, heç bir qonağa “gözün üstə qaşın var” deyən deyilik...

Mənə deyən lazımdı ki, “heç hənanın yeridi”? Deməyim odur ki, nağıl-dastan quraşdıranda da gərək əndazəni gözləyəsən. Biz isə ölçü-biçini vecimizə alan deyilik. Başqa sözlə, az şeyə qane olmuruq, heç nəyin də yarısını istəmirik. Yəni, belə məsələlərdə yorğanın uzunluğunu unuduruq, sonra da ayağımızı uzadıb rahatlanmaq istəyəndə görürük ki, səhv eləmişik.





Məsələn, çoxumuz istəyir ki, ən bahalı avtomobili hamıdan əvvəl o sürsün, ən gözəl villa onun olsun, qızına ən bahalı mebeli o cehiz qoşsun... Sonra istəyirik hamı desin ki, onun oğlunun toyunda yemək-içmək sel kimi axırdı, quş südü-can dərmanı istəsəydin tapardın,”-yoxdu” sözü yox idi, beş-altı bərkgedən müğənni vardı...

Bir az o yana gedək, Məşədi İbadın bəlalı sevgisini və toyunu yada salaq. Bəlli olur ki, heç o vaxtlarda da toyun xərci az olmayıb. Özü də Məşədi sıradan bir zat olmayıb, ha, biznesmen olub. Amma Rüstəm bəylə razılaşmada belə deyib: “Axı bunun bir ətək toy xərci var...” Təəssüf ki, Məşədi qızla görüşə gedəndə “kraxabor”luq edib. Bir az indiki Şaxta babaların hədiyyələrindəki qəletdən, konfetdən yığıb dəstərxanın arasına və düşür yola. Heç biznesmenə yaraşan iş deyil. Başa salan da olmur ki, ay kişi, bəy balası cavan qız alırsan, bir dəst brilyant apar, konfet nədi? İndiki yaşlılar cavan xanımını evə gətirməzdən əvvəl ona villa tikdirir, “Ceep”, kiloynan qızıl alır, xarici ölkələri gəzdirir...

Bəli, mənə görə toylarımız həmişə əndazəsiz olub və bu gün də belədi.

Fikrimin təsdiqi üçün burada bir müqayisə yerinə düşər. Bir dəfə, necə deyərlər, şeytanın qıçını sındırıb Türkiyəyə toya getmişdik. İnsafən, bəyin atası bizi böyük sevinclə qarşıladı, məclisin yuxarı başında oturtdu. Çal-çağır başlandı. Arada sərin su payladılar. Bizə görə, əsas məsələyə gələndə gördük ki, plastik qablarda makaron, üstündə katlet verirlər və sair və ilaxır. Toya gələnlər də gəlinin örpəyinin üstünə o qədər də qiyməti olmayan qızıl bağlayır, hər iki gəncə xoşbəxtlik arzulayıb gedirdilər. Amma, onların da bu işdə bir əmması var. Bizdə olan “başlıq” və ya südpulu kimi onlarda da qız evi tərəfindən bir xərcalma var. Özü də az deyil, ha...

Mən bugünkü toylarımızın mənzərəsini təsvir eləmək istəmirəm və indi buna halım da yoxdu. Ancaq bu fikirdəyəm ki, o həngaməni bir görən və yaşayan ömründə yadından çıxara bilməz. Nöşün ki, indi stolumun üstündə hələlik üç dəvətnamə var və toyların hər üçü bu şənbə-bazar olmalıdı. İnşallah, Allah mübarək eləsin, oğullu-qızlı, yarıyanlardan olsunlar, qoşa qarısınlar və sair və ilaxır. Təbii ki, bu sözlərdən əvvəl toy sahibinə pul lazımdı. Çünki toy mafiyası o kişini də tora salıb və xərci haradan olsa tapıb verməlidi. Vallah, bu toylar bizə toy tutur. Hamı toyların belə keçirilməsindən dad eləyir, amma heç kəs də ayağını məlum “cığır”dan kənara qoymaq istəmir. Soruşanda da deyir ki, eldən-obadan ayıbdı, qohum-əqraba mənə nə deyər. Bilirəm ki, tənqid yazmağın da mənası yoxdu. Bir də bizim oxucu 3T məsələsi ilə (təqdir, tənqid və təklif) qane olan deyil, necə deyərlər, “labavoy” tənqid olmadı, yazını oxumur.

A kişilər, adam toya kimləri dəvət edər? Mənim fikrimcə, yaxın qohum-qardaşı, yaxın qonşuları, ailə dostlarını, iş yoldaşlarının bir neçəsini, bəyin dostlarını və sair. Bu da uzağı eləsin yüz, yüz əlli nəfər. Yoxsa, altı yüz, səkkiz yüz nəfər? Bir də görürsən ki, biri pişik ilində kiminləsə beş-altı gün səfərdə olub, tez onun ünvanını tapıb dəvətnamə göndərir. Həmin adam da dəvətnaməni əlinə alıb fikirləşir ki, o toya getsin, getməsin? Pulu çoxdusa bir yüzlük göndərir və zəng edib dil-ağız eləyir ki, bağışla, işdən çıxa bilmədim, yaxud da deyir ki, bacıoğlunun toyuna da getməliydim... Tutaq ki, həmin adam o toya gedəydi. Axı, o, həmin məclisdə heç kimi tanımır, neynəsin, kiminlə söhbət eləsin, nə qədər lal-dinməz otursun?

Yaxud eşidirsən ki, filankəs toy eləyir. Dəvətnaməyə baxırsan, harada eləsə yaxşıdı? Ən bahalı şadlıq saraylarının birində. Aləmə də car çəkdirir ki, bir yerin qiyməti azı səksən, yaxud yüz manatdı. Öz-özünə deyirsən ki, bu adamın, məndən beş-betər, “cındırından cin hürkür”, niyə başa salan yoxdu ki, yorğan məsələsi... Toy başa çatana kimi də içini yeyir ki, birdən belə olmadı, elə oldu. Bəzən elə olur da.

Ötən il aran rayonlarından birində maraqlı bir olay baş verib. Biri oğluna toy eləyir və hansı səbəbdənsə xeyli adam məclisə gəlmir. Toy sahibi də eləmir tənbəllik, toya gəlməyən dəvətliləri verir məhkəməyə. Nə olsun? Yazıq o hakim hansı qanuna əsaslanıb zərərçəkənə kömək eləsin? Buna bənzər başqa bir hadisə də olub. Toy sahibi oğlunun toyuna gəlməyənlərin yeməyini zurna-balabanla onların evinə göndərib, pul istəyib. İnanın, bəzəmirəm, bəzəsəm uzun olar...

Olmazmı ki, biz toylarımızı təm-təraqdan uzaq, xudmani və sakit keçirək, israfın qarşısını alaq? Axı, hər şey bir yana, israf dinimizə görə böyük günah sayılır. Vallah, onda heç toy barədə söz-söhbətlər bu qədər olmaz və mən də bu uzunluqda yazı yazmaram. Yoxsa, zala girəndən çıxanadək gətir-götür, süz vuraq... O yandan da naşı oxuyanların oxuduğu ara mahnıları qulaqlarımızı çırmaqlamaz. Axırda da milli plovumuz gələndə çoxları durub getməz.

Yazının bu yerində yenə gözüm masanın üstündəki dəvətnamələrə sataşdı. Öz-özümə dedim: “Həmişə toyda!”

***Səməd MƏLİKZADƏ***

21 May Beynəlxalq Çay Günüdür

# Armudu stəkanda çay...

**Çox vaxt tanışlıq, münasibət və ünsiyyət, hətta uzun illərin dostluğu bu dəvətdən, bir stəkan çaydan başlanır. Bəzən adi məişət ritualı təsiri bağışlayan bir stəkan çay ən xoş təmas və münasibətin başlanğıcına çevrilir.**

Mayın 21-də qeyd olunan Beynəlxalq Çay Günü süfrələrimizin ən çox sevilən, ilin istənilən fəslində və günün hər vaxtı qəbul edilən içkisi haqqında söhbət açmaq təsadüfi deyil: təqvimin bir günü də hər gün içdiyimiz çaya ayrılıb.



Yayın qorabişirən istisində ürəyimiz yananda çətin ki, ayran, atlama, limonad, kola, fanta içib sərinləyəsən. Ya gərək su, ya da gərək çay içəsən.

Hansısa ziyafət, qonaqlıq, məclis, ləziz yemək süfrəsi olursa-olsun, mütləq onun sonu çay süfrəsi ilə yekunlaşmalıdır. Çayla yekunlaşmayan süfrə bir növ natamam olur. Hətta xalqımızın uzun illərdən gələn belə bir ənənəsi də var: qız evinə elçi gedəndə və razılıq alınanda mütləq şirin çay içilməlidir. Bu, gənclərin izdivacına xeyir-dua vermək əlaməti sayılır.

Çayın sağlamlıq üçün faydasını da qeyd etmək lazımdır, xüsusilə mövsümü soyuqdəymələr zamanı onun qəbulu çox xeyirlidir. Ağır və yağlı yeməklərdən 1 saat sonra qəbul olunması həzm prosesini asanlaşdırır. Ona rəng verən birləşmələr damar çəpərlərini gücləndirir, beyin də daxil olmaqla bütün orqanlarda hər cür qanaxma riskini azaldır. Çay içilməsi qan dövranını yaxşılaşdırır, diş minasını möhkəmləndirir, bədəni zərərli maddələrdən təmizləyərək böyrəklərin daha yaxşı işləməsini təmin edir.

Çay könlümüzə rahatlıq və dinclik gətirən içki olmaqla yanaşı, həm də mədəniyyət nişanəsidir. Heç bir məclisi - rəsmi danışıq tədbirindən tutmuş adi dost süfrəsinə qədər onsuz təsəvvür etmək olmaz. Görünür, elə buna görə də onun şəninə söz, şeir qoşublar, mahnı bəstələyiblər. İllərdir ki, belə mahnılardan biri çayın özü kimi ürəklərə sərinlik çiləyir:

**Armudu stəkanda çay,**
**Ürəyimiz yananda çay...**

Hətta belə bir ifadə də var: Çayın biri qaydadı, ikisi cana faydadı, çıxdın beşə, vur on beşə.

Armudu stəkanda buğlanan pürrəngi çay...

Həm ətirlidir, həm də dadlı...

***Süleyman QARADAĞLI***

# Əcnəbi göydə avtomobillə uçur...

**Çinin “Xpeng Motors” şirkəti 2025-ci ilin dördüncü rübündə “Aeroht” uçan avtomobilinin kütləvi istehsalına başlamağı planlaşdırır. Bu barədə chinadaily.com.cn məlumat yayıb.**



Qeyd olunur ki, uçan avtomobillər yalnız uçuşa yararlılıq icazələri, eləcə də milli tənzimləyici orqanlar və məhsul təhlükəsizliyi agentliklərindən sertifikat və təsdiq alındıqdan sonra satılacaq.

“Aeroht” səkkiz pər və dörd elektrik mühərrikindən istifadə etməklə onlarla metr havaya qalxa bilir. Elektriklə işləyən avtomobilin vaxtının çox hissəsini yerdə keçirəcəyi, yalnız yol maneələrini və ya tıxacları aradan qaldırmaq üçün səmaya qalxacağı gözlənilir. Startapın yaradıcısı Zhao Deli hesab edir ki, onun şirkətinin yolundakı ən mühüm problem texnoloji problemlər deyil, tənzimləyicilərin məhdudiyyətləridir, çünki belə avtomobilin sahibinə təkcə sürücülük vəsiqəsi deyil, həm də pilot vəsiqəsi lazım ola bilər.

Bundan əvvəl Yaponiyanın “Suzuki” və “Skydrive” şirkətlərinin uçan avtomobil istehsalına başladığı məlum olub. “Skydrive” (SD-05) modeli pilot da daxil olmaqla üç nəfərə qədər daşımaq üçün nəzərdə tutulub. O, 12 elektrik mühərriki ilə təchiz olunub və şaquli qalxma və enmə qabiliyyətinə malikdir. Uçan avtomobilin maksimal sürəti saatda 100 kilometr, uçuş məsafəsi isə 15 kilometr olacaq.

Uçan avtomobil 2026-cı ildə satışa çıxarılacaq. Bundan əvvəl avtomobil sertifikatlaşdırma və digər zəruri prosedurlardan keçməlidir.

***S.ELAY***
***XQ***

Həyatın içindən

# Bir cüt ayaqqabı nağılı

**Evimizin yanındakı bağdakı zibil qutularının yanından keçərkən rayon kommunal təsərrufatı birliyinin xidməti paltarını geyinmiş cavan və gözəl bir qadının qutuların qapaqlarını bərk-bərk sildiyini gördüm. Çox təəccübləndim, çünki birinci dəfə idi ki, burada belə bir ciddi təmizlik işi aparıldığını görürdüm.**

Yaxınlaşıb qadına müraciət etdim:

– Xanım, bir qapağa görə niyə bu qədər səy göstərirsiniz?

Qadını gözlərini mənə zillədi:

– Məndən də xanım olar?! Təkbaşına iki uşaq böyüdürəm, neyləyim, məcburam. Məni bura göndəriblər ki, bu zibil qutularını silim. Çarəm nədir, etməliyəm.

Söz tapmadım. O, haqlı idi və ona tapşırılan işi yerinə yetirirdi.

Təxminən, bir saat sonra gəzintidən qayıdanda həmin qadınla yenə də qarşılaşdım. Bu dəfə o, zibil qutularının yanındakı səkinin üstündə oturub düşüncələrə dalmışdı. Onu fikrindən ayırdım:

– Burada niyə oturmusan, işini qurtarmısan axı?!

Qadın bu dəfə də narazı şəkildə cavab verdi:

– Müdir əmr verib ki, burada oturub gözləyim. Çünki böyük müdirlərdən kimsə əraziyə gəlməlidir, yalnız o, gəlib-gedəndən sonra buranı tərk etməliyəm.

Mirzə Cəlilin məşhur “Poçt qutusu” hekayəsi yadıma düşdü. Əhvalım dəyişdi, sanki havam çatmırdı. Nə isə yoluma davam etdim.

Bir neçə gündən sonra yenə həmin yerdən keçirdim. Hava qaralmışdı. Gördüm ki, yalnız gözləri görünən, üzübağlı bir qadın yanında iki uşağı ilə zibil qutularını eşələyir. Uşaqlardan biri qız, o biri oğlan idi.

Bu an oğlan uşağının səsi qulaqlarımı titrətdi:

– Ana, bu ayaqqabılar gör nə qəşəngdir?!

– Bilirəm, sənin ayağına olacaq. Götür onları...

Qadının səsi tanış gəldi. Qəfil duruxdum. Bu, halına yandığım həmin gözəl simalı gənc qadın idi. Övladlarına ayaqqabı axtaran biçarə ana heç kimin onu tanımaması üçün üzünü gizlətmişdi.

Uşaqlar isə hay-küylə sevinclərini gizlədə bilmirdilər. Bir azdan yeni ayaqqlabılarını ayağına geyinib onları sınaqdan keçirən oğlanın səsi yenə ətrafı bürüdü:

– Ana, gör necə təzədir, heç ayaqlarımı sıxmır da. Gör, bacımın ayaqlarına da düşəni var?..

Həmin an həyatın acı sərtliyindən canıma üşütmə düşdü və tələsik oradan uzaqlaşmağa çalışdım. Mən bu məqamda gənc ana və övladlarının tapdıqları “qənimətə” - təzə ayaqqabılara necə ürəkdən sevindiklərini sözlə ifadə edə bilmirəm.



Əslində, həyatın amansızlığına baş əyməyən, sınmayan bir ana kəşf etmişdim. Onun üçün övladlarının sıxıntıdan qurtulmaları simasında gizlətdiyi və bəlkə, də əhəmiyyətsiz bildiyi gözəlliyindən daha qiymətli idi...

Səhəri gün zibil qutularının yanından keçəndə bir cüt köhnə ayaqqabı gördüm. Həmin qadının oğlunun köhnə ayaqqabıları idi.

O, yeni ayaqqabılarını geyinib köhnələri həyatın zibilliyinə atmışdı...

Oradan bahalı maşınlarda keçib gedənlər isə bu ailənin qayğılarının fərqində deyildilər.

***Kəmalə ABDİNOVA***
***XQ***

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti
tabeliyindəki idarələrə rezin təbəqələrin və paranitlərin satın alınması məqsədilə
MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il mayın 27-si saat 17.00-dəkdir.
Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).
Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.
Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.
Ünvan: Bakı, Mikayıl Useynov küçəsi 2.

“Beyləqan Avtonəqliyyat”ASC səhmdarlarının nəzərinə!

4 iyul 2024-cü il saat 11.00-da “Beyləqan Avtonəqliyyat”ASC səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir.
Gündəlikdəki məsələlər:
1. Cəmiyyətin 2023-cü il üzrə maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarının müzakirəsi və qarşıdakı vəzifələr barədə.
2. Digər məsələlər.
Ünvan- Beyləqan şəhəri, Magistral küçəsi.

*İdarə heyəti*

Xalq qəzeti
XQ
xalqqazeti.az

№ 105 (30509) 21 may 2024-cü il, çərşənbə axşamı

İDMAN

## Avropa çempionatı: 2 güləşçimiz finalda

**Azərbaycan paytaxtında güləş üzrə U-23 Avropa çempionatı start götürüb.**



Bakı İdman Sarayında keçirilən mötəbər yarışda əvvəlcə yunan-Roma güləşçilərimiz mübarizəyə başlayıblar. Komandamızın üzvlərindən Rəşad Məmmədov (55 kq), Ziya Babaşov (63 kq) və Xasay Həsənli (77 kq) uğurla çıxış edərək yarımfinala yüksəliblər. Növbəti mərhələdə Ziya Babaşov israilli Abere Fetene, Xasay Həsənli Rumıniya təmsilçisi Aleksandrin Qutuya qalib gələrək adlarını finala yazdırıblar. Rəşad Məmmədov isə gürcüstanlı Giorgi Toxadzeyə məğlub olduğundan bürünc medal uğrunda döyüşəcək. Medal qarşılaşmaları bu gün keçiriləcək.

Qeyd edək ki, Avropa çempionatı mayın 24-də başa çatacaq.

## Hidayət Heydərov dünya çempionu olub

**Azərbaycan cüdoçusu Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə keçirilən dünya çempionatının qalibi olub.**




Komandamızın üzvü Hidayət Heydərovun (73 kq) həlledici mərhələdə rəqibi Tatsuki İşihara (Yaponiya) olub. Vazari xalı ilə geridə olan Hidayət sona 10 saniyə qalmış ippon fəndi işlədərək dünya çempionu tituluna yiyələnib.

Qeyd edək ki, Azərbaycan cüdo tarixində bunadək yalnız Elxan Məmmədov 2013-cü ildə dünya çempionu olmuşdu.

Dünya çempionatı mayın 23-də başa çatacaq.

## Dünya kuboku: qızıl və gümüş medal

**Portuqaliyanın Maya şəhərində keçirilən akrobatika gimnastikası üzrə Dünya kubokunda millimizin üzvləri uğurla çıxış ediblər.**




Komandamız qarışıq hərəkətlərdə qızıl və gümüş medal qazanıblar. Daniel Abbasov və Murad Rəfiyev kişi cütlüyü bütün rəqibləri üstələyərək fəxri kürsünün ən yüksək pilləsində yer alıblar. Qarışıq cütlüklərin yarışında isə Ağasif Rəhimov və Raziyə Seyidli 2-ci yeri tutublar.

***L.QURBANOVA***
***XQ***

# Teatr həyatı anladan oyundur

**Əməkdar artist Ayşad Məmmədovla oynayacağı yeni obrazın məşqlərinə başlamazdan bir gün əvvəl görüşdük. Bizə dedi ki, sabahdan heç kimlə görüşməyəcəm, söhbət etməyəcəm, çünki çox məsuliyyətli bir obraza imza atmağa hazırlaşıram.**

Bu, hansı əsər, hansı obrazdır ki, aktyor onun məşqlərinə başlayanda özünü ətrafdan təcrid etməyi lazım bilir? Bu barədə sonda söhbət açacağıq. Hələlik isə, onun yaradıcılıq qalereyasına "səyahətimizə" yolun əvvəlindən başlayırıq.



***– Ayşad müəllim, Nəsir Sadıqzadə və Vaqif Abbasov kimi ustadlardan dərs almış, Hüseynağa Atakişiyevin teatrında püxtələşmiş və bu gün ölkənin baş səhnəsi olan Akademik Milli Dram Teatrında işləyən aktyor üçün sənət meydanı hansı imkanları açıb?***

– Akademik Milli Dram Teatrı mənim üçün müqəddəs məkandır. Çünki uşaqlıqdan atam məni o teatrın bütün tamaşalarına aparıb. Altı yaşımdan teatrın tamaşaçısı olmuşam. Atam Kamal Məmmədov Tofiq Kazımovla bir yerdə oxuyublar, dost idilər. Tofiq müəllim onu bütün premyeralara dəvət edirdi və teatrda öz lojasında oturdurdu – sağdan birinci lojada.

Tofiq müəllim atamın sənət zövqünə inanırdı. Atam sənəti həm yaxşı bilirdi, həm də ona çox bağlı idi. Ailə quranda anam atamın qarşısında şərt qoyub ki, aktyorluğu atmasan, səninlə evlənmərəm. Atam da anamı çox sevdiyindən onunla evlənib, sənətdən uzaqlaşıb, bir müddət kinoprokatda işləyib. Həsən Seyidbəyli filmlərinin premyeralarını atama görə Mərdəkan klubunda (atası sonralar Mərdəkan klubunun müdiri işləyib) təşkil edirdi.

İsrafil İsrafilov məni Milli Dram Teatrna dəvət edəndə sevindiyimdən qəhərləndim. Bu sənət məbədinin divarları arasında çox böyük sənətkarlar çalışıb. Onların enerjiləri həmin ocağa hopub. Gənc nəsil bunun fərqində deyil, amma mənim üçün çox önəmli məqamdır. Uşaqlıqdan qəlbimdə Akademik Milli Dram Teatrının möhürü var.

***– Belə bir yolu davam etdirmək asan olmadığı kimi, həm də məsuliyyətlidir.***

– Əlbəttə. Bir məqamı da deyim, Hüseynağa Atakişiyev rəhmətə getməsəydi, Dövlət Gənclər Teatrında qalsaydı, yəqin ki, mən bura gəlməzdim. Milli Dram Teatrı zirvə idisə, Gənclər Teatrı öz evim idi.

***– Hüseynağa Atakişiyev Şəki Dram Teatrında işləyəndə siz universitetdən təyinatla həmin teatra getdiniz. Bu hekayəti öz dilinizdən eşidək.***

– Üçüncü kursda oxuyanda Şəki Teatrında Hüseynağa müəllimin hazırladığı tamaşalara baxmışdım, çox xoşuma gəlmişdi. Hətta heyrətlənmişdim və düşünmüşdüm ki, mən hökmən bu teatrda işləyəcəm. Hüseynağa müəllim Rəhman Əlizadənin "Kəndimizin nağılları" əsərini tamaşaya qoymuşdu. Ona dedim ki, mən də sizinlə premyeraya getmək istəyirəm. Dəvət elədi, birlikdə getdik. Tamaşadan sonra Hüseynağa Atakişiyevlə görüşəndə dedim ki, mən bu teatrda işləmək arzusundayam. Dedi ki, buyur, gözüm üstdə yerin var. Odur ki, təyinat veriləndə israrla Şəki Teatrına getmək istədiyimi bildirdim. Ələkbər Hüseynovla birlikdə bizi göndərdilər Şəki Dövlət Dram Teatrına.

***– Şəki Dram Teatrı o vaxt xarici festivallarda iştirak edir, uğur qazanırdı. İrəvandakı teatr festivalına da getmişdi...***

– Bəli, 1984-cü ildə İrəvanın Sundukyan Teatrında Beynəlxalq Şekspir Festivalı keçirilirdi. Dünyanın çox yerindən böyük teatrlar gəlmişdi, Mixail Ulyanov kimi dahi sənətkarı Şekspir qəhrəmanlarının obrazında izləyirdik. Biz festivala "Romeo və Cülyetta" tamaşası ilə qatılmışdıq. Romeonu mən, Cülyettanı Zemfira Abdullayeva oynayırdı. Tamaşa çox uğurla qarşılandı, xarici ölkələrin aktyorları tamaşamızı çox bəyəndilər. Amma ermənilər bundan qıcıqlandılar və başladılar bizə sataşmağa. Hüseynağa müəllim tapşırdı ki, nə eləyirlərsə, eləsinlər, reaksiya verməyin... Orada maraqlı hadisə də olmuşdu. Son səhnədə Romeo zəhər içir axı, gördüm ki, şüşədəki həqiqətən zəhər dadır. Səhnəni oynadım, zəhəri "içib" yıxıldım yerə. Dilimin altında saxladığım "zəhəri" ağzımın küncündən yavaşca axıtdım. Sonra öytrəndim ki, şüşəni "səhv" salıb, mənə kamfora yağı veriblər.

***–Şəki Teatrından sonra Hüseynağa müəllimin özülünü qoyduğu Dövlət Gənclər Teatrında işlədiniz. Yəni ustad harda, siz də orda?***

– Hüseynağa müəllim Gənclər Teatrını artıq yaratmışdı, Həsən Əbluç orada "Aydın" tamaşasını hazırlayırdı. Ustad zəng elədi ki, Ayşad, bura gəl!

***– Çox obrazlarınız olub, amma razılaşın ki, tamaşaçı yaddaşında "Bəxt üzüyü"ndəki Hüseyn kimi qalmısınız. Hüseynin uğuru nədə oldu?***

– Vaqif Səmədoğlu ilə dost idik, əsərlərinin ilk oxucularından olmuşam. Özü bağışlayırdı. Onun əsərlərinin ruhunu duyurdum. "Yayda qartopu oyunu"nda rol almışdım. Sonra Hüseynağa müəllimin Şəki Teatrında hazırladığı "Bəxt üzüyü"ndə Rasimi mən, rəhmətlik Fərman isə Hüseyni oynadı. Möhtəşəm oynayırdı. Ramiz Əzizbəyli "Bəxt üzüyü" filmində Hüseyn rolunu mənə həvalə edəndə dedim onu Fərman oynamalıdır. Ramiz müəllim dedi ki, mən Hüseyn kimi səni görürəm. Tamaşadan Hüseyn obrazını əzbər bilirdim, onun ağrılarını yaşamışdım. Kinoya çəkiləndə Hüseyn artıq mənimçün doğma idi. Elə uğuru da bundadır. Hüseyn xarakteri içimdə zamanla bişmişdi, hazır idi.

***– "Bəxt üzüyü"ndən sonra kinoya az çəkildiniz...***

– Çəkildim, amma daha Hüseyn olmadı. "Əli və Nino" filmində Əlinin atasını oynadım. Fərqli rol idi.

***– Bəs uğurlu hesab etdiyiniz başqa rolunuz hansıdır?***

– Anarın "Yaxşı padşahın nağılı"nda Padşah, "Almaz"da Ocaqqulu, "Ölülər"də İsgəndər. Elə rollar az olur. Akademik Dram Teatrda oynadığım ilk rol "Lənkəran xanının vəziri" tamaşasında şairlərdən biri oldu. O da maraqlı idi, rəhmətlik Vaqif İbrahimoğlu fərqli quruluş vermişdi.

İndi Hüseyn Cavidin "İblis"ini hazırlayırıq. Cavid çox sevdiyim dramaturqdur, ən çox sevdiyim əsəri elə "İblis"dir. Böyük bir məsuliyyətin altına girmişəm, həm də qorxuram. İblis olmaq, İblisin varlığına qapılmaq dəhşətli gəlir mənə. Hələ məşqlər başlamazdan əvvəl mətni oxuyanda həyat yoldaşım deyirdi ki, deyəsən, yavaş-yavaş İblisə dönürsən. Qadınlar yaxşı başa düşürlər belə şeyləri.

***– Bir halda ki, iblisləşmədən danışdıq. Bayaq sənət söhbətləri deyəndə elə bunu nəzərdə tutmuşduq. Aktyor var, deyir mən obrazı oynayıram, digəri deyir ki, yaradıram. Obraza "daxil oluram" deyən də var. Sizdə necədir?***

– Oynayıram. Teatr həyatı anladan oyundur. Yaratmaq Allaha, Tanrıya xasdır. Şekspir də oyun deyirdi. Sadəcə, oyunu düzgün qurmaq lazımdır.

***– Səhnə obrazlarınızın əksəriyyətində monoloq var. Bəs Ayşad Məmmədov öz monoloqunda nə deyər?***

– Monoloq "İblis"də də var. Mənim monoloqum, yəqin, sakit və qısa olacaq, gözlərimi yumub deyəcəm: ölüm son monoloqdur.

***Söhbətləşdi:***
***Ramilə QURBANLI***
***XQ***

# Qədim Şərq kompası – Astrolab

**VIII əsrdə Abbasilər sarayında yaşamış görkəmli ərəb astronomu İbrahim bin Həbib əl-Fəzəri tərəfindən ixtira edilən astrolab orta əsrlərdə ulduzlar və planetlərin öyrənilməsində istifadə edilən ən mükəmməl kompas hesab olunur.**



Astrolabla göy cisimlərinin yeri müəyyən edilir və üfüqdən hündürlüyü ölçülürdü. Ərəblər bu yolla istiqaməti müyyənləşdirirdilər. Yeri gəlmişkən, astrolab həm də ərəblərin istifadə etdiyi ilk astronomik cihazdır. Ərəb aliminin bu ixtirası dünyanın ən böyük möcüzələrindən biri sayılır. Bu kəşf dənizçilər üçün çox faydalı olub. Belə ki. bu cihazın köməyi ilə dəniz və okeanlarda istiqaməti müəyyəndirmək mümkün olub.

Məlumat üçün onu da qeyd edək ki, İbrahim bin Həbib əl-Fəzəri məşhur ərəb riyaziyyatçısı və astronomudur. O, dövrün digər böyük alimi Yaqub ibn Tariq və oğlu Məhəmməd əl-Fəzəri ilə birlikdə Brahmaquptanın "Brahma-sphuta-siddhanta" traktatını sanskrit dilindən ərəb dilinə tərcümə edib. Bu tərcümə "Böyük Sindhind" adlanır. Ehtimal olunur ki, məhz bu tərcümə vasitəsilə hind rəqəmləri Hindistandan İslam dünyasına keçib.

***PÜNHAN***
***XQ***

Hava



## Abşeronda duman, bölgələrdə yağış, dağlarda şaxta...

***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, mayın 21-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Şimal-şərq küləyi əsəcək. Gecə 11-15°, gündüz 19-24° isti olacaq.***

Atmosfer təzyiqi 764 mm civə sütunundan 766 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 70-80 , gündüz 45-55 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Axşam yağıntıda fasilə olacaq. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 10-15°, gündüz 20-25° isti, dağlarda gecə 1° şaxtadan 3°-dək isti, gündüz 5-10° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

## Gənclərə "Açıq səma altında" dəstək

**Mərdəkan qəsəbəsində "Arts Council Azerbaijan" qeyri-hökumət təşkilatı tərəfindən "Açıq səma altında" pleneri keçirilib. Layihənin rəhbəri Dadaş Məmmədov qeyd edib ki, bu interaktiv yaradıcılıq tədbiri istedadlı gənclərin dəstəklənməsinə yönəlib və onların özünütəkmilləşdirməsi, sərbəst təcrübə mübadiləsi üçün platformaya çevrilib.**

Səhər saatlarından həm gənc rəssamların, həm də yaşlı nəslin ustadlarının da olduğu plener iştirakçıları açıq səma altında çalışıblar. Təşkilatçıların bildirdiyinə görə, bu tədbirin məqsədi təbii işıqda və havanın ətirli atmosferində kətanla ünsiyyət qurmaq üçün sadə bir fürsət olmayıb. Həmçinin rəssamlara açıq səma altında, təmiz havada yaradılan sənət əsərinin ətraf aləmin unikal nüanslarını özündə cəmləşdirdiyi imkan təklif olunurdu.

Plenerdə aşağıdakı sənətçilər iştirak ediblər: Röya Həsən, Gündüz Hunlar, Elşən İbrahimov, Ləman Nağıyeva, Mələk Abbaszadə, Ləman Hacıyeva, Hüseyn Kəngərli, Ruslan Rüstəmov, Təranə Əliyeva, Sürəyya Məmmədli, Nigar Əliyeva, Məryəm Qibləyeva,



Afaq Əkbər, Nailə Məhərrəmova.

"Arts Council Azerbaijan" qeyri-hökumət təşkilatının vurğuladığı kimi, plener ustadların özünü təkmilləşdirmə forması kimi gənclərə və yaradıcı ziyalılara dəstək məqsədilə həyata keçirilir.

***XQ***

*✓ Yeni Azərbaycan Partiyasının Nərimanov rayon şöbəsi tərəfindən Səlmi Namik qızı Manafovanın adına verilmiş 457380 nömrəli üzvlük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.*

**ALLAH RƏHMƏT ELƏSİN**

Şirvan şəhərindən İlqar Abbasov Bakı Şəhər İcra Hakimiyyətinin aparat rəhbəri Ayaz İmaməliyevə dayısı

**NEYMAN HACIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3940
SİFARİŞ 962
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV
Çapa imzalanmışdır 00:00